# 18 OKTYABR MÜSTƏQİLLİYİN BƏRPASI GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 224 (9969) 18 oktyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Çətin və şərəfli yol

### Müstəqilliyimiz gerçəkləşən arzumuz, milli qürurumuz və bir xalq kimi dünyada təsdiqlənməyimizin əbədi ifadəsidir

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşdu, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etdi. 2021-ci ilin 15 oktyabrında Prezident İlham Əliyev "Müstəqillik Günü haqqında" yeni qanun imzaladı. Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi.

Müstəqilliyimiz möhtəşəm sınaqlardan çıxdı. Azərbaycanın son 34 il ərzində əldə etdiyi bütün tarixi uğurlar məhz müstəqilliklə bağlıdır və bu dövrdən başlanır. Sovetlər İttifaqı hər nə qədər özünü bu təsisatda bir araya gəlmiş milli respublikaların bərabərhüquqlu birliyi kimi təqdim etməyə çalışsa da, aparılan siyasət, əslində, imperiya maraqlarına xidmət edir, sovet totalitar rejiminə uyğun hesablanırdı. Hər hansı bir işin həyata keçirilməsindən ötrü mərkəzdən saysız-hesabsız icazələr tələb olunurdu. Hətta sənədləşmə işləri, rəsmi protokollar, əmr və qərarlar, fərmanlar rus dilində aparılır, ana dilinin əhatə dairəsi getdikcə kiçilirdi. Belə bir mühitdə milli inkişafdan danışmaq mümkünsüz idi.

Tarix isə təkrar olunurdu. 1918-ci ildə Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Milli Şura İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradıldı, dövlət atributları təsis olundu, sərhədləri müəyyən edildi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi.

9



## Dövlət müstəqilliyimizin bərpası günündə daha bir qələbə

### 5 il öncə Azərbaycan əsgəri qədim Xudafərini "əsirlik"dən azad etmişdir

Ermənilər 30 ilə yaxın işğal dövründə Xudafərin kəndini darmadağın etmiş, xarabalığa çevirmiş, evləri, inzibati binaları və bütün tikililəri söküb dağıtmışlar. Xudafərin körpüsünün və Xudafərin kəndinin işğaldan azad edilməsi Vətən müharibəsinin ən əlamətdar hadisələrindən sayılır. 2020-ci il sentyabrın 27-də Zəfər yürüşünə başlayan Azərbaycan Ordusu həmin gün eyni zamanda Cəbrayılın Hacılı və Hacı İsaqlı kəndlərinin işğalına son qoymuşdur.

Azərbaycan memarlıq məktəbinin ən qədim nümunələrini özündə ehtiva edən 11 tağlı Xudafərin körpüsü İran-Azərbaycan sərhədində, Araz çayı üzərində yerləşən XI-XII əsrlərə aid tarixi abidədir. Tədqiqatçılar onun XIII yüz ildə, Elxanilərin (Hülakülər) hakimiyyəti illərində antik dövr körpüsünün qalıqları üzərində yenidən tikilməsini ehtimal edirlər. Körpünün uzunluğu 130 metrə yaxın, eni 6 metr, çay səviyyəsindən hündürlüyü 12 metrdir. Hazırda üç orta tağı salamatdır. Sahil tağları isə XX əsrin 30-cu illərində SSRİ-nin qərarı ilə dağıdılmışdır.

Xudafərin Azərbaycan memarlarının müstəsna mühəndislik bacarığının ən unikal nümunələrindən sayılır. Tədqiqatçıların bir çoxunun fikrincə, körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan ona Xudafərin adı verilib. Bu körpünün Azərbaycanın Hindistandan başlayaraq, Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri ilə iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük rol oynadığı barədə fikirlər söylənilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonuna ilk səfərləri zamanı Xudafərin körpüsünü ziyarət etmişlər. Həmin gün dövlətimizin başçısının söylədiyi fikirlər Xudafərin körpüsünə verilən tarixi dəyərdir: "Bu gün, noyabrın 16-sı, mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq. Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu torpaqlarda oturub, bizə meydan oxuyub. Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik".

Dövlətimizin başçısı və birinci xanım körpünü ziyarət etdikdən sonra Prezident İlham Əliyev körpüdə Azərbaycanın dövlət bayrağını ucaltdı. Bu mənzərə xalqımız üçün təkcə hərbi qələbənin deyil, həm də milli qürurun, mənəvi zəfərin təntənəsi idi.

12

## Əbədi və sarsılmaz müstəqillik

34 il əvvəl müstəqilliyini yenidən elan etsə də, reallıqdır ki, Azərbaycan həmin dövrdə dərin böhran içərisində idi. Təcavüzkar Ermənistan müxtəlif xarici güc dairələrindən aldığı siyasi və hərbi dəstək sayəsində torpaqlarımızın işğalına başlamışdı. Bir siyasi quruluşdan digərinə yenicə keçid edən, siyasi təlatümlərlə çalxalanan Azərbaycan uçurumun bir addımlığında idi. Ta ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdana və ölkəmizi qurtuluş yoluna çıxarana, Azərbaycanın müstəqilliyini əbədi və dönməz edənə qədər.

"Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm", - deyə Ulu Öndər Heydər Əliyev çıxdığı çətin və şərəfli yolda üzərinə götürdüyü məsuliyyətli işi layiqincə yerinə yetirəcəyini əminliklə xalqına vəd etmişdi.

Qısa müddətdə ölkədə daxili sabitlik yaradan və Ermənistanla atəşkəs razılaşması əldə edən Ulu Öndər Heydər Əliyev dünyaya Azərbaycanın cəlbedici investor məkanı olması fikrini qəbul etdirdi. Dahi şəxsiyyət ölkə iqtisadiyyatının ən böhranlı çağlarında müstəsna şəxsi səyləri sayəsində "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bununla Azərbaycan, sözün əsl mənasında, işıqlı günlərə çıxdı və 1994-cü ildə bu müqavilə ilə əsası qoyulan uğurlu iqtisadi diplomatiya bu sahədə əldə etdiyimiz nailiyyətlərin təməlini təşkil etdi.

14

## Beynəlxalq siyasətdə yeni mərhələ

Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı eyni zamanda Azərbaycanın öz sülh modelini dünyaya təqdimetmə fürsətidir. Müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı ordumuzun və diplomatiyamızın gücü ilə qazandığımız tarixi Zəfərdən sonra son illərdə Cənubi Qafqazda sülhün "Azərbaycan modeli"ni formalaşdırıb. Güc və diplomatiya balansı əsasında torpaqların azad edilməsi, həmin ərazilərdə reinteqrasiya və multikultural siyasət, region dövlətləri arasında iqtisadi inteqrasiya təşəbbüsləri bu modelin ayrı-ayrı elementləridir.

Yaxın Şərq kimi uzunmüddətli münaqişə regionuna bu modelin təqdim olunması Azərbaycanı praktik sülh qurucusu kimi tanıdır.

11

## Azərbaycan regional enerji qovşağına çevrilir

Bu il 20 Oktyabr - Energetiklər Günü həm ölkəmiz, həm də region üçün əlamətdar bir dövrə - Tarixi Zəfərimizin 5-ci ildönümünə təsadüf edir. Qarabağ və Şərqi Zəngəzurun azadlığı və dirçəlişi Azərbaycanın milli enerji sisteminə əlavə güc qataraq, ölkəmizin regional strateji enerji qovşağı kimi inkişafına yeni imkanlar yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cənubi Qafqazda geosiyasi mənzərəni dəyişən, enerji təhlükəsizliyini sülh, regional bağlantılar və iqtisadi inkişafla vəhdətdə dəyərləndirən vizioner siyasətinin nailiyyətləri ölkəmizin bölgədəki lider mövqeyini daha da möhkəmləndirib. Azərbaycanın regional inteqrasiyada oynadığı geosiyasi rol bu gün Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə, Avropa və Yaxın Şərq ölkələrini əhatə edən geniş enerji əməkdaşlığına yol açıb.



8




13

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Asiya Mədəniyyət Şurasının 4-cü iclasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Asiya Mədəniyyət Şurasının "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu" mövzusuna həsr olunmuş 4-cü iclasında ürəkdən salamlayıram.

Asiya qitəsi zəngin mədəni irsi, tarixi müxtəlifliyi və dinamik inkişaf potensialı ilə qlobal transformasiya proseslərini irəli aparmaq üçün geniş imkanlara malikdir. Bu coğrafiyanın xalqlarını təmsil edən siyasi partiyalar yalnız milli mədəni dəyərlərin qorunmasında deyil, həm də beynəlxalq əməkdaşlıq, qarşılıqlı hörmət və sivilizasiyalararası anlaşmanın təşviqində böyük rol oynayırlar.

ICAPP Asiya Mədəniyyət Şurası qitənin mədəniyyətlərarası dialoq potensialının üzə çıxarılmasında vacib platformadır. Asiya Mədəniyyət Şurasının budəfəki iclasının mərkəzi mövzusu bəşəriyyətin ən aktual prioritetləri ilə üst-üstə düşərək yeni qlobal nizamın humanist və inklüziv əsaslar üzərində qurulmasına xidmət edir.

Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu, mədəniyyətlərin, dinlərin və ənənələrin qarşılıqlı təsir mühitində formalaşdığı unikal bir məkan olmuşdur. Çoxmillətli və çoxkonfessiyalı ölkəmizin ictimai-siyasi inkişafında bütün dinlərin və etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət, etimad və sülh şəraitində birgəyaşayışı mühüm rol oynamışdır. Multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması Azərbaycan cəmiyyətinin sosial-mədəni əsaslarının ayrılmaz tərkib hissəsidir və dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Azərbaycan eyni zamanda beynəlxalq müstəvidə müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri təşviq edir, sivilizasiyalararası dialoq zəminində davamlı olaraq bir sıra təşəbbüslər irəli sürür. Azərbaycanın ənənəvi olaraq evsahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyət vasitəsilə sülhün təşviqinə yönələn beynəlxalq təşəbbüsləri dəstəkləyən mühüm platformaya çevrilmişdir.

Müasir dövrdə bəşəriyyət dərin transformasiya mərhələsini yaşayır, mövcud qlobal nizam silahlı münaqişələr, ekoloji böhranlar və sosial-iqtisadi bərabərsizliklər kimi çoxşaxəli çağırışlar qarşısında sınağa çəkilir. Bu şəraitdə mədəniyyət insanları və cəmiyyətləri ali bəşəri dəyərlər ətrafında birləşdirən və sosial inteqrasiyanı təşviq edən əvəzsiz amil kimi çıxış edir. Milli ənənələrin qorunması ilə yanaşı, dialoqa və qarşılıqlı anlayışa açıq olmaq müasir beynəlxalq münasibətlərdə ortaq gələcəyin kollektiv şəkildə formalaşdırılmasını şərtləndirir. Beləliklə, mədəniyyət qlobal sabitliyə töhfə verən mühüm alətə çevrilir.

Keçən ilin noyabrında Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbiri keçirməsi ölkəmizin qlobal dialoq, əməkdaşlıq və konsensus mərkəzi kimi rolunu bir daha təsdiqlədi. İqlim dəyişikliyi ilə mübarizə bəşəriyyətin ortaq səylərini tələb etdiyi kimi, beynəlxalq sülhün, mədəni qarşılıqlı anlaşmanın və qlobal həmrəyliyin qorunması da eyni miqyasda kollektiv öhdəlik zərurətini ortaya qoyur. Hər iki çağırış ölkələri qlobal məsuliyyət və kollektiv öhdəlik prinsipləri əsasında tədbirlər görməyə sövq edir.

Əminəm ki, Şuranın ölkəmizdə təşkil edilən 4-cü iclası Asiyada və onun hüdudlarından kənarda xalqlar arasında dialoq ənənələrinin daha da möhkəmlənməsinə, eləcə də qlobal mədəni inteqrasiyaya yeni təkan verəcəkdir.

İnanıram ki, bu iclasda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar qlobal dialoqu zənginləşdirərək beynəlxalq ictimaiyyətə həmrəylik və birlik mesajını çatdıracaq, xalqlarımız və ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Sizə ən xoş diləklərimi çatdırır və tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2025-ci il*

# Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin təsis edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyi təsis edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Səfirliyin strukturunu və ştat cədvəlini təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2025-ci il*

# Daxili İşlər Nazirliyində kollegiya iclası



**Oktyabrın 17-də Daxili İşlər Nazirliyində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyətinə", "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı sahəsində görülən işlərə", habelə cari ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Respublikanın 55 şəhər və rayonundan olan 6.279 vətəndaş qəbul edilərək əksəriyyətinin müraciəti yerində həll olunub, həmçinin 80.834 müraciətə baxılaraq təşəbbüskarlara hüquqları izah edilməklə yazılı cavablar verilib.

Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlərdə bütövlükdə qənaətbəxş olub, əvvəlki dövrlərin müsbət təmayülləri daha da inkişaf etdirilib.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 92,4 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayı 6,9 faiz, o cümlədən qəsdən adam öldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, quldurluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, informasiya texnologiyalarından istifadə edilməklə, odlu silahın tətbiqi ilə və əvvəllər məhkum olunmuşlar tərəfindən törədilən, ailə münaqişəsi zəminli və qrup halında cinayətlərin sayı azalıb. Qeyri-aşkar şəraitdə baş verən, eləcə də ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adam öldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Keçmiş illərdən bağlı qalmış 284 cinayətin açılması təmin edilib. Axtarışa elan edilmiş şəxslərin 85,1 faizi tutulub, itkin düşmüş şəxslərin 90 faizi, habelə mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə axtarılan 22.268 borclu şəxs tapılaraq aidiyyəti üzrə təhvil verilib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 408 nəfərdən ibarət 152 cinayətkar qrup zərərsizləşdirilib. Baş vermiş xırda talama faktlarının 87,7 faizi açılıb.

Qanunsuz dövriyyədən 4 ton 663 kiloqram, yəni ötən ilin eyni dövrü ilə müqayisədə 582 kiloqram çox narkotik vasitə çıxarılıb.

Yol-nəqliyyat hadisələrinin sayı 126 fakt, qəzalarda ölənlərin sayı 13 nəfər, xəsarət alanların sayı isə 157 nəfər azalıb.

Formula-1 Azərbaycan Qran prisi, III MDB Oyunları, həmçinin respublika və beynəlxalq əhəmiyyətli digər kütləvi tədbirlərdə asayiş və təhlükəsizlik etibarlı şəkildə və peşəkarlıqla qorunub.

Diqqətə çatdırılıb ki, daxili işlər orqanlarında xidmətin müasir tələblər səviyyəsində təşkili, əməkdaşların peşəkarlığının artırılması, təcrübəli və yüksəkixtisaslı kadr korpusunun formalaşdırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması üzrə zəruri tədbirlər davam etdirilib, gənclərin xidmətə qəbulunun təşviqi və təbliği məqsədilə ali və orta ümumtəhsil müəssisələrində mütəmadi görüşlər keçirilib.

Gündəlikdəki məsələlər barədə nazirliyin aidiyyəti baş idarələrinin rəisləri həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr, yol verilmiş nöqsanların aradan qaldırılması üzrə görülmüş işlər barədə məruzə edib, eyni zamanda məruzəətrafı çıxışlar dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, fəaliyyətin effektivliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən edib.

Nazir əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmin edilməsi və bu mühüm məsələdə polisin hər zaman insanların güvən yeri olduğunu xatırladaraq ərazi orqanlarının rəislərindən vətəndaşların müraciətlərinə bundan sonra da həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə aparılaraq qaldırılan məsələlərin qanuni və operativ həlli üçün səylərin gücləndirilməsini və tapşırılmış sahəyə məsuliyyətin daha da artırılmasını tələb edib. Antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, mediada və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə fəaliyyətin səmərəsinin yüksəldilməsi barədə konkret vəzifələri müəyyən edib. O, cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılmasının, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılmasının zəruriliyini nəzərə çatdırıb.

İlin başa çatmasına az müddət qaldığını diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov əldə edilmiş müsbət nəticələrin davam etdirilməsini, arxayınçılığa yol verilməməsini, şəxsi heyətin peşəkarlığının artırılması, icra intizamının daha da yüksəldilməsi, yeni informasiya texnologiyalarının geniş şəkildə tətbiqi üçün bütün qüvvə və imkanların səfərbər olunmasını, əməliyyat işinin səmərəsinin yüksəldilməsini tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.

***"Azərbaycan"***

# "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib

**Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim edib.**

"Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə rəy verilməsi üçün Hesablama Palatasına göndərilib və palatanın rəyi alındıqdan sonra Milli Məclisdə müzakirələri keçiriləcəkdir.

2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat məbləğində proqnozlaşdırılır. Növbəti il üçün dövlət büdcəsinin gəlir strukturunda qeyri-neft sektorunun payı əhəmiyyətli dərəcədə artır. Bu, büdcənin neft amilindən asılılığının daha da azalmasına gətirib çıxaracaq. Belə ki, gəlirlərin 57,4 faizi, vergilərin isə 78,7 faizi qeyri-neft mənbələri hesabına formalaşacaq.

Növbəti il üçün büdcənin xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində müəyyən olunub. Dövlət büdcəsinin xərcləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilən prioritetləri, o cümlədən müdafiə qabiliyyətinin, əhalinin sosial müdafiəsinin təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, investisiya layihələrinin həyata keçirilməsi, habelə dövlətin funksiya və vəzifələrinə aid olan zəruri xərclərlə bağlı müvafiq maliyyə təminatını formalaşdırır.

Büdcə layihəsində qeyri-neft gəlirlərinin cari xərcləri ödəmə qabiliyyəti 88,1 faiz səviyyəsindədir. Bu, cari illə müqayisədə 7,1 faiz bəndi çoxdur.

Dövlət büdcəsinin kəsiri isə 3 milyard 94,6 milyon manat proqnozlaşdırılır ki, bu ÜDM-in cəmi 2,3 faizi həcmindədir.

2026-cı ildə Dövlət Neft Fondundan transfertlərin həcmi cari ilə nəzərən 1 milyard 646 milyon manat az proqnozlaşdırılmışdır. Bu, büdcənin neft gəlirlərindən asılılığının azaldılması və valyuta ehtiyatların qorunması istiqamətində görülən tədbirlərin bariz göstəricisidir.

Növbəti il üçün icmal büdcənin gəlirləri 1 milyard 18,8 milyon manat artaraq 44 milyard 969,4 milyon manat, xərcləri isə 1 milyard 209,9 milyon manat artaraq 48 milyard 839,3 milyon manat, kəsiri isə 3 milyard 870 milyon manat məbləğində müəyyən olunub.

2026-cı ildə icmal büdcədə qeyri-neft gəlirlərinin payı 63 faiz proqnozlaşdırılır. Bu, son illər ərzində qeyri-neft sektorunun büdcə gəlirlərindəki rolunun davamlı şəkildə artdığını göstərir. Müqayisə üçün 2023-cü ildə bu göstərici 43,9 faiz, 2024-cü ildə 52,4 faiz, 2025-ci ildə isə 58,4 faiz təşkil edib.

Ümumilikdə 2026-cı ilin dövlət büdcəsi qeyri-neft gəlirlərinin sabit artımı və neftdən asılılığın azalması ilə fiskal dayanıqlılığı təmin etməyi, xərclərin isə sosial-iqtisadi prioritetlərə uyğun həyata keçirilməyi və dövlətin funksiyalarına aid zəruri xərclər üçün maliyyə təminatı yaratmağı hədəfləyir.

Qanun layihəsi qəzetin bugünkü nömrəsində dərc olunub

***"Azərbaycan"***

# III Azərbaycan Milli Şəhərsalma Forumu öz işini başa vurub




**Bu gün III Azərbaycan Milli Şəhərsalma Forumu (NUFA3) öz işini başa çatdırdı. Forum Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən birgə təşkil olunub və "İqlimə davamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusunu əhatə edib.**

AZƏRTAC xəbər verir ki, bu il forum iki şəhərdə - Xankəndi və Bakıda keçirilib. Onlayn və oflayn 1500-ə yaxın iştirakçı, o cümlədən 65 ölkədən 200-dən artıq nümayəndəni bir araya gətirən tədbirdə hökumət nümayəndələri, qardaşlaşmış şəhərlər, səfirlik və diplomatik nümayəndəliklər, akademik institutlar və beynəlxalq təşkilatlar, özəl sektorlar, vətəndaş cəmiyyətlərinin nümayəndələri və ekspertlər iştirak ediblər. Forumun ümumi onlayn izlənmə sayı 1400-ə yaxın olub.

Tədbir çərçivəsində 10 panel sessiya təşkil edilib. Sessiyalar zamanı dayanıqlı şəhərsalma, iqlim dəyişmələrinə uyğunlaşma, inklüziv inkişaf və şəhərlərin bərpası kimi aktual məsələlər müzakirə olunub. İştirakçılar mənzil təminatı, maliyyə və innovasiya mexanizmləri, ərazi planlaşdırılması, rəqəmsallaşma, mədəni irsin qorunması və sağlam şəhər icmaları sahələrində qabaqcıl təcrübələri bölüşüblər.

Həmçinin Azərbaycanda post-münaqişə bərpası modelinə xüsusi diqqət yetirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri "Building Back Better" ("Daha yaxşı bərpa") prinsiplərinə əsaslanaraq təhlükəsiz, dayanıqlı və yaşayış üçün əlverişli şəhər mühitinin formalaşdırılmasına yönəlib.

Azərbaycan Gənclər Təşkilatları Milli Şurası (NAYORA) ilə birgə "Gələcək Şəhərlərimiz üçün Gənclərin Birliyi" mövzusu altında keçirilən tədbirdə gənclər dayanıqlı şəhərlərin gələcəyi, innovativ yanaşmalar və gənclərin bu prosesdə fəal iştirakı barədə fikir mübadiləsi aparıb.

Ayrıca bir sessiya mənzil məsələsinə həsr olunub. Bu mövzu 2026-cı ildə "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" devizi altında Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumunun (WUF13) əsas konsepsiyası ilə səsləşir.

Bağlanış tədbirində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13 üzrə milli koordinator Anar Quliyev çıxış edərək bildirib ki, NUFA3 şəhərlərin gələcəyi ilə bağlı milli, regional və qlobal dialoqun gücləndirilməsində mühüm mərhələ oldu və Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumuna hazırlıq istiqamətində əməkdaşlıqda yeni səhifə açıb.

Çıxışının sonunda Anar Quliyev forumun ruhunu və məqsədini əks etdirən simvolik mesajla iştirakçılara müraciət edib: "Birlikdə elə bir gələcək qura bilərik ki, hər şəhər iqlim çağırışlarına davamlı, hər icma sağlam, hər bir insan isə bu şəhər hekayəsinin ayrılmaz hissəsi olsun".

◆ Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca rəsmi səfəri

# Roma Papası XIV Leo ilə görüş







**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Roma Papası XIV Leo tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında son illərdə münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox işlər gördüyünü diqqətə çatdırıb.

Birinci vitse-prezident Heydər Əliyev Fondu ilə Vatikan arasında imzalanmış sazişlərə əsasən, bəzi layihələrin uğurla başa çatmasından sonra digərlərinin icrasına başlanıldığını vurğulayıb.

Mehriban Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.

Görüşdə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti, eyni zamanda ikinci Katolik Kilsəsinin tikintisi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumat verilib.

Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyərək, Birinci vitse-prezidentə təşəkkürünü bildirib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Müqəddəs Taxt-Tacın rəhbəri Vatikanın Azərbaycanla bu layihələri davam etdirməkdə maraqlı olduğunu deyərək, ikinci Katolik Kilsəsinin tikintisinə ayrılmış torpaq sahəsinə görə təşəkkürlərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. Roma Papası Heydər Əliyev Fonduna görülən işlərə görə minnətdarlığını ifadə edib.

Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın rəhbərinə minnətdarlığını bildirərək, Roma Papasını Azərbaycana səfərə dəvət edib.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikanın dövlət katibi ilə görüşüb



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 17-də Vatikanın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva kardinal Pietro Parolini yenidən görməyinə şad olduğunu deyərək, katolik dünyasını "Yubiley İli" münasibətilə təbrik edib.

Vatikanın dövlət katibinin keçən ilin noyabrında Azərbaycanda keçirilən COP29 tədbirində iştirakına görə təşəkkürünü bildirən Birinci vitse-prezident ölkəmizin Müqəddəs Taxt-Tacla inkişaf edən əməkdaşlığının son illər ərzində vüsət almış dinamikasından məmnunluğunu ifadə edib.

Azərbaycanın dini tolerantlıq və multikulturalizm dəyərlərini özündə birləşdirən ölkə olduğunu diqqətə çatdıran Mehriban Əliyeva bunun həm dövlət siyasəti, həm də cəmiyyətimizin yaşayış tərzi olduğunu vurğulayıb. Birinci vitse-prezident Müqəddəs Taxt-Tacla əməkdaşlıq çərçivəsində Heydər Əliyev Fondu tərəfindən görülən işlər barədə danışaraq, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu bildirib. Ölkəmizdə katolik icması ilə münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən Birinci vitse-prezident deyib: "Dövlət katibinin keçən ilin noyabrında Azərbaycanda qaldırdığı məsələ - ölkəmizdə ikinci Katolik Kilsəsinin tikilməsi müsbət həllini tapmaqdadır. Prezident İlham Əliyev tərəfindən artıq bu barədə müsbət qərar verilib və bu yaxınlarda paytaxtımızda ikinci Katolik Kilsəsinin inşasına başlanılacaq". Mehriban Əliyeva kardinal Pietro Parolinin Azərbaycanda ölkəmizin və xalqımızın yaxın dostu kimi tanındığını qeyd edib, əməkdaşlığımızın sürətlə və uğurla inkişafına görə ona minnətdarlığını bildirib.

Pietro Parolin Birinci vitse-prezident Mehriban Əliyevanı yenidən görməkdən şərəf duyduğunu deyərək, Azərbaycan dövlətinə, münasibətlərin bu səviyyəyə çatdırılmasında səylərinə görə şəxsən Prezident İlham Əliyevə dərin təşəkkürünü ifadə edib. O, keçən ilin noyabrında COP29-la bağlı Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev tərəfindən qəbul olunmasını Müqəddəs Taxt-Taca hörmətin təzahürü kimi qiymətləndirib. Heydər Əliyev Fondunun dəstəyi ilə uğurla həyata keçirilən layihələr barədə danışan kardinal bu əməkdaşlığı yüksək dəyərləndirib. O, həmçinin Azərbaycanda fəaliyyət göstərən katolik icması ilə dövlət arasında nümunəvi münasibətlərin mövcud olduğunu diqqətə çatdıraraq, dövlətlərimizin əməkdaşlığının möhkəmləndirilməsinin önəmini vurğulayaraq deyib: "Bakıda ikinci Katolik Kilsəsinin tikilməsi çox təqdirəlayiq haldır, buna görə Azərbaycana minnətdarıq. Bu, bir daha ölkənizdə bütün dinlərə göstərilən qayğı və hörmətin təzahürüdür. Azərbaycan bu mənada bir çox ölkələr üçün nümunədir".

Kardinal Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Feketenin Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif edilməsinin Müqəddəs Taxt-Taca hörmətin daha bir əlaməti olduğunu diqqətə çatdırıb.

Dövlət katibi Pietro Parolin avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ tərəfindən Birgə Bəyannamənin imzalanması, Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması münasibətilə ölkəmizi təbrik edib, Vatikanın regionda sülhün bərqərar olmasını birmənalı şəkildə dəstəklədiyini bildirib.

Təbriklərə görə kardinal Pietro Parolinə minnətdarlığını ifadə edən Birinci vitse-prezident Mehriban Əliyeva Vaşinqton Sammitinin nəticələrini yüksək qiymətləndirərək, Azərbaycan və Ermənistan rəhbərlərinin sülh gündəliyinə sadiq qaldıqlarını, regionda davamlı sülhün bərqərar olmasına ümidvar olduğunu vurğulayıb.

## Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti ilə görüşü olub

**Oktyabrın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə qubernatorluğun prezidenti Raffaella Petrini Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələrə görə Azərbaycan dövlətinə dərin və səmimi təşəkkürünü bildirib. Rahibə Raffaella Petrini Azərbaycanın Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca səfərlərini yüksək qiymətləndirərək, Mehriban Əliyevanın qarşılıqlı anlaşmanın, dinlərarası dialoqun və mədəni əlaqələrin inkişafına göstərdiyi dəyərli dəstəyə görə minnətdarlığını bildirib. O qeyd edib ki, belə təşəbbüslər xalqlar arasında dostluğun, qarşılıqlı anlaşmanın və mehriban münasibətlərin formalaşmasına xidmət edir.



Birinci vitse-prezident Mehriban Əliyeva səmimi qəbula və göstərilən diqqətə görə Vatikan dövlətinin qubernatorluğuna minnətdarlığını ifadə edib. Mehriban Əliyeva rahibə Raffaella Petrinini Bakıya rəsmi səfərə dəvət edərək, Azərbaycanla Vatikan arasında əməkdaşlığın yeni istiqamətlərdə genişləndirilməsinin vacibliyini vurğulayıb. Raffaella Petrini dəvəti məmnunluq hissi ilə qəbul edərək, yaxın zamanlarda Azərbaycana səfər etmək niyyətində olduğunu bildirib.

Qarşılıqlı hörmət şəraitində keçən görüşdə Azərbaycan ilə Vatikanın qubernatorluğu arasında mədəni, dini və humanitar sahələrdə praktiki əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.





**Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca rəsmi səfəri**

# Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri Vatikan bağlarında ağacəkmə mərasimində iştirak ediblər





**Oktyabrın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə birgə Vatikan bağlarında ağacəkmə mərasimində iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan tərəfinin Müqəddəs Taxt-Taca hədiyyəsi olan və ölkəmizdən gətirilən nar ağacı respublikamızda həyat mənbəyinin, ailə bütövlüyünün, bolluğun və məhsuldarlığın rəmzi kimi qəbul edilir. Bildirilib ki, bir çox faydalı xüsusiyyətlərə malik olan nar mədəniyyətimizin müxtəlif aspektlərində geniş istifadə olunur.

Tarixi, memarlıq və dini baxımdan böyük əhəmiyyətə malik Vatikan bağlarında əkilən nar ağacı Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında dostluğu və əməkdaşlığı təcəssüm etdirəcək.

Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini Azərbaycan tərəfinin bu dəyərli hədiyyəsinə görə Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirərək, onun dövlətlərimiz arasında yüksələn xətlə inkişaf edən dostluğun və əməkdaşlığın vacib bir rəmzini təşkil edəcəyini vurğulayıb.

# Vatikanda Müqəddəs Pyotr Bazilikasında görülmüş bərpa işləri ilə tanışlıq

**Oktyabrın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda Müqəddəs Pyotr Bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Müqəddəs Pyotr Bazilikasının baş keşişi kardinal Mauro Qambetti Birinci vitse-prezident Mehriban Əliyevaya kilsə və burada görülən bərpa işləri barədə məlumat verib.

Bildirilib ki, Müqəddəs Pyotr Bazilikası dünyanın ən böyük kilsəsi olmaqla katolik aləminin dini mərkəzi hesab edilir və Vatikandakı dörd Papa bazilikasından biridir. Həmçinin kilsə memarlıq baxımından bəşəriyyətin ən möhtəşəm tikililərindən sayılır. Əsası IV əsrdə qoyulsa da, mövcud bina XVI-XVII əsrləri təmsil edir.

Diqqətə çatdırılıb ki, kilsənin rəhbəri Papa hesab olunur və onun idarəçiliyi Müqəddəs Taxt-Tacın rəhbəri tərəfindən təyin edilən kardinala həvalə olunur. Həmin kardinal eyni zamanda Vatikan şəhər-dövlətinin baş keşişi statusunu daşıyır. 2021-ci il fevralın 20-dən italyanəsilli kardinal Mauro Qambetti Müqəddəs Pyotr Bazilikasının rəhbəri vəzifəsini tutur.



Qeyd edək ki, 2019-cu il fevralın 28-də Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Bazilikası arasında kilsədə yerləşən "Roma Papası I Leo ilə Hun imperatoru Atillanın görüşü" barelyefi və bazilikanın nekropolundakı "Tullius Zetus" məqbərəsinin bərpasına dair müqavilə imzalanıb. Layihə üzrə bərpa işləri başa çatdırılıb.

Müqəddəs Pyotr Bazilikasının baş keşişi kardinal Mauro Qambetti Birinci vitse-prezident Mehriban Əliyevaya kilsədə görülən bərpa işlərinin yüksək səviyyədə və qısa zamanda həyata keçirilməsinə görə dərin təşəkkürünü ifadə edib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan Apostol Kitabxanasını ziyarət edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 17-də Vatikan Apostol Kitabxanasında olub.**

AZƏRTAC xəbər verir ki, Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi Birinci vitse-prezident Mehriban Əliyevaya Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Vatikan Apostol Kitabxanası və Vatikan Apostol Arxivi arasında bu yaxınlarda imzalanmış Anlaşma Memorandumu çərçivəsində bərpa olunan və rəqəmsallaşdırılan tarixi əlyazmalar, həmçinin tarixi mənbələr haqqında məlumat verib.

Diqqətə çatdırılıb ki, 2013-cü və 2014-cü illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikan Apostol Kitabxanasında aşkar edilmiş Azərbaycanın tarixi və mədəniyyəti, o cümlədən türkdilli irsin qorunması kontekstində əhəmiyyətə malik 75 əlyazmanın bərpası və rəqəmsallaşdırılması artıq həyata keçirilib.

Qeyd olunub ki, Vatikan Apostol Kitabxanası və Vatikan Apostol Arxivi ilə əməkdaşlıq azərbaycanlı alim və tədqiqatçılara burada mühafizə olunan nadir əlyazmalara, qədim xəritələrə, eləcə də müxtəlif dillərdə dəyərli nəşrlərə çıxış imkanı verəcək. Bildirilib ki, bu, gələcəkdə həmçinin Azərbaycanın tarixi və mədəni irsi barədə yeni və mühüm məlumatların əldə olunmasına şərait yaradacaq.

Xatırladaq ki, Vatikan Apostol Kitabxanası dünyanın ən qədim və zəngin kitabxanalarından biridir. Onun əsası rəsmi olaraq 1475-ci ildə Papa IV Sikstus tərəfindən qoyulub. Bu kitabxanada tarix, din və mədəniyyətlə bağlı 80 mindən çox əlyazma, 1,6 milyondan çox kitab mühafizə olunur. Əsas kolleksiyaları qədim əlyazmalar, inkunabullar (XV əsrə aid kitablar), xəritələr, qravürlər və yazılı sənədlərdən ibarətdir. Kitabxana tədqiqatçıların və alimlərin elmi araşdırmaları üçün açıqdır.









Vatikan Apostol Arxivi Müqəddəs Taxt-Tacın əsrlər boyu topladığı rəsmi sənədlərin, məktubların və inzibati yazışmaların qorunduğu müqəddəs və elmi cəhətdən dəyərli məkandır. Bu arxiv həm kilsə, həm də dünya tarixi baxımından nadir və bənzərsiz irsi özündə cəmləşdirir. Uzun illər "Gizli Vatikan Arxivi" kimi tanınan bu məkanın adı 2019-cu ildə Papa Fransisk tərəfindən dəyişdirilərək Vatikan Apostol Arxivi adlandırılıb.

Dünyanın ən böyük tarixi arxivlərindən biri sayılan Vatikan Apostol Arxivində IX əsrdən günümüzədək olan dövrə aid sənədlər toplanıb. Bu arxiv Katolik Kilsəsinin yaddaşı hesab olunur. Onun funksiyası kilsənin tarixi qərarlarının, mövqelərinin və diplomatik münasibətlərinin gələcək nəsillər üçün saxlanmasını təmin etməkdir. Arxiv birbaşa Papaya tabedir və onun təyin etdiyi prefekt tərəfindən idarə olunur.

Sonda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Apostol Kitabxanasına Azərbaycanın tarixi, təbiəti və mədəni irsinə həsr olunmuş bir sıra kitab və nəşrlər hədiyyə edib.

## Milli Məclisin plenar iclasında

# Heydər Əliyevin sayəsində müstəqillik ideyası real məzmun kəsb etdi

**Oktyabrın 17-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, iclas tarixi bir günün ildönümü ərəfəsində keçirilir. 34 il öncə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti dövlət müstəqilliyimizin bərpasını elan edib.**



Bir əsr ərzində ikinci dəfə xalqımızın müstəqil dövlətini qurmaq imkanına nail olduğunu bildirən Milli Məclisin Sədri deyib: "Amma müstəqilliyi əldə etmək az idi, onu qoruyub saxlamaq da lazım idi. Təəssüf ki, yeni yaranmış dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verilmişdi.

Ermənistanın silahlı təcavüzü, torpaqlarımızın işğalı, yüz minlərlə soydaşımızın yurdlarını tərk etməsi ciddi problemlər yaratmışdı. İqtisadiyyat dağılır, anarxiya və özbaşınalıq genişlənirdi. Biz hamımız bu hadisələrin şahidi olmuşuq. Daxili mübarizəyə başı qarışan səriştəsiz iqtidar dövlətçiliyimizi müdafiə etməyə qadir deyildi. Ölkəmiz vətəndaş müharibəsinin astanasında idi. Dövlət müstəqilliyinin itirilməsi təhlükəsi real şəkil almışdı.

Məhz bu ağır vəziyyətdə xalqımız yenidən öz müdrik liderinə üz tutdu. 1993-cü ilin iyun ayında dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması tariximizin dönüş nöqtəsi oldu.

Heydər Əliyev təkcə ölkəni fəlakətdən xilas etmədi, həm də onu yenidən qurdu. Ümummilli Liderimizin həyata keçirdiyi milli qurtuluş missiyası nəticəsində Azərbaycan böyük təhlükələri aradan qaldırdı və davamlı inkişaf yoluna qədəm qoydu. Müasir dövlətçiliyin, iqtisadiyyatın, hüquq sisteminin, ordunun möhkəm təməlləri yaradıldı.

Ulu Öndər insanların öz gələcəyinə, dövlətinə və xalqına inamını qaytardı".

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, məhz Heydər Əliyevin fəaliyyəti sayəsində müstəqillik ideyası real məzmun kəsb etdi və dayanıqlı dövlətçilik sisteminə çevrildi. Milli suverenliyin möhkəm siyasi-hüquqi əsasları formalaşdırıldı. Ulu Öndər sübut etdi ki, güclü dövlət, səmərəli qanunlar və vətəndaş məsuliyyəti olmadan həqiqi müstəqillik mümkün deyil. Bu baxımdan 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması da Heydər Əliyev ideyalarının və əməllərinin təntənəsini ifadə edir.

Spiker bildirib ki, Ulu Öndərin strateji xəttini layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi müasir dünya dövləti olan Azərbaycanın qurulmasını təmin etmişdir: "Ötən 22 il ərzində ölkəmiz sabitlik və inkişaf məkanına çevrilmişdir. İndi Azərbaycan amili regional təhlükəsizliyin və iqtisadi əməkdaşlığın mühüm şərtidir.

Biz 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələr qazanmışıq. Ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi bərqərar etmişik.

Bu gün Azərbaycan Respublikası beynəlxalq platformalarda səsi eşidilən, öz sözünü inamla söyləyən bir dövlətdir. Təkcə son yarım ay ərzində baş vermiş beynəlxalq hadisələr də bir daha nümayiş etdirdi ki, Azərbaycanın qlobal siyasi dialoq sistemində sanballı yeri var.

Cənab Prezidentin Avropa Siyasi Birliyinin 7-ci Zirvə toplantısında, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə, MDB Dövlət Başçıları Şurasının Zirvə görüşündə və Yaxın Şərq Sülh Sammitində iştirakı, həmin tədbirlər çərçivəsində keçirdiyi görüşlər və apardığı danışıqlar göstərdi ki, Azərbaycan təkcə regional lider deyil, həm də beynəlxalq proseslərin nüfuzlu iştirakçısıdır.

Bu toplantılarda beynəlxalq və regional təhlükəsizlik, energetika, dayanıqlı inkişaf, sülh və digər məsələlər ilə bağlı Azərbaycanın aydın və dəqiq mövqeyi ifadə olundu. Möhtərəm Prezident dövlət başçıları ilə açıq dialoqda hamını düşündürən problemlərin ədalətli və beynəlxalq hüquqa əsaslanan çözüm yollarını təklif etdi. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan regional və qlobal gündəliyin formalaşmasında önəmli rol oynayan bir dövlətdir.

Parlamentin spikeri qeyd edib ki, oktyabrın 17-də ölkəmizdə Füzuli Şəhəri Günü qeyd edilir, üç gündən sonra isə Zəngilan Şəhəri Günü qeyd olunacaq. Bu gün güclü və qüdrətli Azərbaycan işğaldan azad etdiyi əraziləri yenidən həyata qaytarır. Məcburi köçkünlərimiz doğma yurdlarına dönürlər. Əminliklə söyləmək olar ki, möhtərəm İlham Əliyevin liderliyi, xalqımızın birlik və həmrəyliyi dövlətimizin yeni böyük nailiyyətlər qazanmasını, müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcək.

Milli Məclisin Sədri təklif edib ki, Müstəqilliyin Bərpası Günü münasibətilə möhtərəm Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlansın və Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə göstərdikləri dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulansın.

Sədr bayram münasibətilə deputatları səmimi-qəlbdən təbrik edib və parlamentin fəaliyyətini işıqlandıran media mənsublarına da təbriklərini çatdırıb.

Spiker çıxışında başçılığı ilə nümayəndə heyətinin oktyabrın 13-də və 14-də Pakistan İslam Respublikasında işgüzar səfəri barədə məlumat verib. Bildirilib ki, səfərin məqsədi Azərbaycan-Pakistan-Türkiyə Parlament Sədrlərinin Üçüncü Üçtərəfli Görüşündə iştirak etmək idi. O xatırladıb ki, Parlament Sədrlərinin birinci görüşü Azərbaycanda, ikinci görüşü Türkiyədə, üçüncü görüşü isə Pakistanın paytaxtı İslamabadda keçirilib.

Milli Məclisin Sədri deyib ki, oktyabrın 13-də keçirilən görüşdə üç ölkənin parlament sədrləri nitq söyləyiblər. Həm onun, həm də Pakistan Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiqin, Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilaninin və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşun çıxışlarında ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyəyə çatmasından məmnunluq ifadə olunub.

Spiker çıxışında Azərbaycan, Pakistan və Türkiyənin hər zaman bir-birinin yanında olduqlarını və bir-birini dəstəklədiklərini qeyd edib. Xalqımız 44 günlük Vətən müharibəsinin ilk günlərindən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyi heç zaman unutmayacaq. Qeyd olunub ki, Azərbaycan da bütün məsələlərdə hər zaman Türkiyəyə və Pakistana dəstək nümayiş etdirib.

Diqqətə çatdırılıb ki, elə həmin gün 5 nəfərdən ibarət deputat nümayəndə heyətimizin üzvləri Üçtərəfli görüş çərçivəsində keçirilən sessiyada ərazi bütövlüyü və suverenliyin müdafiəsi, xarici təhdidlərə qarşı həmrəylik, iqlim dəyişiklikləri və fəlakətlərə qarşı dayanıqlılıq, davamlı inkişaf üçün əməkdaşlıq strategiyaları mövzusunda çıxış edib və müzakirələrdə fəal iştirak ediblər.

Parlamentin spikeri bildirib ki, görüşün yekunlarına dair İslamabad Bəyannaməsi qəbul edilib. Qeyd olunub ki, bu sənəd parlamentlərimizin iş birliyi üçün yeni üfüqlər açır, onların regionda sülh, sabitlik və tərəqqi kimi ümumi məqsədlərə sadiqliyini təsbit edir.

Səfər çərçivəsində digər mühüm görüşlər də keçirildiyini deyən spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, oktyabrın 14-də Pakistan İslam Respublikasının Prezidenti Asif Zardari Azərbaycan və Türkiyə parlamentlərinin sədrlərini, eləcə də Pakistanla parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərini qəbul edib. Görüşdə ölkələrimiz və xalqlarımız arasında əlaqələr, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Elə həmin gün parlament sədrlərinin başçılıq etdiyi nümayəndə heyətləri Lahor şəhərində Pakistanın Pəncab əyalətinin baş naziri Məryəm Nəvaz Şərif ilə görüşüblər. Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı və parlament əməkdaşlığının genişləndirilməsi məsələləri müzakirə olunub.

Çıxışına yekun vuran Milli Məclisin Sədri Pakistan İslam Respublikasına işgüzar səfərin uğurlu olduğunu diqqətə çatdırıb, bir sıra digər tədbirlərin də keçirildiyini bildirib. Bununla əlaqədar nümayəndə heyətinin üzvlərinə təşəkkür edib.

Sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb. Müzakirələrdə komitə sədrləri Fazil Mustafa, Siyavuş Novruzov, deputatlar Məlahət İbrahimqızı, Bəxtiyar Əliyev, Aydın Mirzəzadə, Elman Nəsirov, Sahib Alıyev, Tənzilə Rüstəmxanlı, Ceyhun Məmmədov, Fariz İsmayılzadə çıxış ediblər.

Deputatlar 18 oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə təbriklərini çatdıraraq, bu tarixi günün mahiyyəti və əhəmiyyəti ilə bağlı fikirlərini bölüşüblər. 1991-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən Azərbaycan xalqının öz müstəqilliyini bərpa etdiyini deyən millət vəkilləri, həmin dövrdə ölkədə yaranmış mürəkkəb sosial-iqtisadi şəraitin müstəqilliyimizə törətdiyi təhlükələrdən bəhs ediblər. Məhz belə bir zamanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışının müstəqilliyin qorunub saxlanılmasında və inkişaf etdirilməsində müstəsna rolunu vurğulayıblar. Ulu Öndərin həyata keçirdiyi siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyini, müstəqilliyimizin daha da möhkəmləndiyini qeyd ediblər.

Çıxışlarda ölkə rəhbərinin son dövrlərdə iştirak etdiyi qlobal miqyasda mühüm əhəmiyyət kəsb edən tədbirlərdə Azərbaycan dövlətinin və xalqının mövqeyi baxımından səsləndirdiyi fikirlərin önəmindən söhbət açılıb. Bildirilib ki, dövlətimizin başçısının yürütdüyü uğurlu siyasət nəticəsində Azərbaycan artıq müstəqil, suveren, güclü dövlət, etibarlı tərəfdaş kimi nəinki regionda, dünya miqyasında layiqli yer tutub və söz sahibinə çevrilib. Prezident İlham Əliyev bu gün dünyanın aparıcı liderlərindən biri kimi tanınır. Onun rəhbərliyi ilə Azərbaycan qlobal sülhün, sabitliyin və əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfələr verir. Qeyd olunub ki, hazırda xalqımız Prezidentin ətrafında sıx birləşib, dövlətçiliyimiz sarsılmazdır və heç bir qüvvə Azərbaycanı müstəqillik yolundan yayındıra bilməz.

Millət vəkilləri habelə bir sıra digər aktual məsələlərə dair öz fikirlərini açıqlayıblar.

Sonra parlamentin Sədri Sahibə Qafarova gündəlik barədə məlumat verərək, ilk iki məsələnin beynəlxalq sənədlərin təsdiqi ilə bağlı olduğunu və bu qanun layihələrinin bir oxunuşda baxılaraq qəbul ediləcəyini bildirib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında qanun layihəsini təqdim edib. O bildirib ki, Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi məqsədilə bağlanmış saziş 9 iyul 2025-ci il tarixdə Əbu-Dabi şəhərində imzalanıb. Sazişdə malların və xidmətlərin ticarəti, investisiyalar, gömrük prosedurlarının sadələşdirilməsi, dövlət satınalmaları, rəqəmsal ticarət, əqli mülkiyyət hüquqları, kiçik və orta sahibkarlığın dəstəklənməsi, mübahisələrin həlli mexanizmləri və yekun müddəalarla bağlı əhatəli razılaşmalar öz əksini tapıb.

Bununla yanaşı, sazişin müddəalarına əsasən, tərəflər arasında gömrük rüsumlarının azaldılması və ya aradan qaldırılması, malların mənşəyinin müəyyən edilməsi, ticarət prosedurlarının asanlaşdırılması, texniki və sanitar-fitosanitar qaydaların beynəlxalq standartlara uyğunlaşdırılması nəzərdə tutulur. Eyni zamanda investisiyaların qorunması və təşviqi, rəqəmsal ticarətin inkişafı, dövlət satınalmalarında qarşılıqlı bazara çıxış kimi məsələlər də tənzimlənir. Sənəddə habelə sənaye, bərpaolunan enerji, kənd təsərrüfatı, maliyyə, logistika, turizm, tikinti və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişafına dair məsələlər yer alır.

Qeyd olunub ki, Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanmış bu saziş iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı üçün müasir beynəlxalq standartlara uyğun, əhatəli hüquqi baza yaradır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin inkişafının xüsusi önəm daşıdığını söyləyib, təqdim olunan sazişin iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi və uzunmüddətli strateji tərəfdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyətini qeyd edib və sənəd barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqlayıb.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra deputat Zaur Şükürov "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulmaq barədə qanun layihəsinə dair məlumat verib. Diqqətə çatdırıb ki, 27 yanvar 2021-ci il tarixdə Paris şəhərində imzalanmış Konvensiya preambula, 22 maddə və keçid müddəalardan ibarətdir. Sənəddə Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilatın təsis edilməsi, məqsəd və hədəfləri, funksiyaları, əsas və köməkçi orqanları, üzvlük və səsvermə, maliyyələşmə, hüquqi subyektivlik, imtiyazlar və toxunulmazlıq, imzalanma və ratifikasiya ilə bağlı məsələlər müvafiq maddələrdə əks olunub.

Qeyd olunub ki, təşkilatın məqsədi müvafiq hədəflərə çatmaq üçün dəniz naviqasiya avadanlığının tənzimlənməsi, təchiz edilməsi, texniki baxımı və ya istismarı ilə məşğul olan hökumətlərin və təşkilatların səylərini birləşdirməkdən ibarətdir. Bildirilib ki, ölkəmizin bu Konvensiyaya qoşulması dəniz naviqasiyası avadanlıqlarının təkmilləşdirilməsi və uyğunlaşdırılması sahəsində beynəlxalq əməkdaşlığın inkişafı, gəmilərin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, təcrübə mübadiləsi və müasir texnologiyaların tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələyə dair bu komitənin rəyini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra iclasda "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov bu qanun layihəsi barədə məlumat verib. O, layihənin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisin müzakirəsinə təqdim edildiyini söyləyib. Qeyd edib ki, layihə məhkəmə hakimiyyətinin müstəqilliyi, habelə məhkəmə hakimiyyətinin özünüidarə orqanı kimi Məhkəmə-Hüquq Şurasının statusu və səlahiyyətləri nəzərə alınmaqla hakimin xidməti vəsiqəsinin təsvirinin və nümunəsinin təsdiq edilməsi, xidməti vəsiqələrin təqdim olunmasının vahid formada Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilməsi məqsədilə hazırlanıb.

Bildirilib ki, layihədə hakimlərin xidməti vəsiqəsinin nümunəsinin Məhkəmə-Hüquq Şurası tərəfindən təsdiq edilməsi və Məhkəmə-Hüquq Şurasının sədri tərəfindən təqdim edilməsi müəyyənləşdirilir. Sənəddə "Hakimlərin xidməti vəsiqəsi haqqında" qanunun və həmin qanunla təsdiq edilən eyniadlı Əsasnamənin ləğv edilməsi təklif olunur.

Məsələ ətrafında müzakirələrdə parlamentin komitə sədri Zahid Oruc, deputatlar Vasif Qafarov, Tənzilə Rüstəmxanlı fikir və qeydlərini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda çıxış edən Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov məsələ barədə fikirlərini açıqlayaraq bildirib ki, bu qanun layihəsinin qəbulu ölkəmizdə ədalət mühakiməsinin təkmilləşdirilməsinə və məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsinə mühüm töhfə verəcək.

Çingiz Əsgərov habelə bu günlərdə Bakıda Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının keçirildiyini, Azərbaycan Prezidentinin iclas iştirakçılarına müraciət ünvanladığını, tədbir iştirakçılarının Milli Məclisin Sədri ilə görüşünün keçirildiyini deyib, bununla bağlı minnətdarlığını ifadə edib. O, bütün bunların Azərbaycanda hakimiyyət qolları arasında qarşılıqlı əməkdaşlığın bariz nümunəsi olduğunu vurğulayıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsindən bəhs edib. Bildirilib ki, sənəd Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunub. Layihə dövlət qulluğuna qəbul sahəsində yaranan münasibətlərin daha dəqiq və aydın tənzimlənməsini nəzərdə tutur. Belə ki, qanunun 28.12-ci maddəsinin ikinci hissəsindən "(müvafiq icra hakimiyyəti orqanı, habelə Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla)" sözləri çıxarılır və həmin hissəyə birinci halda "vəzifələrə" sözündən sonra "(yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri və Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla)" sözləri əlavə edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırıb ki, təqdim edilən qanun layihəsi Azərbaycan Prezidentinin 2023-cü il 23 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı hazırlanıb.

Bildirilib ki, həyata keçirilən işlər çərçivəsində milli akkreditasiya qurumu olan Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyindəki "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatına və Asiya-Sakit Okean Akkreditasiya Əməkdaşlığına tamhüquqlu üzv qəbul edilib. Qeyd olunan regional və beynəlxalq təşkilatlara üzvlük çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması zərurəti ilə əlaqədar layihədə adları sadalanan qanunlarda dəyişiklik edilməsi təklif edilir.

Layihəyə əsasən uyğunluğu qiymətləndirən qurumların əhatə dairəsi genişləndirilir və səriştəlilik sınaqlarının təşkili üzrə təminatçıların, validasiya orqanlarının və verifikasiya orqanlarının da uyğunluğu qiymətləndirən qurumlar sırasına daxil edilməsi təmin edilir. Bununla əlaqədar qanuna səriştəlilik sınağı, validasiya, verifikasiya anlayışları əlavə edilir. Uyğunlaşdırılma çərçivəsində "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında" və "Standartlaşdırma haqqında" qanunlarda düzəlişlər təklif olunur. Qeyd edilib ki, qanun layihəsi uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya sisteminin təkmilləşdirilməsinə və beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, bununla da akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən verilən uyğunluq sənədlərinin beynəlxalq səviyyədə tanınmasına xidmət edəcək.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Naqif Həmzəyev məsələ ilə əlaqədar bu komitənin rəyini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri qeyd edib ki, qanun layihəsi ixtisaslaşmış hərbi qulluqçuların bilik və bacarıqlarından ölkəmizin müdafiəsində daha səmərəli və uzunmüddətli istifadəsinin təmin edilməsi, gizirlərin və miçmanların həqiqi hərbi xidmətkeçməsi qaydalarının və bir sıra normaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Diqqətə çatdırılıb ki, layihədə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini, habelə xarici ölkələrin analoji orta ixtisas təhsili müəssisələrini bitirmiş gizir və miçmanların dinc dövrdə həqiqi hərbi xidmətdə olma müddətinin 10 il müəyyən edilməsi təklif olunur. Həmçinin "40 yaşınadək hərbi vəzifəlilər" ifadəsinin konkretləşdirilərək "hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan gizirlər və miçmanlar, 40 yaşınadək ehtiyatda olan əsgərlər, matroslar, çavuşlar" ifadəsi ilə əvəz edilməsi təklif edilir.

Bununla yanaşı, sənəddə Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün təhsil müəssisələrində hazırlanmış zabitlərin əldə etdikləri peşəsi və bilikləri ilə Silahlı Qüvvələrə daha səmərəli töhfə verməsinin və təcrübələrinin gənc zabitlərlə bölüşməsinin təmin edilməsinə şərait yaratmaq, həmçinin ölkəmizin müdafiəsində zabitlərin uzunmüddətli xidmətini təmin etməklə peşəkar kadr potensialını möhkəmləndirmək məqsədilə zabitlərin həqiqi hərbi xidmət dövründə əyani bakalavriat (əsas (baza ali tibb) təhsili) təhsili müddətinin də öz arzusu ilə ehtiyata buraxılma üçün nəzərdə tutulmuş 10 il müddətinə daxil edilməməsi təsbit olunur.

Bundan başqa, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunun 38.2-ci maddəsində nəzərdə tutulan hərbi qulluqçularının sərəncamda olma müddətlərinə yeni müddətin - "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 150-ci maddəsinə uyğun olaraq əyani təhsil almaqla əlaqədar (vəzifədə saxlanılması mümkün olmadığı hallarda) hərbi qulluqçunun təhsil müddətində sərəncamda olmasının əlavə edilməsi təklif edilir.

Dəyişikliklərə əsasən, habelə gizir və miçmanlar üçün ehtiyatda olmağın yaş hədlərinin ayrıca sətirdə göstərilməsi, birinci dərəcə ehtiyatda olan gizir və miçmanlar üçün ehtiyatda olmanın yaş həddinin 35 yaş, ikinci dərəcə ehtiyatda olan gizir və miçmanlar üçün 45 yaş və üçüncü dərəcə ehtiyatda olan gizir və miçmanlar üçün isə 55 yaş olması müəyyən edilir. Layihədə həmçinin birinci dərəcəli ehtiyatda olan hərbi vəzifəlilərin hər dəfə 1 ayadək müddətə on dəfəyədək hərbi təlim toplanışlarına çağırılması, müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifəlilərin hər dəfə 2 ayadək müddətə beş dəfəyədək hərbi təlim toplanışlarına çağırılması təsbit edilir. Sənəddə bir sıra texniki xarakterli dəyişikliklər də nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanun layihəsinin əsas məqsədi moped nəqliyyat vasitələrinin istismarına dair tənzimləmələrin təkmilləşdirilməsi ilə bağlıdır. Sənəddə təklif edilən dəyişikliklərdən biri moped idarə etmək üçün sürücülük vəsiqəsinin alınması tələbi ilə bağlıdır. Bu dəyişiklik sürücülərin bilik və bacarıqlarının artırılmasına və nəticədə yol hərəkəti təhlükəsizliyinin təmin olunmasına xidmət edəcək. Digər dəyişikliklərdə moped nəqliyyat vasitəsi anlayışının daha dəqiq müəyyən edilməsi, mopedlərin dövlət qeydiyyatına alınaraq uçota götürülməsi nəzərdə tutulur.

Qanun layihəsində həmçinin mopedlər üçün əvvəllər mövcud olan yalnız yolun sağ kənar zolağı ilə hərəkət etmək tələbinin aradan qaldırılması təklif olunur. Bununla yanaşı, sənəddə motosikletin və mopedin uzunu və ya eni üzrə qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya motosikleti, mopedi idarə etməyə mane olan yük aparmaq qadağan edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu"

## ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası keçirilib

**Oktyabrın 17-də Yeni Azərbaycan Partiyasının (YAP) evsahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin (DK) 44-cü və ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasları keçirilib.**





Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

ICAPP Daimi Komitəsinin 44-cü iclasında DK sədri Çunq Eu-yonq komitənin 43-cü iclasından ötən dövrdəki fəaliyyətinə nəzər salaraq görülən işləri diqqətə çatdırıb və qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin önəmini vurğulayıb. Daha sonra qarşıda duran vəzifələrə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası öz işinə başlayıb. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını YAP-ın evsahibliyi ilə Bakı şəhərində keçirilən ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasında salamlamaqdan məmnunluğunu ifadə edib və dəvəti qəbul edərək tədbirə qatıldıqları üçün təşəkkürünü bildirib.

YAP Sədrinin müavini vurğulayıb ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi geostrateji dəyişikliklər baş verməkdədir. Onun sözlərinə görə, qlobal kataklizmlər, çoxsaylı təhdid və çağırışlar fonunda yeni dünya nizamına transformasiya məsələsi aktual müzakirə predmetinə çevrilmişdir: "Dünyada hərbi-siyasi konfrontasiyaların, humanitar böhranların, dini və etnik müstəvidə bir çox ziddiyyətlərin yaşandığı bir dönəmdə müxtəlif mədəniyyətlərin daşıyıcısı olan xalqlar arasında sabitlik və tərəqqi naminə dialoq prosesi ümumbəşəri dəyərlərin qorunması və ölkələrin təhlükəsizliyi baxımından müstəsna əhəmiyyət kəsb edir".

Tahir Budaqov qeyd edib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edən Azərbaycan ədalətli geosiyasi nizamın tərəfdarı olaraq beynəlxalq hüquq normalarına, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə olunmaması və qarşılıqlı surətdə milli maraqların nəzərə alınması kimi prinsiplərə əsaslanan müstəqil və konstruktiv siyasət həyata keçirir. YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, eyni zamanda dünyada tolerantlıq nümunəsi kimi tanınan Azərbaycan zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlıq, inteqrasiya, sülh və təhlükəsizliyə xidmət etdiyini əməli fəaliyyəti ilə nümayiş etdirir. "Bu gün zəngin milli-mənəvi dəyərlərin daşıyıcısı və çoxəsrlik dövlətçilik ənənələrinə sahib olan Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Ölkəmizdə multikulturalizmin həm dövlət siyasətinin prioritetlərindən biri, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik məkanı və inkişaf diyarı kimi davamlı uğurlarını şərtləndirir. Multikulturalizm, sivilizasiyalararası dialoq, mədəniyyətlərin inteqrasiyası ideyalarının təşviqi istiqamətində ardıcıl işlərin görülməsi - mühüm layihələrin reallaşdırılması həm ölkə daxilində tolerantlıq mühitinin güclənməsinə, həm də Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə təkan verir. Təsadüfi deyil ki, bu gün respublikamızda yaşayan müxtəlif xalqların nümayəndələri, fərqli dini və etnik mənsubiyyətə malik toplumlar Azərbaycanın inkişafına önəmli töhfələr verirlər. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Qələbədə ölkəmizdə yaşayan bütün xalqların mühüm rolu var. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır", - deyə Tahir Budaqov əlavə edib.






YAP Sədrinin müavini vurğulayıb ki, Asiya və Okeaniyada 350-dən çox siyasi partiyanı bir araya gətirən ICAPP səmərəli dialoqun genişləndirilməsi və çoxtərəfli əməkdaşlığın təşviqi üçün etibarlı platformadır. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası da təşkilatın fəal üzvü qismində qarşılıqlı hörmət və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə əsaslanan konstruktiv işbirliyini dəstəkləməkdədir: "YAP indiyə qədər təşkilatın bir çox tədbirlərinə müvəffəqiyyətlə evsahibliyi etmiş, bəşəri əhəmiyyətli, qlobal xarakterli aktual mövzularda geniş fikir və təcrübə mübadiləsinin aparılmasına, siyasi partiyalar arasında dialoqun genişləndirilməsinə öz töhfələrini vermiş və ümumi məqsədlərimizə xidmət edən təşəbbüsləri ardıcıl surətdə dəstəkləmişdir. 2022-ci ildə Bakı şəhərində keçirilmiş ICAPP-ın "Təhlükəsizlik və əməkdaşlıq: siyasi partiyaların rolu" mövzusunda xüsusi konfransını bu baxımdan ayrıca qeyd etmək istəyirəm. "Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu" mövzusuna həsr olunmuş bugünkü iclasımız isə yeni dünya nizamına transformasiya şəraitində qlobal həmrəylik axtarışında olan bəşəriyyət üçün həm siyasi, həm də mədəni kontekstdə aktual məsələlərin müzakirəsi baxımından olduqca mühüm önəm kəsb edir".

ICAPP kimi mötəbər beynəlxalq platforma vasitəsilə müxtəlif ölkələrin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsinin son dərəcədə önəmli olduğunu söyləyən Tahir Budaqov "Partiyalarımız arasındakı sıx təmaslar ikitərəfli əlaqələrin inkişafına təkan verməklə yanaşı, bir çox istiqamətlərdə, o cümlədən mədəniyyətlərarası dialoq kontekstində uzunmüddətli və çoxşaxəli əməkdaşlığa hədəflənmişdir. Bugünkü tədbirimizin də beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inamımı ifadə edərək hər birinizə fəaliyyətinizdə uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm", - deyə əlavə edib.

Sonra çıxış edən ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının sabiq xarici işlər naziri Çunq Eu-yonq tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Yeni Azərbaycan Partiyasına təşəkkür edib. ICAPP Daimi Komitəsinin sədri bildirib ki, mədəniyyət, sadəcə, keçmişi əks etdirmir, eyni zamanda gələcəyimizi formalaşdıran dinamik qüvvədir. O, mədəni irsin qorunmasının və bu istiqamətdə fəaliyyətlərin təşviqinin cəmiyyətlərin inklüzivliyini effektiv şəkildə artıra biləcəyinə və sosial birliyi gücləndirəcəyinə əminliyini ifadə edib.

Çunq Eu-yonq UNESCO-nun mədəniyyəti milli və sosial dayanıqlılığın sütunu adlandırmasına diqqəti çəkib. O, təşkilatın 2024-cü il qlobal hesabatına istinad edərək mədəniyyətin mənsubiyyət, dialoq və ortaq məqsədi əsas götürməklə mədəni, siyasi və sosial dayanıqlılığı formalaşdırdığını deyib: "Mədəniyyət sahəsinə investisiya qoyuluşunda yaranan boşluqlar, çıxış imkanlarında bərabərsizlik və institusional dəstəyin çatışmazlığı bu sahənin sabitləşdirici roluna təhlükə yaradır. Bu, UNESCO-nun xəbərdarlıq etdiyi ciddi problemlərdəndir. Siyasətçilər olaraq biz bu məsələdə məsuliyyət daşıyırıq. Siyasi partiyalar, hökumətlər və mədəniyyət institutları arasında dialoq gücləndirilməlidir. Mədəni müxtəlifliyi demokratiyanın, barışın və dayanıqlı inkişafın təməl daşı kimi siyasət, təhsil və innovasiya sahələrinə daxil etməliyik".

Çunq Eu-yonq ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının əhəmiyyətinə toxunaraq tədbirin sürətlə dəyişən dünyada mədəniyyətin millətlər arasında necə mühüm bir körpü rolunu oynadığını, sülhü və qarşılıqlı hörməti təşviq etdiyini deyib. "Biz tədbir çərçivəsində aparılan müzakirələrdə zəngin mədəni irsimizin əməkdaşlığa necə təkan verə və davamlılığı necə gücləndirə biləcəyini müzakirə edirik. Birləşmiş Millətlər Təşkilatının "Mədəniyyət-2030" çərçivə sənədinə uyğun şəkildə müxtəlif mədəniyyətlərin inteqrasiya üsullarını müəyyən etmək olduqca vacib şərt kimi önə çıxır", - deyən Çunq Eu-yonq Asiya Mədəniyyət Şurasının yarandığı vaxtdan ICAPP-ın ən fəal platformalarından biri olmasına, mədəniyyəti sülh və həmrəyliyin hərəkətverici qüvvəsi kimi irəli aparmaq naminə səylər göstərdiyinə diqqəti çəkib. O, Bakıda baş tutan bu tədbirin əməkdaşlığı daha da dərinləşdirmək, dəyərli təcrübələri paylaşmaq, ideyaları mübadilə və yeni əməkdaşlıq yollarını müəyyən etmək üçün mühüm fürsət olduğunu bildirib.

Sonra Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin iclas iştirakçılarına müraciətini səsləndirib.

Daha sonra Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli çıxış edib. O bildirib ki, ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının Bakıda keçirilməsi ölkəmizə göstərilən etimadın və Yeni Azərbaycan Partiyasının beynəlxalq aləmdə etibarlı tərəfdaş olmasının göstəricisidir. Onun sözlərinə görə, bu qurum regional əməkdaşlığın və mədəni dialoqun inkişafında mühüm rol oynayır.

"Müasir dövrdə siyasi partiyalar cəmiyyətlərin və dövlətlərin həyatında, eləcə də ictimai-siyasi proseslərin formalaşmasında əhəmiyyətli yer tutur" , - deyən A.Kərimli əlavə edib ki, bu gün dünyada baş verən mürəkkəb geosiyasi proseslərin fonunda daha aydın görürük ki, siyasi partiyalar yalnız daxili siyasi sistemin deyil, həm də beynəlxalq əməkdaşlığın, xalqlar arasında həmrəyliyin əsas dayaqlarından biridir.

A.Kərimli qeyd edib ki, Azərbaycan qədim tarixə, zəngin mədəni irsə və dərin milli-mənəvi dəyərlərə malik olan bir ölkədir. Onun sözlərinə görə, Azərbaycanın mədəni irsinin və mədəni dəyərlərinin zənginliyindən, onun təsir gücündən bu gün dövlət idarəetməsində, ictimai münasibətlərdə və beynəlxalq əlaqələrdə önəmli təsir vasitəsi kimi istifadə edilir. "Mədəni dəyərlər və mədəniyyət amili Azərbaycan xalqının Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının qurucusu, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyevin dövlətçilik siyasətində əsas istiqamətlərdən birini təşkil etmişdir", - deyən nazirin sözlərinə görə, bu siyasi xətt bu gün də Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir: "Prezident İlham Əliyevin rəhbərliyi ilə mədəniyyət dövlətin beynəlxalq siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən olunmuşdur. Azərbaycan həm öz zəngin mədəni irsini qoruyur, həm də müasir qlobal mədəni proseslərin fəal iştirakçısına, multikulturalizmin ünvanına çevrilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Multikulturalizm bizim dövlət siyasəti olmaqla yanaşı, Azərbaycanda bir həyat tərzidir".

Nazir deyib ki, dövlətlər və xalqlar arasında mədəni mübadilənin inkişafında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd olunmalıdır: "Fond ölkə daxilində və xaricdə mədəni müxtəlifliyin təşviqi, dəyərlərimizin və irsin təbliği, həmçinin xarici ölkələrin mədəni irs nümunələrin bərpasında aktiv fəaliyyət göstərməkdədir. Vatikanda Roma katakombalarının bərpası, Parisdə Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası kimi çox sayda nümunələri qeyd etmək olar".

Onun sözlərinə görə, qloballaşma dövründə milli kimliyin qorunması, mədəni irsin gələcək nəsillərə ötürülməsi həm də milli təhlükəsizlik məsələsidir: "Milli müxtəlifliyi qorumaq və təşviq etmək yalnız milli dövlətlərin və hökumətlərin deyil, beynəlxalq təşkilatların və dünya ictimaiyyətinin də ümumi məsuliyyətidir".

ICAPP-ın Baş katibi, Koreya Respublikasının Monqolustandakı və Portuqaliyadakı sabiq səfiri Oh Sonq isə ICAPP Asiya Mədəniyyət Şurasının Fəaliyyət qaydalarına dəyişiklikləri və Büro üzvlüyünə namizədləri təqdim edib. YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov Asiya Mədəniyyət Şurasının sədri seçilib.

İclas ICAPP Daimi Komitəsi sədrinin müavini, Asiya Mədəniyyət Şurasının sabiq sədri, hazırda isə sədr müavini, Kamboca Milli Assambleyasının Xarici əlaqələr, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri, Kamboca Xalq Partiyasının Xarici əlaqələr komissiyası sədrinin birinci müavini Suos Yara və ICAPP Asiya Mədəniyyət Şurasının sədri, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Şahin İsmayılovun moderatorluğu ilə plenar sessiyalarla davam edib.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının sədri Şahin İsmayılov şuranın 4-cü iclasının yekun hesabatını təqdim edib.

Şahin İsmayılov bildirib ki, bugünkü tədbir Asiyanın mədəni potensialının yalnız keçmişə deyil, gələcəyə yönəlmiş strateji imkan olduğunu göstərdi: "Çıxışların ümumi təhlili onu deməyə əsas verir ki, mədəniyyət təkcə tarixi və irsi yaddaş deyil, həm də müasir dövrün iqtisadi və siyasi proseslərinə təsir edən vacib amildir. Bu prosesdə siyasi partiyaların rolu xüsusi vurğulandı. Onların faydalı əməkdaşlıq təşəbbüsləri gələcəkdə ortaq regional inkişaf üçün açar rolunu oynaya bilər. Siyasi partiyaların birgə fəaliyyəti, dialoqu və mədəni layihələrə dəstəyi bu kontekstdə xüsusi əhəmiyyət daşıyır. Region ölkələri mədəniyyət vasitəsilə təhsil, innovasiya, diplomatiya və iqtisadi sahələrdə ortaq gələcək vizionu formalaşdırmaq niyyətindədir. Bu istiqamətdə siyasi iradə, institusional əməkdaşlıq və konkret layihələrin icrası vacibdir".

Daha sonra Bakı Bəyannaməsi qəbul edilib.

Bağlanış nitqi ilə çıxış edən ICAPP Daimi Komitəsinin həmsədri və xüsusi məruzəçisi, Pakistan Müsəlman Liqası Nəvazın üzvü Muşahid Hüseyn Sayed Azərbaycan ilə Pakistan arasında səmimi dostluq, qardaşlıq və çoxşaxəli əməkdaşlıq münasibətlərinin olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Bakıda keçirilən ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası qarşılıqlı fikir mübadiləsi və əməkdaşlıq üçün mühüm platformadır.

ICAPP Daimi Komitəsinin həmsədri tədbirin ICAPP çərçivəsində səmərəli işbirliyinin önəmini diqqətə çatdıraraq siyasi partiyaların mədəniyyətlərarası dialoqa mühüm töhfə verə biləcəyinə inamını ifadə edib. O bildirib ki, yeni dünya nizamına transformasiya şəraitində mədəniyyətlərin inteqrasiyası olduqca vacibdir.

Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.

*Layihə*

# Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin gəlirləri 38 609 000,0 min manat, xərcləri 41 703 600,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 37 850 712,0 min manat, yerli gəlirləri 758 288,0 min manat, mərkəzləşdirilmiş xərcləri 40 944 465,0 min manat, yerli xərcləri 759 135,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 2 379 300 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6 580 000 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 47 000 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 376 000 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 9 216 300 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 750 000 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 429 000 000,0 |
| 2.7. | Aksizlər | 1 818 000 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 234 000 000,0 |
| 2.8. | Yol vergisi | 394 400 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 60 000 000,0 |
| 2.9. | Mədən vergisi | 151 000 000,0 |
| 2.10. | Gömrük rüsumları | 1 818 000 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 111 000 000,0 |
| 2.12. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 600 000 000,0 |
| 2.13. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 12 835 000 000,0 |
| 2.14. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 40 000 000,0 |
| 2.15. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 15 000 000,0 |
| 2.16. | Dövlət rüsumu | 362 000 000,0 |
| 2.17. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 75 000 000,0 |
| 2.18. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 1 021 000 000,0 |
| 2.19. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları üzrə daxilolmalar | 67 343 700,0 |
| 2.20. | Sair daxilolmalar | 273 656 300,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 250 000 000,0 |
| 3.1.1. | yol vergisi | 239 400 000,0 |
| 3.1.2. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) fəaliyyət istiqamətlərinə uyğun olaraq göstərdiyi ödənişli xidmətlərdən əldə etdiyi gəlirlər, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələr | 10 000 000,0 |
| 3.1.3. | iriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən qabarit, çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulmasına görə tətbiq edilmiş inzibati cərimələr | 600 000,0 |
| 3.2. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu üzrə daxilolmalar | 155 000 000,0 |
| 3.2.1. | yol vergisi | 155 000 000,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən (SVOP əməliyyatları istisna olmaqla) dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2026-cı il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarının digər gəlirləri.

**Maddə 6.** Bu Qanunun 9-cu maddəsi ilə 2026-cı il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmə səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 5 514 489 377,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 2 032 861 954,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 522 500 000,0 |
| 7.1.3. | xarici yardımlar | 19 000 000,0 |
| 7.1.4. | elm | 228 998 838,0 |
| 7.1.5. | seçki və statistika tədbirləri | 32 850 585,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 220 678 000,0 |
| 7.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 211 628 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 7 500 000,0 |
| 7.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 550 000,0 |
| 7.1.7. | dövlət borcu | 2 457 600 000,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 8 714 781 860,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 3 030 735 789,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 480 623 148,0 |
| 7.2.3. | sərhəd xidməti | 541 633 496,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 5 091 411,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 4 656 698 016,0 |
| 7.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 4 500 000 000,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 3 343 589 717,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 153 877 512,0 |
| 7.3.2. | hüquq-mühafizə | 2 429 033 517,0 |
| 7.3.3. | prokurorluq | 127 601 560,0 |
| 7.3.4. | məhkəmə qərarlarının icrası | 10 000 000,0 |
| 7.3.5. | hüquqi yardım | 9 082 128,0 |
| 7.3.6. | məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 613 995 000,0 |
| 7.4. | Təhsil | 5 015 897 622,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 468 191 803,0 |
| 7.4.2. | ümumi təhsil | 2 414 834 982,0 |
| 7.4.3. | peşə təhsili | 105 465 624,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 94 202 070,0 |
| 7.4.5. | ali təhsil | 212 479 231,0 |
| 7.4.6. | əlavə təhsil | 20 278 935,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 7 883 524,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 692 561 453,0 |
| 7.5. | Səhiyyə | 2 024 314 550,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 20 277 489,0 |
| 7.5.2. | xəstəxanalar | 219 727 828,0 |
| 7.5.3. | diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət | 2 953 649,0 |
| 7.5.4. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 5 119 969,0 |
| 7.5.5. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 776 235 615,0 |
| 7.5.5.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 900 000 000,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 4 872 958 194,0 |
| 7.6.1. | sosial müdafiə | 532 547 770,0 |
| 7.6.2. | sosial təminat | 60 386 156,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 4 280 024 268,0 |
| 7.6.3.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 700 000 000,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 631 644 031,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 240 745 620,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 78 721 874,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 50 078 099,0 |
| 7.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 848 131,0 |
| 7.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 239 250 307,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 334 479 395,0 |
| 7.8.1. | mənzil təsərrüfatı | 67 315 127,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 140 288 504,0 |
| 7.8.3. | su təsərrüfatı | 15 579 600,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 111 296 164,0 |
| 7.9. | Kənd təsərrüfatı | 1 222 126 452,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 553 522 428,0 |
| 7.9.2. | baytarlıq | 41 905 487,0 |
| 7.9.3. | meliorasiya | 489 998 537,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 136 700 000,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 420 151 140,0 |
| 7.10.1. | ətraf mühitin və təbiətin mühafizəsi | 785 420,0 |
| 7.10.2. | bioloji zənginliyin qorunması | 10 500 907,0 |
| 7.10.3. | torpaq və yerquruluşu | 15 100 000,0 |
| 7.10.4. | hidrometeorologiya tədbirləri | 11 687 955,0 |
| 7.10.5. | meşə təsərrüfatı | 21 220 450,0 |
| 7.10.6. | balıqçılıq və ovçuluq | 4 367 314,0 |
| 7.10.7. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 285 715 458,0 |
| 7.10.8. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 70 773 636,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 7 856 634 765,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 286 895 181,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 51 591 548,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 6 202 488 300,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 700 000 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 3 500 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 4 495 132,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 373 800,0 |
| 7.11.6. | iqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 1 310 790 804,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 752 532 897,0 |
| 7.12.1. | ehtiyat fondları | 410 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 300 000 000,0 |
| 7.12.1.2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 472 343 700,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 472 343 700,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 866 189 197,0 |
| 7.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 35 000 000,0 |
| 7.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.3. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 811 189 197,0 |

**Maddə 8**. Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinin xərcləri funksional təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf və iqtisadi təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddə səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9**. Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 16 910 000 000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid olan məbləğ 334 400 000,0 manat, yerli xərclər 759 135 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi 15 817 312 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 847 000,0 manat məbləğində təsdiq edilsin.

*(manatla)*

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər: cəmi | Gəlirlər: o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondlarına aid olan məbləğ | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | **Şəhərlər** | | | | | |
| 1. | Bakı | 15 376 500 000 | 334 400 000 | 350 654 000 | 14 691 446 000 | 0 |
| 2. | Gəncə | 113 564 000 | 0 | 34 031 000 | 79 533 000 | 0 |
| 3. | Lənkəran | 41 856 000 | 0 | 8 931 000 | 32 925 000 | 0 |
| 4. | Mingəçevir | 37 977 000 | 0 | 15 962 000 | 22 015 000 | 0 |
| 5. | Naftalan | 10 305 000 | 0 | 3 072 000 | 7 233 000 | 0 |
| 6. | Sumqayıt | 243 552 000 | 0 | 29 725 000 | 213 827 000 | 0 |
| 7. | Şəki | 38 958 000 | 0 | 7 629 000 | 31 329 000 | 0 |
| 8. | Şirvan | 35 273 000 | 0 | 5 167 000 | 30 106 000 | 0 |
| 9. | Yevlax | 27 687 000 | 0 | 6 817 000 | 20 870 000 | 0 |
| 10. | Xankəndi | 3 000 000 | 0 | 0 | 3 000 000 | 0 |
| | **Rayonlar** | | | | | |
| 11. | Abşeron | 116 504 000 | 0 | 10 221 000 | 106 283 000 | 0 |
| 12. | Ağcabədi | 26 256 000 | 0 | 6 209 000 | 20 047 000 | 0 |
| 13. | Ağdam | 15 838 000 | 0 | 6 817 000 | 9 021 000 | 0 |
| 14. | Ağdaş | 14 599 000 | 0 | 6 137 000 | 8 462 000 | 0 |
| 15. | Ağdərə | 1 000 000 | 0 | 0 | 1 000 000 | 0 |
| 16. | Ağstafa | 13 053 000 | 0 | 5 102 000 | 7 951 000 | 0 |
| 17. | Ağsu | 18 595 000 | 0 | 4 823 000 | 13 772 000 | 0 |
| 18. | Astara | 17 366 000 | 0 | 4 464 000 | 12 902 000 | 0 |
| 19. | Balakən | 9 845 000 | 0 | 4 636 000 | 5 209 000 | 0 |
| 20. | Beyləqan | 19 385 000 | 0 | 4 895 000 | 14 490 000 | 0 |
| 21. | Bərdə | 23 986 000 | 0 | 6 545 000 | 17 441 000 | 0 |
| 22. | Biləsuvar | 18 087 000 | 0 | 4 619 000 | 13 468 000 | 0 |
| 23. | Cəbrayıl | 3 313 000 | 0 | 3 126 000 | 187 000 | 0 |
| 24. | Cəlilabad | 16 693 000 | 0 | 6 302 000 | 10 391 000 | 0 |
| 25. | Daşkəsən | 7 768 000 | 0 | 3 921 000 | 3 847 000 | 0 |
| 26. | Füzuli | 16 650 000 | 0 | 6 658 000 | 9 992 000 | 0 |
| 27. | Gədəbəy | 11 337 000 | 0 | 6 727 000 | 4 610 000 | 0 |
| 28. | Goranboy | 14 005 000 | 0 | 6 876 000 | 7 129 000 | 0 |
| 29. | Göyçay | 22 622 000 | 0 | 5 287 000 | 17 335 000 | 0 |
| 30. | Göygöl | 22 176 000 | 0 | 6 419 000 | 15 757 000 | 0 |
| 31. | Hacıqabul | 10 838 000 | 0 | 4 671 000 | 6 167 000 | 0 |
| 32. | Xaçmaz | 45 412 000 | 0 | 7 734 000 | 37 678 000 | 0 |
| 33. | Xızı | 6 085 000 | 0 | 2 724 000 | 3 361 000 | 0 |
| 34. | Xocalı | 2 505 000 | 0 | 1 982 000 | 523 000 | 0 |
| 35. | Xocavənd | 1 370 000 | 0 | 2 217 000 | 0 | 847 000 |
| 36. | İmişli | 44 888 000 | 0 | 5 554 000 | 39 334 000 | 0 |
| 37. | İsmayıllı | 17 444 000 | 0 | 6 433 000 | 11 011 000 | 0 |
| 38. | Kəlbəcər | 4 857 000 | 0 | 4 682 000 | 175 000 | 0 |
| 39. | Kürdəmir | 20 016 000 | 0 | 4 810 000 | 15 206 000 | 0 |
| 40. | Qax | 6 895 000 | 0 | 5 151 000 | 1 744 000 | 0 |
| 41. | Qazax | 23 816 000 | 0 | 5 258 000 | 18 558 000 | 0 |
| 42. | Qəbələ | 31 917 000 | 0 | 7 088 000 | 24 829 000 | 0 |
| 43. | Qobustan | 6 716 000 | 0 | 4 410 000 | 2 306 000 | 0 |
| 44. | Quba | 40 434 000 | 0 | 7 138 000 | 33 296 000 | 0 |
| 45. | Qubadlı | 7 632 000 | 0 | 3 661 000 | 3 971 000 | 0 |
| 46. | Qusar | 20 185 000 | 0 | 5 641 000 | 14 544 000 | 0 |
| 47. | Laçın | 8 063 000 | 0 | 5 500 000 | 2 563 000 | 0 |
| 48. | Lerik | 6 372 000 | 0 | 5 124 000 | 1 248 000 | 0 |
| 49. | Masallı | 19 192 000 | 0 | 7 151 000 | 12 041 000 | 0 |
| 50. | Neftçala | 12 392 000 | 0 | 4 123 000 | 8 269 000 | 0 |
| 51. | Oğuz | 4 768 000 | 0 | 3 690 000 | 1 078 000 | 0 |
| 52. | Saatlı | 16 101 000 | 0 | 5 538 000 | 10 563 000 | 0 |
| 53. | Sabirabad | 18 033 000 | 0 | 5 793 000 | 12 240 000 | 0 |
| 54. | Salyan | 18 624 000 | 0 | 4 902 000 | 13 722 000 | 0 |
| 55. | Samux | 9 980 000 | 0 | 5 071 000 | 4 909 000 | 0 |
| 56. | Siyəzən | 8 964 000 | 0 | 3 573 000 | 5 391 000 | 0 |
| 57. | Şabran | 12 173 000 | 0 | 4 108 000 | 8 065 000 | 0 |
| 58. | Şamaxı | 19 493 000 | 0 | 7 513 000 | 11 980 000 | 0 |
| 59. | Şəmkir | 32 555 000 | 0 | 9 580 000 | 22 975 000 | 0 |
| 60. | Şuşa | 5 054 000 | 0 | 1 685 000 | 3 369 000 | 0 |
| 61. | Tərtər | 12 792 000 | 0 | 5 534 000 | 7 258 000 | 0 |
| 62. | Tovuz | 32 575 000 | 0 | 7 221 000 | 25 354 000 | 0 |
| 63. | Ucar | 10 339 000 | 0 | 3 733 000 | 6 606 000 | 0 |
| 64. | Yardımlı | 4 857 000 | 0 | 4 857 000 | 0 | 0 |
| 65. | Zaqatala | 18 197 000 | 0 | 5 893 000 | 12 304 000 | 0 |
| 66. | Zəngilan | 3 549 000 | 0 | 2 614 000 | 935 000 | 0 |
| 67. | Zərdab | 7 167 000 | 0 | 5 006 000 | 2 161 000 | 0 |
| | **Cəmi** | **16 910 000 000** | **334 400 000** | **759 135 000** | **15 817 312 000** | **847 000** |

**Maddə 10.** Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

**Maddə 11.** Azərbaycan Respublikasının 2026-cı il üzrə daxili və xarici dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 11.1. | Daxili dövlət borcu üzrə cəmi, o cümlədən: | 1 057 600 000,0 |
| | faiz xərcləri | 920 600 000,0 |
| 11.2. | Xarici dövlət borcu üzrə cəmi, o cümlədən: | 1 400 000 000,0 |
| | faiz xərcləri | 460 000 000,0 |

**Maddə 12.** Azərbaycan Respublikasının 2026-cı il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 2 000 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 6 000 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 3 000 000,0 min manat məbləğində təsdiq edilsin.

**Maddə 13.** Dövlət büdcəsinin icrası prosesində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin gəlirləri və kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmaların vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 14**. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 094 600,0 min manat məbləğində təsdiq edilsin. Onun maliyyələşdirilməsi özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2026-cı il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının sərbəst qalığı) hesabına həyata keçirilsin.

**Maddə 15**. Azərbaycan Respublikasının 2026-cı il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 48 839 322,6 min manat müəyyən edilsin.

**Maddə 16.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri nəzərə alınmadan, Azərbaycan Respublikasının 2026-cı il icmal büdcəsi kəsirinin yuxarı həddinin məbləği 16 902 226,6 min manat məbləğində müəyyən edilsin.

**Maddə 17.** Bu Qanun 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

## 20 Oktyabr Energetiklər Günüdür

**"Elektrik enerjisi müstəqilliyini, elektrik enerjisi sarıdan asılılıqdan qurtarmasını təmin etmək üçün respublikamızda güclü potensiala malik olan elektrik stansiyaları yaratmağa başladıq, buna da nail olduq".**

**Heydər ƏLİYEV**

# Azərbaycan regional enerji qovşağına çevrilir

Bu il 20 Oktyabr - Energetiklər Günü həm ölkəmiz, həm də region üçün əlamətdar bir dövrə - Tarixi Zəfərimizin 5-ci ildönümünə təsadüf edir. Qarabağ və Şərqi Zəngəzurun azadlığı və dirçəlişi Azərbaycanın milli enerji sisteminə əlavə güc qataraq, ölkəmizin regional strateji enerji qovşağı kimi inkişafına yeni imkanlar yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Cənubi Qafqazda geosiyasi mənzərəni dəyişən, enerji təhlükəsizliyini sülh, regional bağlantılar və iqtisadi inkişafla vəhdətdə dəyərləndirən vizioner siyasətinin nailiyyətləri ölkəmizin bölgədəki lider mövqeyini daha da möhkəmləndirib. Azərbaycanın regional inteqrasiyada oynadığı geosiyasi rol bu gün Çin, Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə, Avropa və Yaxın Şərq ölkələrini əhatə edən geniş enerji əməkdaşlığına yol açıb. Xüsusilə "yaşıl enerji" təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişaf strategiyası, postmünaqişə quruculuğu və sülh gündəliyi ilə uzlaşan müasir enerji siyasətində regional amilin güclənməsini təmin edir. Bu müstəvidə Azərbaycan elektroenergetikası ölkənin "yaşıl artım" və "təmiz ətraf mühit" milli prioritetlərinin həyata keçirilməsində əsas hərəkətverici qüvvələrdən biri olmaqla yanaşı, neft-qaz sahəsində formalaşmış beynəlxalq əməkdaşlıq təcrübəsinə və şaxələndirilmiş təchizat marşrutlarına əsaslanan etibarlı enerji təhlükəsizliyi modelinin yeni mərhələdə davamçısı kimi çıxış edir.



Son bir ildə elektroenergetika sistemimizin inkişafının uğurları bunun bariz təsdiqidir. Yeni elektrik stansiyalarının istifadəyə verilməsi ilə hazırda ölkəmizin ümumi elektrik enerjisi istehsalı gücü 9732,5 MVt-a çatıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1317 MVt və ya 15,6 faiz artım deməkdir. Bu əhəmiyyətli artımda ölkəmizin və bütövlükdə Cənubi Qafqazın ən böyük enerji müəssisəsi olan, şanlı Zəfərimizi əbədiləşdirən 1880 MVt gücündə "8 Noyabr" Elektrik Stansiyasının istismara verilməsinin mühüm rolu vardır. Mingəçevirin yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi kimi mövqeyini gücləndirən bu stansiya enerji səmərəliliyi ilə yanaşı, Çin və İtaliya şirkətləri ilə əməkdaşlıq timsalında elektroenergetikada beynəlxalq tərəfdaşlığın parlaq nümunəsidir. Elektroenergetika sistemində hazırda ümumi gücü 7903 MVt olan 24 istilik elektrik stansiyası, 1443,5 MVt-lıq 65 su-elektrik stansiyası, 278,2 MVt gücündə 9 günəş-elektrik stansiyası, 63,5 MVt gücündə 5 külək-elektrik stansiyası, 37 MVt gücündə bərk məişət tullantıları elektrik stansiyası və ümumi gücü 7,3 MVt olan 3 hibrid elektrik stansiyası fəaliyyət göstərir. Su-elektrik stansiyaları daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1 829,6 MVt-dır ki, bu da ümumi istehsal gücünün təxminən 18,8 faizini təşkil edir. Bu dövrdə generasiya ilə yanaşı, elektrik şəbəkəsinin gücü də artaraq 29 714 MVA-a çatıb. Son illər artan istehsal gücü Azərbaycanın enerji balansında sabitliyi qoruyur. Ötən il ölkədə 28,4 milyard kVt·st elektrik enerjisi istehsal olunub ki, bunun da 24,1 milyardı daxili tələbatın ödənilməsinə, 1,4 milyardı ixraca yönəlib. İdxal isə 70,7 milyon kVt·st təşkil edib. Bu ilin ilk doqquz ayında 21,8 milyard kVt·st enerji istehsal edilib, ixrac 989,6 milyon, idxal isə 145 milyon kVt·st həcmində olub. Elektrik enerjisi istehsalında müşahidə olunan əsas tendensiya ondan ibarətdir ki, burada artım dinamikasını məhz bərpaolunan enerji mənbələri formalaşdırır. Xüsusilə, 230 MVt gücündə olan "Qaradağ" GES fəaliyyətə başladığı iki ilə yaxın müddət ərzində günəş enerjisindən elektrik enerjisi istehsalının 10 dəfə artmasına imkan yaradıb. Bu dövrdə stansiyada 1 milyard kVt·st elektrik enerjisinin istehsalı onun tam gücü ilə işləməsini təsdiqləməklə yanaşı, bir daha göstərir ki, Azərbaycan "yaşıl enerji" ilə bağlı qarşısına reallığa əsaslanan və özünü doğruldan hədəflər qoyub və onları ardıcıl şəkildə həyata keçirir.

Bu aspektdə, qarşıdakı iki il ərzində "yaşıl enerji"nin inkişafının birinci mərhələsi - 10 günəş və külək-elektrik stansiyasının inşası - planlaşdırıldığı kimi uğurla başa çatdırılacaq. Bu çərçivədə 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası ilin sonunadək tam istismara veriləcək. Stansiyanın Abşeron və Xızı sahələrində ümumilikdə 37 turbindən 35-i (227,5 MVt gücündə) artıq quraşdırılıb, qalan 2 turbinin quraşdırılması isə oktyabr ayı ərzində tamamlanacaq. İki 220/33 kV-luq yarımstansiyadan biri inşa edilərək istismara tam hazır vəziyyətə gətirilib, digər yarımstansiyanın tikintisi isə gələn ay yekunlaşacaq. Bu yaxınlarda ilk panelin quraşdırılması ilə 445 MVt gücündə "Biləsuvar" Günəş-Elektrik Stansiyasının tikintisinə də start verilib. 943 mindən çox paneldən ibarət olacaq bu stansiya regionun ən böyük günəş enerji layihələrindən biridir. Həm bu stansiya, həm də 315 MVt gücə malik "Neftçala" Günəş-Elektrik Stansiyasının gələn il, 240 MVt gücündə "Abşeron-Qaradağ" Külək-Elektrik Stansiyası və qoyuluş gücü 240 MVt olan "Şəfəq" Günəş-Elektrik Stansiyasının isə 2027-ci ildə istismara verilməsi planlarına uyğun işlər ardıcıl şəkildə davam etdirilir. Cəbrayılda 50 MVt gücündə "Şəms" və 50 MVt gücündə "Üfüq" Günəş-Elektrik stansiyalarının təməlinin yaxın zamanda qoyulması planlaşdırılır. Ölkəmizdə bərpaolunan enerji mənbələri üzrə ilk hərrac layihəsi - 100 MVt gücündə "Qobustan" Günəş-Elektrik Stansiyasının tikintisinə başlanması və əlavə 100 MVt-lıq günəş enerjisi layihəsi üzrə də intensiv işlər görülür. Bu layihələrin reallaşması sayəsində 2027-ci ilə qədər quraşdırılmış gücdə bərpaolunan enerjinin payı 33,7 faizə çatacaq. Stansiyalardan əldə olunacaq illik 5 milyard kVt·saat elektrik enerjisi hesabına 1 milyard kubmetrdən çox təbii qaza qənaət və 2,3 milyon tonadək emissiya azalması təmin ediləcək.

Bir məqama xüsusilə diqqət yetirmək lazımdır: dünyada bərpaolunan enerji siyasət, texnologiya və investisiya baxımından ən güclü şəkildə dəstəklənərək, istehsal gücləri ilbəil artırılsa da, mövcud inkişaf tempi hələ də "yaşıl keçid"lə bağlı gözləntilərə tam cavab vermir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) məlumatına görə, ötən il dünyada 582 QVt yeni bərpaolunan enerji gücü quraşdırılıb. Lakin bu göstərici 2030-cu ilədək bərpaolunan enerji gücünü üç dəfə artırmaq hədəfinə çatmaq üçün tələb olunan illik 16,6 faiz artım tempindən geri qalır. Həmçinin dünyanın bir sıra ölkələrində enerji kəsintiləri və şəbəkələrin yüklənməsi halları müşahidə olunur. Bütün bunlar isə göstərir ki, bərpaolunan enerjinin sürətli inkişafı üçün şəbəkə və enerji saxlama infrastrukturunun genişləndirilməsi, enerji sistemlərinin yeni gücləri qəbul etməyə hazırlığı, bu enerjinin təhlükəsiz və səmərəli idarə olunması, eləcə də effektiv balanslaşdırmanın təmin edilməsi olduqca vacibdir. Bu baxımdan, ölkəmizdə bərpaolunan enerji güclərinin yaradılması prosesi ilk mərhələdən etibarən onların enerji sisteminə inteqrasiyası və şəbəkə infrastrukturunun gücləndirilməsi ilə sıx vəhdətdə həyata keçirilir. Bu sistemli yanaşma "yaşıl enerji"nin inkişafında rasional planlaşdırmanın əsas götürüldüyünü və Azərbaycanın qlobal bərpaolunan enerji çağırışlarına çevik və məqsədyönlü şəkildə cavab verdiyini aydın şəkildə nümayiş etdirir. 2 QVt-lıq bərpaolunan enerji gücünün idarə olunması üçün 250 MVt gücündə və 500 MVt/saat saxlama həcminə malik batareya sistemlərinin qurulması, həmçinin Dünya Bankının dəstəyi ilə 1 QVt gücündə günəş və külək-elektrik stansiyalarının şəbəkəyə qoşulması üçün elektrik verilişi xətləri, habelə 500/300 kV-luq "Nəvahi" yarımstansiyasının və əlaqələndirici xətlərin tikintisini ehtiva edən AZURE layihəsinin həyata keçirilməsi bu sahədə görülən əsas tədbirlərdəndir.

Planlarımız 2030-cu ilədək bərpaolunan enerjinin quraşdırılmış gücdə payını 38 faizə yüksəltməkdir. Bu məqsədlə tərəfdaşlarımızla imzalanmış müqavilələr çərçivəsində quruda və dənizdə əlavə 700 MVt gücün yaradılmasına da enerji sisteminin inteqrasiya imkanları və dayanıqlılığının təmin olunması baxımından yanaşırıq. Bu istiqamətdə Çinin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu (EPPEI) ilə elektrik enerjisi ötürmə şəbəkəsinin tədqiqi sahəsində əməkdaşlıq edirik. Tədqiqat çərçivəsində ötürücü şəbəkə üçün texnoloji və iqtisadi baxımdan optimal həllərin müəyyən edilməsi məqsədilə ilk mərhələdə bərpaolunan enerji üzrə potensial tələbat qiymətləndiriləcək, növbəti mərhələdə isə generasiya güclərinin şəbəkəyə inteqrasiya imkanları təhlil olunacaq. Daxili tələbatın təminatı məqsədilə bərpaolunan enerji mənbələrinin inkişafına bu cür ehtiyatlı və mərhələli yanaşma isə enerji təhlükəsizliyinə dair məsuliyyətli mövqeyimizin təzahürüdür.

Uzunmüddətli "yaşıl enerji" gündəliyimizin bütün istiqamətləri beynəlxalq enerji şirkətləri ilə tərəfdaşlıq əsasında irəliləyir. Bunun nəticəsində Azərbaycan artıq genişmiqyaslı "yaşıl enerji" əməkdaşlıq ekosistemi formalaşdırmağa nail olub. Bu əməkdaşlıq çərçivəsində "Masdar", "ACWA Power", BP, "SOCAR Green", "Nobel Energy", AGEC, Baltech, "Universal International", "China Datang", China Energy, Power China, TotalEnergies, Elecnor və ROX kimi aparıcı beynəlxalq şirkətlər töhfələri ilə Azərbaycanın "yaşıl inkişafı"nın bir parçasına çevrilirlər. Dövlətimizin başçısının vurğuladığı kimi, təkcə enerji sərvətlərinə malik olmaq kifayət deyil: "Qonşularınızla, onların qonşuları ilə möhkəm və etibarlı münasibətlər qurmalısınız ki, enerji, təhlükəsizlik və regional bağlantı layihələrini uğurla həyata keçirə biləsiniz. Buradakı birinci prioritet əməkdaşlığın gücləndirilməsidir, çünki əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı". Bu bağlılıqda "yaşıl enerj"i tərəfdaşlıq əlaqələrimizin səviyyəsi ölkələrarası münasibətlərin xarakteri ilə tam şəkildə uzlaşır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin qlobal nüfuzu, dostluğa və etimada əsaslanan çoxtərəfli əməkdaşlıq siyasəti ölkəmizin "yaşıl enerji" sahəsindəki hədəflərinin reallaşmasına davamlı dinamizm qazandırır. Bunun bariz nümunəsi kimi bu ilin aprelində Pekində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasını göstərmək olar. Bu sənəd bərpaolunan enerji sahəsində əməkdaşlıqda yeni mərhələnin əsasını qoydu. Quruda günəş, dənizdə külək enerjisi, hidroakkumulyasiya və batareya saxlama sistemləri, eləcə də elektrik şəbəkəsi infrastrukturuna dair çoxsaylı müqavilələrin imzalanması, "China Energy Engineering Corporation Limited" şirkəti ilə əməkdaşlığın strateji səviyyəyə yüksələrək hərtərəfli xarakter alması və 2032-ci ilədək Çin şirkətləri ilə ümumi gücü azı 1000 MVt olan layihələrin həyata keçirilməsinə başlanması bu istiqamətdə atılan mühüm addımlardandır. Yaxud 2025-ci ilin avqustunda Vaşinqtonda imzalanan Anlaşma Memorandumu enerji sahəsində sərmayələrin artırılması və regional bağlantılar üzrə infrastrukturun genişləndirilməsini Strateji Tərəfdaşlıq Xartiyasının prioritet istiqamətlərindən biri kimi təsbit edərək, "yaşıl enerji" ilə bağlı regional baxışımıza əlavə güclü stimul verir. Həmçinin əldə olunmuş tarixi razılaşma əsasında Zəngəzur dəhlizini əhatə edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) reallaşdırılması uzun illərdən sonra Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında maneəsiz quru əlaqəsini bərpa etməklə yanaşı, regionlararası "yaşıl enerji" inteqrasiyasının genişlənməsinə və Orta dəhliz boyunca "yaşıl enerji" qurşağının formalaşmasına yeni imkanlar açacaq.

Bu yeni geosiyasi reallıqlar Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonaları" kimi inkişafına regional miqyas və strateji məzmun qazandıraraq, onların istehsal və ixrac mərkəzlərinə çevrilməsi prosesini daha da aktuallaşdırır. Azərbaycan Prezidentinin Qarabağ və Şərqi Zəngəzurun modern quruculuq prinsiplərinə, xalis sıfır emissiyalı "Yaşıl Enerji Zonası" Konsepsiyasına əsaslanan inkişafı ilə bağlı strateji qərarı bu gün həm mühüm nəticələr verir, həm də Naxçıvan Muxtar Respublikası üçün nümunəvi rol oynayır.

Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji potensialından geniş və səmərəli istifadə çərçivəsində Cəbrayılda 340 MVt gücündə günəş-elektrik stansiyaları inşa ediləcək. Kəlbəcərdə isə 240 MVt gücündə külək-elektrik stansiyasının tikintisinə hazırlıq məqsədilə "Baltech" şirkəti tərəfindən dəniz səviyyəsindən 3100 metr yüksəklikdə külək potensialının ölçülməsinə başlanılıb.

Su-elektrik stansiyaları isə bölgənin "təmiz enerji" təminatının əsas mənbəyidir. Ötən il istehsal olunan 573 milyon kVt·saat elektrik enerjisinin 40 faizi regionun daxili tələbatını ödəyib, 60 faizi isə ölkənin ümumi enerji sisteminə ötürülüb. Su-elektrik stansiyalarının ümumi gücünün 500 MVt-a çatdırılması planına uyğun olaraq, indiyə qədər 307 MVt gücündə 38 stansiya istismara verilib. Bu, il ərzində 800 milyon kVt·saatdan çox "yaşıl enerji"nin istehsalı, 200 milyon kubmetrdən artıq təbii qaza qənaət edilməsi, istixana qazı emissiyalarının isə 400 min tondan çox azalması deməkdir. Hazırda Kəlbəcər və Laçında Həkəri və Tərtər çayları üzərində özəl investisiyalar hesabına 13 MVt gücündə 4 kiçik su-elektrik stansiyasının tikintisi davam edir, 2026-cı ildə isə 5 əlavə stansiyanın istifadəyə verilməsi planlaşdırılır. Araz çayı üzərində 100 MVt gücündə "Xudafərin" və 40 MVt gücündə "Qız Qalası" su-elektrik stansiyalarının tikintisinə başlanması üçün tender prosesinə hazırlıq görülür. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda su, günəş, külək və damüstü panellər hesabına istehsal gücünün 1,6 QVt-a çatması gözlənir, bu isə daxili tələbatdan iki dəfə artıq enerjinin "Cəbrayıl" enerji qovşağı vasitəsilə ixracına və bölgədə yeni imkanların yaranmasına yol açacaq.

"Yaşıl enerji" zonasının yaradılması yalnız bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, eyni zamanda enerji keçidinin bütün komponentlərini təşviq edir. Bu çərçivədə azad edilmiş ərazilərdə 1500-dən çox fərdi yaşayış evində, ictimai və sosial binalarda ümumi gücü 5000 kVt-dan çox olan günəş panelləri quraşdırılıb, 200-dən artıq günəş kollektoru, 3000-dən çox enerji səmərəli işıq dirəyi, 20 elektrik doldurma məntəqəsi və "ağıllı" dayanacaqlar istifadəyə verilib. Xüsusilə binaların və fərdi evlərin tikintisində enerji səmərəliliyi prinsipinə ciddi əməl olunur. Bu tədbirlər davamlı xarakter daşıyır və bütün səylərimiz innovativ təcrübənin geniş tətbiqi ilə işğaldan azad edilmiş əraziləri enerji səmərəliliyində nümunəvi bölgəyə çevirməyə yönəlib.

Bərpaolunan enerjinin texniki potensialı 21-29 QVt, iqtisadi potensialı isə 5,8-6,9 QVt həcmində qiymətləndirilən Naxçıvanda da inkişaf prosesi dövlət başçısının "yaşıl enerji" zonası ilə bağlı strateji baxışına uyğun şəkildə həyata keçirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikasının davamlı sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi "Yaşıl Enerji Zonası" Konsepsiyası və onun icrasını təmin edən Tədbirlər Planı hazırlanıb. Konsepsiya Naxçıvanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsini, enerji müstəqilliyinin və dayanıqlı inkişafın təmin olunmasını, müasir şəbəkə infrastrukturunun qurulmasını, enerji ixrac imkanlarının artırılmasını və karbon emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasını hədəfləyir. Konsepsiya Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir. 2026-2030-cu illər üzrə 4 əsas sahədə müəyyənləşdirilmiş 12 prioritet istiqamət enerji sahəsində həm strateji, həm də sektorlararası yanaşmanı əks etdirir. Sənaye sektorunda enerji səmərəliliyinin artırılması və "yaşıl enerji"nin tətbiqi, sənaye miqyaslı bərpaolunan enerji layihələrinin reallaşdırılması əsas hədəflərdəndir. Nəqliyyat sektorunda dekarbonizasiya, "ağıllı infrastruktur"un təşkili və elektromobillərə keçidin təşviqi nəzərdə tutulur. Tikinti və şəhərsalma sahəsində ekoloji dayanıqlıq və resurs səmərəliliyi, kənd təsərrüfatında isə bioenerji imkanları və "yaşıl texnologiya"ların tətbiqi prioritetləşdirilir.

Hazırda Naxçıvanda bərpaolunan enerji mənbələrinin payı elektrik enerjisinin quraşdırılmış gücündə 44 faiz, istehsalında isə 48 faiz təşkil edir. Yaxın perspektivdə 50 MVt gücündə günəş elektrik stansiyasının, eləcə də 51,6 MVt gücündə "Tivi" və "Ordubad" Su-Elektrik stansiyalarının istismara verilməsi ilə bu göstəricilərin daha da artacağı gözlənilir. Həmçinin bərpaolunan enerji layihələri üçün nəzərdə tutulan torpaq sahələrində əsasən ixrac məqsədilə 3 QVt-dan artıq günəş və külək enerjisi istehsal gücünün yaradılması mümkündür. Bu potensialdan yararlanmaq üçün Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixracı və şəbəkəyə qoşulma imkanlarının qiymətləndirilməsi məqsədilə hər iki ölkənin birgə iştirakı ilə tədqiqatlar aparılır. Azərbaycan elektrik enerjisinin Naxçıvandan birbaşa Türkiyəyə, oradan isə Avropaya ötürülməsi ilə yanaşı, Zəngəzur dəhlizi (TRIPP) vasitəsilə Ermənistan üzərindən nəql perspektivinə də malikdir. Bu təşəbbüs yalnız Naxçıvanın elektroenergetika sistemini ölkənin enerji şəbəkəsinə birləşdirmir, eyni zamanda "Azərbaycan (Naxçıvan MR) - Türkiyə - Avropa Enerji Qovşağı" layihəsinin reallaşması baxımından da strateji əhəmiyyət kəsb edir. Layihə çərçivəsində Naxçıvanda 400/330/110/35/10 kV-luq çevirici yarımstansiyanın, 330 kV-luq "Cəbrayıl-Naxçıvan" və 400 kV-luq "Naxçıvan-Türkiyə" elektrik verilişi xətlərinin tikintisi üzrə hazırlıq və mühəndislik işləri həyata keçirilir. Cəbrayıl enerji qovşağını Naxçıvanla birləşdirən infrastruktur sayəsində bu strateji bölgələr nəinki inteqrasiya olunacaq, həm də ölkənin "yaşıl enerji" təchizat siyasətini daha balanslı və dayanıqlı edəcək. Davamlı sülhün təminatında mühüm elementlərdən biri olan regional bağlantılar amili Zəngəzur dəhlizinin (TRIPP) timsalında, ölkəmizin digər bölgələrindən, Xəzər dənizindən və Mərkəzi Asiyadan "yaşıl enerji"nin nəqli üçün marşrutları və bazarları şaxələndirərək, Azərbaycanı regionun əsas enerji nəqliyyat qovşaqlarından birinə çevirəcək.

Bu dəhliz də daxil olmaqla, ölkəmizdə bərpaolunan enerjinin regional xarakterli növbəti inkişaf mərhələsi Xəzər dənizinin zəngin külək enerjisi potensialının reallaşdırılmasına və Azərbaycan vasitəsilə Cənubi Qafqazı, Mərkəzi Asiyanı, Türkiyə və Avropanı birləşdirən "yaşıl enerji" dəhlizlərinin yaradılmasına əsaslanır. Bu layihələr ölkəmizin Avropanın enerji təchizatındakı strateji mövqeyini daha da gücləndirərək, Avrasiya məkanında enerji əməkdaşlığının yeni geoiqtisadi arxitekturasını formalaşdıracaq. Hazırda Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi potensialının qiymətləndirilməsi istiqamətində ölçmə və müşahidə işləri aparılır, müvafiq dəniz akvatoriyalarının bərpa olunan enerji zonaları kimi müəyyənləşdirilməsi üzrə fəaliyyətlər davam etdirilir. Həmçinin "ACWA Power", "Masdar" və "SOCAR Green" şirkətlərinin birgə yaratdığı "Caspian Breeze" Konsorsiumu, eləcə də "China Energy Overseas Investment Co., Ltd.", "China Datang Overseas Investment Co. Ltd." və "PowerChina Resources Limited" şirkətləri ilə əməkdaşlıq edilir. Planlaşdırılan 6 QVt-dan çox gücün 4 QVt-nın 2032-ci ildən etibarən mərhələli şəkildə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" vasitəsilə ixracına başlanması planlaşdırılır. Avropanı enerji və rəqəmsal kommunikasiya baxımından Qara dənizin hər iki sahilindən, eləcə də Xəzər dənizi regionu ilə birləşdirəcək layihənin texniki-iqtisadi əsaslandırmasının gələn ilin əvvəlində yekunlaşması gözlənilir. Birgə Müəssisə - "GECO Green Energy Company" tərəfindən layihənin Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin (ENTSO-E) 10 illik inkişaf planına (TYNDP) daxil edilməsi üçün müraciət olunub. Növbəti mərhələdə layihəyə PCI/PMI (Qarşılıqlı və Ortaq Maraqlı Layihələr) statusunun əldə edilməsi üçün müraciət ediləcək.

Digər bir "yaşıl enerji" dəhlizi üzrə işlər ötən il COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə üç ölkə arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində Strateji Tərəfdaşlıq haqqında Hökumətlərarası Sazişin imzalanması ilə başlandı. Azərbaycan Prezidentinin Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionlarını vahid geosiyasi məkan kimi inkişaf etdirmək siyasətinin prioritetləri ilə uzlaşan "Trans-Xəzər Enerji Dəhlizi" tarixdə ilk dəfə ölkələrimizin elektrik enerjisi sistemlərinin birləşdirilməsinə imkan yaradır. "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" üzrə qərargahı Bakıda yerləşən "Yaşıl Dəhliz Alyansı" adlı Birgə Müəssisə təsis edilib və şirkət seçimi tamamlandıqdan sonra noyabr ayında Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur və İnvestisiya Bankının maliyyə dəstəyi ilə layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına başlanacaq.

Bu ilin aprelində imzalanmış memoranduma əsasən, "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihəsinin isə Texniki Tapşırıq sənədi hazırlanır və sənədin tamamlanmasından sonra məsləhətçi şirkətin seçimi üçün tender keçiriləcək. Beləliklə, müxtəlif dəhlizlər və interkonnektorlar gələcəkdə bir-biri ilə əlaqələndirilərək, Mərkəzi Asiyadan Avropaya qədər geniş coğrafiyada Azərbaycanı bərpaolunan enerjinin ixracı və tranzitində aparıcı ölkə mövqeyinə yüksəldəcək. Eyni zamanda bu layihələr uzaq məsafəli enerji mənbələrinin istehlak mərkəzləri ilə inteqrasiyasını təmin edərək, enerji təchizatı ilə tələbat arasında tarazlığı qoruyacaq və böyük həcmdə "yaşıl enerji" güclərinin şəbəkəyə qoşulmasını reallaşdırmaqla qlobal miqyasda "yaşıl keçid" prosesinə mühüm töhfə verəcək.

Bu gün diqqətimizi sıfır emissiyalı gələcəyə aparan digər əsas enerji mənbəyi - hidrogenə də yönəldirik. Hidrogen Azərbaycanın "yaşıl inkişaf" və enerji təchizatçısı gündəliyinin tərkib hissəsidir. Ölkəmizdə hidrogenin müxtəlif növlərinin istehsalı, istehlakı və ixracını əhatə edən Milli Strateji Baxış Sənədinin icrası üçün Fəaliyyət Planının hazırlanması məqsədilə məsləhətçi şirkətin seçilməsi prosesi yekunlaşmaq üzrədir. Bu plan Azərbaycanın hidrogen sahəsində sistemli və məqsədyönlü irəliləyişini təmin edərək, ölkəmizin qlobal enerji trendlərinə uyğunlaşmasını sürətləndirəcək.

Enerji sektorunda dayanıqlı və aşağı karbonlu həllərə doğru irəliləyən Azərbaycanın planlarında geotermal enerji də mühüm yer tutur. Azərbaycanın geotermal istilik potensialı 571,2 MVt, elektrik enerjisi potensialı isə 57,1 MVt qiymətləndirilir. Perspektivli bölgələr arasında Böyük Qafqaz, Şamaxı-Qobustan, Kəlbəcər-Laçın, Masallı-Astara və Naxçıvan yer alır. Pilot layihələr çərçivəsində istismarı başa çatmış neft və qaz quyularından istifadə edilərək enerji istehsalı nəzərdə tutulur: Bibiheybətdə bu quyular vasitəsilə istilik enerjisi, Kürdəmirdə isə elektrik enerjisi əldə ediləcək. Masallıda isə hibrid texnoloji həllərlə istixanalar qızdırılacaq. Tədqiqatlar göstərir ki, geotermal enerji bioenerji ilə birləşdirildikdə, daha dayanıqlı və aşağı karbonlu enerji sistemlərinin yaradılmasına imkan verir.

Enerji keçidinin mühüm komponentlərindən biri olan enerji səmərəliliyi də ölkəmizin davamlı inkişaf strategiyasının mərkəzində dayanır. Enerji səmərəliliyinə dair qanunvericilik və normativ-hüquqi çərçivənin yaradılması ilə yanaşı, onun bütün sahələrdə geniş tətbiqi və insanların gündəlik davranışına çevrilməsi əsas prioritetlərimizdəndir. Bu sahədə qanunvericiliyin effektiv icrası və nəzarətin təmin olunması məqsədilə Enerji Effektivliyi İnformasiya Sisteminin (EEİS) yaradılması və onun veb-sayt və mobil tətbiqlər vasitəsilə istifadəyə verilməsi istiqamətində işlər aparılır. Binaların pasportlaşdırılması ilə bağlı hüquqi məsələlər tamamlandıqdan sonra bu proses də EEİS-ə inteqrasiya ediləcək. Enerjinin istehsalı, nəqli, ötürülməsi və paylanması sahələrində effektivlik potensialının qiymətləndirilməsinə, eləcə də qeyri-yaşayış binaları və təsərrüfat subyektlərində enerji idarəçilərinin təyin edilməsinə başlanıb. Eyni zamanda enerji istehlak edən 9 məhsul üzrə enerji etiketlənməsi və ekoloji dizayn tələblərini əhatə edən 17 texniki reqlament hazırlanıb. Həmçinin enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə yaradılmış "Enerji Effektivliyi Fondu"nun vəsaitləri hesabına yaxın perspektivdə güzəştli kreditlərin verilməsi, pilot layihələrin maliyyələşdirilməsi, qrant və subsidiyaların ayrılması məqsədilə normativ baza hazırlanıb. Hazırda Enerji Məsələlərini Tənzimləmə Agentliyi müvəkkil kredit təşkilatları ilə əməkdaşlıq edərək güzəştli kreditlərin verilməsi üçün tədbirlər görür. Bu, enerji resurslarından səmərəli istifadəyə, ətraf mühitə mənfi təsirlərin azaldılmasına və enerji səmərəliliyi üzrə maliyyə təşviqlərinin davamlı şəkildə həyata keçirilməsinə şərait yaradacaq.

Enerji səmərəliliyinin geniş tətbiqi ilə yanaşı, AERA-nın tənzimləyici və nəzarətedici fəaliyyəti enerji sektorunda bazar münasibətlərinin formalaşmasına, effektiv idarəetmənin, şəffaflığın və hesabatlılığın təmin olunmasına mühüm töhfə verir. Ötən dövr ərzində agentlik elektrik enerjisinin ötürülməsi, topdan və pərakəndə satış qiymətləri ilə bağlı təkliflər hazırlayaraq bazar islahatlarının tətbiqinə dəstək verib. Elektrik enerjisi bazarının effektiv təşkili məqsədilə elektroenergetika sektorunda tənzimlənən qiymətlərin (tariflərin) müəyyən olunması qaydaları hazırlanıb. "Energetika sahəsində tənzimləyici haqqında" qanun layihəsi yenidən işlənilib. Elektrik qurğularının quraşdırılması, texniki istismarı və təhlükəsizlik texnikası qaydaları təsdiq olunaraq tətbiqə verilib. Hazırda istilik qurğularının texniki istismar və təhlükəsizlik qaydalarının layihələri üzərində işlər davam edir. Qaz qurğularının, xətlərin, tüstü bacalarının və havalandırma sistemlərinin təhlükəsiz istismarı və yol verilmiş pozuntuların aşkar edilərək aradan qaldırılması üçün monitorinqlər aparılıb, nəticələr qanunvericiliyə uyğun aktlarla rəsmiləşdirilib. Dövlət müəssisələrində elektrik və istilik enerjisindən istifadənin səmərəliliyi, təhlükəsizlik qaydalarına əməl olunması və qaz qurğularının etibarlı istismarı ilə bağlı 2000-ə yaxın nəzarət tədbiri həyata keçirilib. Aşkar edilmiş pozuntuların aradan qaldırılması təmin olunub.

Qanunvericilik bazasının təkmilləşdirilməsi və energetika sektorunda islahatların davamı çərçivəsində "İstilik təchizatı haqqında" və "Qaz təchizatı haqqında" qanunların qəbulu da atılan mühüm addımlardandır. İstilik təchizatı ilə bağlı bu qanun yeni tikiləcək binalarda mərkəzləşdirilmiş sistemlərin tətbiqini məcburi edir ki, bu da enerji resurslarına qənaət, ətraf mühitə atılan emissiyaların azalması və xidmət keyfiyyətinin yüksəlməsini təmin edəcək. Qanun, həmçinin istilik istehsalı, paylanması və satış subyektlərinin hüquq və vəzifələrini aydınlaşdırır, dövlət və özəl sektor arasında şəffaf və səmərəli münasibətlərin formalaşdırılmasına imkan yaradır. Qaz təchizatına dair yeni qanun isə qazın nəqli, paylanması, saxlanması, topdan və pərakəndə satışları, habelə idxalının Dövlət Neft Şirkətinin tabeliyində ayrı-ayrı hüquqi şəxslər tərəfindən həyata keçirilməsi qaz təchizatı subyektləri üzrə maliyyə şəffaflığı, xərc əsaslı qiymətlərin (tariflərin) daha düzgün müəyyən olunması, çarpaz subsidiyalaşmanın qarşısının alınması, həmçinin maliyyə intizamlığının təmin edilməsinə gətirib çıxaracaqdır. Bu islahatlar Azərbaycanın enerji təhlükəsizliyini möhkəmləndirir və energetika sektorunu daha müasir və rəqabətədavamlı edir.

*Bütün bunlar Ulu Öndər Heydər Əliyevin, Azərbaycan İES-in birinci enerji blokunun istifadəyə verilməsi nümunəsində, ötən əsrin 80-ci illərindən başlayaraq, enerji müstəqilliyi ilə bağlı həyata keçirdiyi uzaqgörən və fədakar siyasətinin möhtərəm Prezident İlham Əliyev tərəfindən davam etdirilərək etibarlı enerji təchizatçısı statusuna yüksəltdiyi ölkəmizin energetika sektorunda əldə olunan uğurların yalnız müəyyən bir hissəsidir. Azərbaycan energetikləri bu xəttin bundan sonra da davam etdirilməsi missiyasını şərəflə yerinə yetirərək müasir və güclü Azərbaycanın gələcəyinin daim işıqlı olmasına fədakar əməkləri ilə töhfə verəcəklər.*

***Pərviz ŞAHBAZOV,***
***Azərbaycan Respublikasının energetika naziri***

# Müstəqilliyin Bərpası Günü

"Biz azadıq, biz müstəqilik. Biz sərbəstik, biz heç kəsdən asılı deyilik. Biz özümüz öz taleyimizin sahibiyik... Mənim üçün öz həyatımdan, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir!"

Ümummilli Lider Heydər Əliyev



# Çətin və şərəfli yol

## Müstəqilliyimiz gerçəkləşən arzumuz, milli qürurumuz və bir xalq kimi dünyada təsdiqlənməyimizin əbədi ifadəsidir

**Ulu Öndərin bu sözlərinin əbədiyyətinə təminat verən odur ki, hər bir ifadədə əzmkarlıq, milli ruh, vətənin müstəqilliyinə və xalqın qüdrətinə inam əks olunub. Xalqımız bir millət kimi mövcudluğunu təsdiq edə bilib.**

Müstəqil bir dövlətə sahiblik eyni bayraq altında birləşən, Vətənin azadlığı, bütövlüyü uğrunda vuruşub qurbanlar verən bütün insanlar üçün ən böyük dəyərdir. Onun uğrunda mübarizə bütün dövrlərdə Azərbaycan xalqının ən ali məqsədi və şərəf işi olub. Xalq bu dəyər sayəsində öz haqlarını təmin edir, milli mövcudluğunu qoruyur, yaradıcılıq əzmi, nəsillərdən-nəsillərə ötürülən dövlətçilik irsi ilə tarixdə yeni səhifələr yaradır. Dövlət müstəqilliyi xalqların istiqlal mübarizəsinin, əsrlər boyu formalaşdırdığı mənəvi potensialın, maarifçilik ənənələrinin, milli-mənəvi dəyərlərə bağlılığının, eyni zamanda milli vəhdətinin bariz təcəssümüdür. Bəli, artıq dünya bizi öz adımızla tanıyır. Dövlətimiz öz taleyinin sahibi kimi yeni və şərəfli inkişaf dövrünü yaşayır.

### Ağır illər və çətin sınaqlar: tarixə qısa nəzər

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşdu, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etdi. 2021-ci ilin 15 oktyabrında Prezident İlham Əliyev "Müstəqillik Günü haqqında" yeni qanun imzaladı. Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edildi.

Müstəqilliyimiz möhtəşəm sınaqlardan çıxdı. Azərbaycanın son 34 il ərzində əldə etdiyi bütün tarixi uğurlar məhz müstəqilliklə bağlıdır və bu dövrdən başlanır. Sovetlər İttifaqı hər nə qədər özünü bu təsisatda bir araya gəlmiş milli respublikaların bərabərhüquqlu birliyi kimi təqdim etməyə çalışsa da, aparılan siyasət, əslində, imperiya maraqlarına xidmət edir, sovet totalitar rejiminə uyğun hesablanırdı. Hər hansı bir işin həyata keçirilməsindən ötrü mərkəzdən saysız-hesabsız icazələr tələb olunurdu. Hətta sənədləşmə işləri, rəsmi protokollar, əmr və qərarlar, fərmanlar rus dilində aparılır, ana dilinin əhatə dairəsi getdikcə kiçilirdi. Belə bir mühitdə milli inkişafdan danışmaq mümkünsüz idi.

Tarix isə təkrar olunurdu. 1918-ci ildə Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Milli Şura İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradıldı, dövlət atributları təsis olundu, sərhədləri müəyyən edildi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi.

Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynadı. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərdi. 1918-ci il 28 may Azərbaycan tarixinə müstəqillik günü, milli qürur və şərəf günü kimi yazıldı. Amma bu şərəfli tarix uzun sürmədi, bolşevik-daşnak quldurlarının və onların rəhbərlərinin cinayəti nəticəsində 23 aydan sonra süqut etdi. Bolşevizmin istiqlal üzərində 70 illik hakimiyyəti başlandı.

1990-cı il yanvarın 20-də sovet tankları müstəqillik uğrunda mücadiləyə qalxmış vətəndaşlarımızın üzərinə yeridi. Şəhidlər verdik, böyük itkilərə məruz qaldıq, amma bu qanlar bahasına itirilmiş azadlığımızı, müstəqilliyimizi bərpa etməyə nail olduq. 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bu akt cümhuriyyətin süqutu və bolşevik işğalı nəticəsində yarıda qırılmış müstəqil dövlətçilik ənənələrinin bərpası demək idi. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyini bütün dünyaya bəyan etdi.

Lakin ölkə müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşdi. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi ilə üz-üzə qoydu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qaldı, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşdü. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük faciələrə səbəb oldu. Cəmi bir il ərzində AXC-Müsavat qruplaşmasının yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsinə gəlib çatdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi iki ildə itirdik. Bu dəfə də belə bir vəziyyətə çox yaxın idik. Baş verənlər bir daha göstərdi ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətinmiş.

Azərbaycan Prezidenti İlham Əliyev həmin dövr - müstəqilliyin ilk illəri haqqında çıxışlarında müəyyən məqamları xüsusi vurğulayırdı: "Hələ 1990-cı ildə Ulu Öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, "Sovet Sosialist" sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən, bütün bu addımlar onu göstərir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir".

Ümummilli Lider Heydər Əliyev həmin ağır vaxtlarda Bakıya gəlməklə, ilk növbədə, ölkəni məhvolma təhlükəsindən qurtardı. 1993-cü ilin iyun ayında Ali Sovetin Sədri, oktyabrın 3-də isə ümumxalq səsverməsi ilə xalqın böyük əksəriyyətinin etimadını qazandı, Azərbaycan Respublikasının Prezidenti seçildi. 1994-cü ildə tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olmuş beynəlxalq neft müqavilələrinin bağlanmasına nail oldu. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi. Ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlandı.

Azərbaycanın beynəlxalq nüfuzunun artırılması müstəqilliyin əbədiliyi üçün hər zaman başlıca şərt rolunu oynayır. Burada da Heydər Əliyevin böyük siyasi iradəsi, dünyadakı nüfuzu, diplomatik təcrübəsi mühüm əhəmiyyət kəsb etdi. O zaman Ulu Öndər müstəqil Azərbaycanın xarici siyasət konsepsiyasını belə izah edirdi: "Müstəqil dövlət kimi Azərbaycan öz milli mənafelərinə uyğun olan müstəqil xarici siyasət aparır. Müstəqil xarici siyasət aparmaq müstəqilliyi daha da möhkəmləndirmək deməkdir. Biz həm xarici əlaqələrdə, həm də Azərbaycanın daxilində bir çox çətinliklərlə rastlaşdığımıza baxmayaraq, öz müstəqilliyimizi qoruyaraq dünyada müstəqil siyasət aparırıq". Biz bu gün Ulu Öndər Heydər Əliyevin 1993-cü ildən sonrakı dövrdə apardığı uzaqgörən siyasətinin bəhrələrini görürük.

### Müstəqillik tariximizin 3 mərhələsi

Təəssüf ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın taleyi naşı adamların əlində oldu. Ona görə də ölkəmiz 1991-1993-cü illərdə çox böyük problemlərlə üzləşdi. Azərbaycan Prezidenti İlham Əliyev o dövrü belə xatırlayır: "Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdür. Bu dövr itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük itki, böyük faciə idi. O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik, milli birlik yox idi". Həmin dövrün nəticəsini qısaca olaraq belə xarakterizə edə bilərik ki, Azərbaycan nəinki müstəqilliyini qorumaq, ümumiyyətlə, vətəndaş müharibəsinin, bir neçə yerə parçalanmaq, dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsinin bir addımlığına gəlib çatmışdı.

Azərbaycan Prezidenti qeyd edir: "1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik - 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi".

Ümummilli Lider Heydər Əliyevin o illərdə xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışı dövlətimizin xilas anı idi. Ulu Öndər müstəqil dövlətin milli ideologiyasını yaratdı - azərbaycançılıq təlimini dövlətçilik ideologiyasına çevirdi. Ümummilli Lider bütün mədəniyyətimizi, tariximizi, etnoqrafiyamızı, çoxəsrlik adət-ənənələrimizi, klassik yazılı və şifahi ədəbiyyatımızı, nəhayət, ana dilimizi azərbaycançılığın təməlinə gətirdi, onun izahına yönəltdi. Ulu Öndər ötən illər ərzində bu deyilənlərin hamısını əzmlə reallaşdırmağa nail oldu. Böyük rəhbər təkcə müstəqilliyi möhkəmləndirmədi, onu qorumağın yollarını öyrətdi, prioritetlərini göstərdi və ən əsası gələcəkdə müstəqilliyi tarixdə irəli apara biləcək lideri nişan verdi.

Azərbaycanın öz dirçəliş və sabitlik dövrünü yaşadığı 1993-2003-cü illər müstəqilliyimizin ikinci dövrüdür. 2003-cü ildən sonra isə müstəqillik tariximizdə yeni bir səhifə açılır. 2003-cü ildə xalqımız ölkənin bundan sonra hansı yolla gedəcəyi barədə tarixi qərarını verdi. Ulu Öndərin "Mən ona özüm qədər inanıram" əminliyinə söykənərək Azərbaycanın gələcəyini dövlətimizin başçısı İlham Əliyevə etibar etdi. Həmin vaxtdan başlanan möhtəşəm tarix dövlət müstəqilliyimizin üçüncü dövrüdür.

Prezident İlham Əliyev əvvəlki illərin bütün nailiyyətlərini qoruyaraq Ulu Öndərin formalaşdırdığı möhkəm təməllər üzərində ölkəmizi milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yetirirdi. 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın öz torpaqlarını düşməndən təmizləməsi, 2023-cü ilin sentyabrında aparılan qısamüddətli antiterror tədbirləri nəticəsində Qarabağın tam şəkildə azad olunması və Azərbaycanın suverenliyinin bərpası, Ali Baş Komandan İlham Əliyevin adını milli dövlətçilik salnaməmizə Müzəffər Sərkərdə kimi əbədi yazması müstəqillik tariximizin ən möhtəşəm nailiyyətidir.

Dönməz siyasi iradə, intellektual düşüncə tərzi, yüksək nitq mədəniyyəti, ən çətin danışıqlarda müsahibini asanlıqla təslim edən diplomatik təfəkkür və məntiq Azərbaycan Prezidenti İlham Əliyevə böyük beynəlxalq nüfuz gətirən başlıca cəhətlərdir. Elə bu əzəmətli xüsusiyyətlərlə də o, Azərbaycan xalqını tarixin çətinliklərindən çıxararaq istiqlal dolu sabahlara aparır.

### Müstəqil siyasət güclü dövlətin təməlidir

Böyük güclərin toqquşan maraqları səbəbindən bu gün bir çox ölkələrin mürəkkəb çağırışlarla üz-üzə qaldıqları müasir dünyamızda Azərbaycan strateji inkişaf yoluna davam edir, qazandığı nailiyyətləri möhkəmləndirərək onların sırasını yeni uğurlarla genişləndirir. Bunun təməlində dayanan əsas amil Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir. Dövlət başçısının həyata keçirdiyi bu siyasət bir neçə mühüm prinsipə əsaslanır. Həmin prinsiplər Azərbaycanın uzun illərin mübarizəsindən sonra nail olduğu ərazi bütövlüyünü, suverenliyini qorumaq, beynəlxalq arenada balanslı davranmaq, milli maraqlara əsaslanan xarici və daxili siyasət yürütmək strategiyasını formalaşdırmaqdır. Bu strategiyanın bir çox məqamları, Azərbaycan dövlətinin müstəqil siyasət prioritetləri ilə Prezident İlham Əliyevin son aylar yerli və xarici mediaya müsahibələrində, xarici ölkələrə səfərlərindəki çıxışlarında da ətraflı şəkildə tanış olmaq mümkündür.

Geostrateji maraqların kəsişdiyi kifayət qədər mürəkkəb coğrafiyada yerləşmiş Azərbaycan heç bir siyasi konfiqurasiyada tərəf olmamaq üçün ölkələrlə və beynəlxalq təşkilatlarla müstəqil, tarazlı xarici siyasət xəttinə üstünlük verir. Ölkəmiz Türkiyə ilə strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində fəal iştirak edir, Türkiyə ilə strateji müttəfiqlik münasibətləri və digər türk dövlətləri ilə əməkdaşlığın gücləndirilməsi Prezident İlham Əliyevin siyasətində xüsusi yer tutur. Eyni zamanda Azərbaycan qonşularla da bərabərhüquqlu normal münasibətləri davam etdirir. Bu siyasət həm enerji məsələlərində, həm geosiyasi baxımdan, həm də iqtisadi-ticari əlaqələrdə ölkəmizə mühüm üstünlüklər qazandırır.

Azərbaycanın həyata keçirdiyi müstəqil siyasətdə regional sülh və təhlükəsizlik təşəbbüsləri çox mühüm rol oynayır. Prezident İlham Əliyev də bir çox müsahibələrində, çıxışlarında Cənubi Qafqazda sabitliyin təmin edilməsində Azərbaycanın fəal rolunu qeyd edir. Ölkəmizin yürütdüyü müstəqil siyasət xətti yerləşdiyimiz bölgədə qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin təmin olunması üçün çox mühümdür. Çünki ölkəmizin gücü, çəkisi, beynəlxalq aləmdəki yüksək nüfüzü, eyni zamanda dövlətimizin rəhbəri İlham Əliyevin müasir dünya siyasətindəki mötəbər mövqeyi Cənubi Qafqazda xarici maraqların uzlaşdırılmasında, yeni qarşıdurma cəhdlərinin dəf edilməsində həlledici rol oynayır.

Bir sözlə, bu gün Azərbaycan elə bir müstəqillik ölçüsünə nail olmuş dövlətdir ki, qlobal güclərin maraqları fonunda öz geosiyasətini müəyyən etməyə və suveren gündəmi ilə fəaliyyət göstərməyə qadirdir. Ölkəmiz özünün müstəqil siyasəti ilə dünya dövlətləri və xüsusən də güc mərkəzlərinin nəzərində ciddi etimad ünvanına çevrilib. Bu status imkan verir ki, rəsmi Bakı Avropa İttifaqının bir sıra üzvləri ilə strateji münasibətlərə malik olmaqla yanaşı, eyniməzmunlu və statuslu razılaşmanı digər dövlətlərlə də əldə edə bilsin. İndi isə dünyanın birnömrəli iqtisadiyyatına sahib güc - ABŞ ilə strateji münasibətlərin əsasının qoyulması Azərbaycanın özünün xarici siyasət prioritetlərində seçim edərkən nə qədər müstəqil davrana bildiyinin göstəricisidir.

İkitərəfli münasibətlər etimad və etibar məsələsidir. Bu kimi əlaqələrin qurulmasına qərar anidən verilmir, illərin sınağından çıxmış təmaslar strateji tərəfdaşlığın bünövrəsini təşkil etməlidir. Strateji münasibətlər tərəflərin üzərinə ciddi öhdəliklər qoyur və bu kimi əlaqələr tam əminliklə demək olar ki, müttəfiqliyin ən ali məqamıdır.

Bu gün rəsmi Bakı ilə Vaşinqtonun dünyada baş verən bir sıra təzahürlərə baxışları ümumi xarakter daşıyır. Bu, ilk növbədə, Azərbaycanın beynəlxalq aləmdə yeni rol - Orta güc statusu qazanması ilə bağlıdır ki, Bakının xarici siyasət oriyentirləri təkcə təmsil olunduğu bölgə və ya qonşuları ilə məhdudlaşmır, artıq daha geniş coğrafiyalarda baş verən hadisələrə reaksiya verə bilmək mərhələsinə daxil olub.

### Qətiyyətli Lider - qüdrətli ölkə

Bu anlayışlar daim biri-birini tamamlayır. Azərbaycan hazırda qlobal siyasətdə qətiyyətli mövqe sahibidir. Prezident İlham Əliyevi Azərbaycanın milli maraqlarından bir addım da olsun geri çəkilməyə məcbur etməyin mümkünsüzlüyünü indi bütün dünyada hər kəs anlayır. Çıxışlarında "Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub", deyən Azərbaycan Prezidenti buna daim böyük əminliyini ifadə edir: "Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Uzun danışıqlar prosesi çərçivəsində dəfələrlə bizə hansısa yarımçıq təkliflər irəli sürülürdü, təklif edilirdi. Ancaq o təkliflər bizim üçün qəbuledilməz idi, mən hər dəfə deyirdim ki, Azərbaycan bayrağı ərazimizin hər bir yerində dalğalanacaq... Təbii ki, yeni dövrə qədəm qoyarkən böyük ümidlərlə yaşayırıq. …Biz, əlbəttə, elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun".

Ona görə də dövlətimizin müəllifi olduğu qlobal layihələri gerçəkləşdirən Azərbaycana indi beynəlxalq aləmin daha çox ehtiyacı var. Ölkəmiz xalqın milli vəhdətinə, fərqli mədəniyyətlərə hörmət ruhuna, tolerantlıq ənənələrinə görə bütün dünyaya örnəkdir. Vətən övladlarının sorağı böyük dövlətlərin ən mötəbər kürsülərindən gəlir. Dünya bizi daha yaxından tanıyır, milli mədəniyyətimizə heyran olur. Ölkəmiz mənəvi incilərimizlə, ənənələrimizlə bəşəriyyətə fayda verir.

Bütün bunlar müstəqilliyimizin uğurlu nailiyyətləri, dəyərli töhfələridir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# MDB dövlətlərinin təhlükəsizlik qurumlarının 57-ci iclası keçirilmişdir




Oktyabrın 16-da Özbəkistan Respublikasının Səmərqənd şəhərində MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 57-ci iclası keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev tədbirdə iştirak etmişdir.

İclasın əsas mövzusu MDB regionunda beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə, kibercinayətkarlığa, informasiya təhlükəsizliyini təhdid edən hallara, ekstremizmə və radikalizmə, eləcə də sadalananların doğurduğu digər mənfi təzahürlərə qarşı səyləri birləşdirməklə birgə mübarizənin aparılmasına həsr olunmuşdur.

Həmçinin tədbirdə MDB dövlətlərinin təhlükəsizliyinin etibarlı təmin edilməsi istiqamətində qarşıda duran plan və vəzifələr barədə ətraflı müzakirələr aparılmışdır.

# Baş prokuror Gəncə şəhərində vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Oktyabrın 17-də baş prokuror Kamran Əliyev Gəncə Şəhər Prokurorluğunun inzibati binasında Gəncə şəhər, Göygöl, Samux, Kəlbəcər rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib. Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib. Daha sonra baş prokuror Gəncə Memorial Kompleksini ziyarət edib, 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş insanların əziz xatirəsini yad edib, abidə önünə gül dəstələri qoyub. Qəbulda iştirak etmiş 73 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib. Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Baş Prokurorluq tərəfindən **"Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar"** mövzusunda regional konfrans keçirilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkədə "Konstitusiya və Suverenlik İli" elan olunması ilə əlaqədar olaraq, prokurorluq orqanları tərəfindən silsilə tədbirlər həyata keçirilir.**

Bu tədbirlərin davamı olaraq, oktyabrın 17-də Xaçmaz şəhərində Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə "Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar" mövzusunda regional konfrans keçirilib. Tədbirdə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, media orqanlarının nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak ediblər. Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra iştirakçılar Xaçmaz şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən guşə ilə tanış olublar.

Konfrans başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi Orxan İsayev açılış nitqi ilə çıxışında konstitusiya prinsiplərinin müdafiəsində prokurorluğun funksional rolunu açıqlayıb. O bildirib ki, hüquqi dövlətin möhkəmləndirilməsi üçün qanunun aliliyinin təmin olunması və dövlət ittihamçılarının obyektiv mövqedə dayanması əsas prioritetlərdəndir. Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev çıxışında rayonda hüquqi maarifləndirmə işlərinin davamlı xarakter aldığını vurğulayıb. O, gənclərin hüquqi şüurunun artırılması və konstitusiya dəyərlərinin aşılanmasının vacibliyini qeyd edib.



Xaçmaz rayon prokuroru Rəşad Məmmədov isə çıxışında prokurorluq orqanlarının dövlət suverenliyinin qorunmasında üzərinə düşən vəzifələrdən danışıb. O bildirib ki, müasir dövrdə hüquqi çağırışlara çevik və adekvat reaksiya vermək üçün prokurorluq orqanlarının peşəkar resursları və institusional imkanları durmadan inkişaf etdirilməlidir. Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Anar Eyvazov öz çıxışında Azərbaycan Ordusunun dövlət suverenliyinin qorunmasında oynadığı rol, informasiya təhlükəsizliyi sahəsində görülən tədbirlər və dezinformasiyalara qarşı mübarizə mexanizmləri barədə ətraflı məlumat verib. Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçirilən hüquqi maarifləndirmə tədbirləri və ictimaiyyətlə effektiv ünsiyyətin vacibliyi barədə danışıb. Kənan Zeynalov hüquqi informasiyanın cəmiyyətə düzgün və vaxtında çatdırılmasının dövlətə olan inamın möhkəmləndirilməsində önəmli rol oynadığını qeyd edib. "Dövlət suverenliyinin və konstitusiya dəyərlərinin qorunmasında medianın rolu" mövzusunda çıxış edən ARB Günəş və ARB Şimal televiziyalarının direktoru Məhsim Məhsimov medianın hüquqi maarifləndirmə və ictimai nəzarət baxımından mühüm vasitə olduğunu qeyd edib. O, jurnalistlərin hüquqi biliklərinin artırılmasının və medianın dövlət orqanları ilə əməkdaşlığının vacibliyini vurğulayıb.

Konfransda I Qarabağ müharibəsi veteranı, Xaçmaz şəhər sakini Sabir Məmmədov da çıxış edərək, 1994-cü il aprelin 9-da Ulu Öndər Heydər Əliyevin Füzuli-Horadiz istiqamətindəki hərbi hissələrdə əsgərlərlə görüşü zamanı onunla şəxsən tanış olduğu unudulmaz xatirələrini bölüşüb. Sabir Məmmədov həmin tarixi görüşlərin Azərbaycan Ordusunun döyüş ruhunun möhkəmlənməsində və torpaqlarımızın müdafiəsi uğrunda mübarizə əzminin daha da yüksəlməsində müstəsna rol oynadığını xüsusi vurğulayıb. Tədbir çərçivəsində dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media nümayəndələri arasında hüquqi əməkdaşlıq, ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və gənclər arasında hüquqi şüurun artırılması istiqamətində geniş fikir mübadiləsi aparılıb, konkret təkliflər səsləndirilib. Konfransın sonunda "Xalqın adamı" adlı sənədli film nümayiş olunub və tədbir iştirakçıları ilə xatirə fotoşəkli çəkilib.

# Məhkəmədə Ermənistan vətəndaşlarının Azərbaycanın suverenliyi əleyhinə çağırışları və digər cinayət xarakterli məlumatlar tədqiq olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 17-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə hakim Zeynal Ağayev bildirib ki, iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxs məhkəməyə müraciət ünvanlayaraq üzrlü səbəbdən prosesdə iştirak edə bilmədiklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini və iclasda elan olunmasını xahiş ediblər.

Tərəflər həmin zərərçəkənlərin ibtidai istintaq zamanı verdikləri ifadələrinin məhkəmədə elan olunmasına etiraz etməyiblər.

Z.Ağayev deyib ki, həmin ifadələr növbəti iclaslarda elan olunacaq.

Sonra məhkəmə iclası sənədlərin elan olunması ilə davam etdirilib.

Belə ki, təqsirləndirilən şəxslər Arayik Harutyunyan, Bako Sahakyan, David Babayan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan, Levon Mnatsakanyan və digərlərinin bir sıra internet informasiya resurslarına müsahibələri, keçirdiyi görüşlərdə açıqlamaları və səsləndirdikləri fikirlər, eləcə də sosial şəbəkələrdə paylaşımları əsasında sənədlər tədqiq olunub.

Sənədlərə əsasən, həmin müsahibələrdə, açıqlamalarda, çıxışlarda, paylaşımlarda xalqlar arasında etnik, milli və dini düşmənçiliyin yayılmasına zəmin yaradan çağırışlar, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi əleyhinə çıxışlar və digər cinayət xarakterli məlumatlar, habelə müharibəyə və terrorçuluq törədilməsinə dair çağırışlar əksini tapıb.

Sənədlərin elanı başa çatdıqdan sonra iclasa sədrlik edən təqsirləndirilən şəxslərə həmin sənədlərə münasibət bildirmələri üçün söz verib.

Təqsirləndirilən şəxs L.Mnatsakanyan çıxış edərək, onun Cıdır düzündə erməni jurnalistə verdiyi müsahibənin yenidən tədqiq olunmasını istəyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov həmin müsahibənin ötən məhkəmə iclaslarının birində təqsirləndirilən şəxslərin dindirilməsi zamanı nümayiş etdirildiyini və Levon Mnatsakanyanın da bununla bağlı dövlət ittihamçılarının suallarını cavablandırdığını deyib. Vurğulayıb ki, sözügedən müsahibə həmin iclasda tədqiq olunanda Levon Mnatsakanyan razılaşmadığı hissələrə dair fikirlərini bildirib və bu, iclas protokolunda da öz əksini tapıb. Dövlət ittihamını müdafiə edən prokuror həmin sübutun yenidən tədqiqinə ehtiyac olmadığını deyib və məhkəmədən qeyd olunanların nəzərə alınmasını xahiş edib.

Bundan sonra hakim Zeynal Ağayev sözügedən videomüsahibənin nümayiş olunduğu iclasın protokolundan Levon Mnatsakanyanın narazılığını bildirdiyi hissəni elan edib.

Ardınca təqsirləndirilən D.İşxanyan məhkəməyə müraciət edərək, Ermənistanın müdafiə nazirinin sabiq müavini Manvel Qriqoryanın mediaya müsahibəsinin videosuna baxmağa şərait yaradıldığını bildirib.

Qeyd edək ki, D.İşxanyan əvvəlki məhkəmə iclasında həmin videonun təqsirləndirilən şəxslərə verilən planşetə yüklənməsini istəmişdi.

D.İşxanyan həmçinin qondarma rejimin "ordusunun qərargah rəisinin müavini" Kamo Vardanyanın imzaladığı məxfi sənədin surəti ilə tanış olmaq istəyib.

Əmrin surəti tanış olmaq üçün təqsirləndirilən şəxsə təqdim edilib.

Bundan başqa, təqsirləndirilən şəxslər Davit İşxanyan və David Babayan elan edilmiş sənədlərdə göstərilən bir çox xüsusatla razı olmadıqlarını bildirdilər.

Təqsirləndirilən şəxs A.Qukasyan çıxışında elan olunan sənədlərlə bağlı növbəti məhkəmə iclasında münasibət bildirməsinə şərait yaradılmasını məhkəmədən xahiş edib.

Hakim Zeynal Ağayev xahişin nəzərə alınacağını bildirib.

Məhkəmə prosesi oktyabrın 20-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Azərbaycanın xarici siyasətinin uğurları




## Beynəlxalq siyasətdə yeni mərhələ

### Ölkəmiz yalnız regional deyil, qlobal məsələlərdə də fəal iştirak edir

**Liderin gücü, nüfuzu həm də onun təsir imkanlarının coğrafi əhatə dairəsi ilə ölçülür. Güclü siyasi liderin fəaliyyətinin təsir dairəsi bir ölkə ilə məhdudlaşmır, bütövlükdə regional, hətta qlobal əhəmiyyət daşıya bilir. Bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi həm daxili, həm də xarici siyasət regionda gedən siyasi, iqtisadi proseslərin axarına həlledici təsir göstərir. Məhz dövlətimizim başçısının liderlik keyfiyyətləri əsasında Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Prezident İlham Əliyev ölkəni öndə gedən dövlətlər sırasına yüksəldib.**

Misirin Şarm əl-Şeyx şəhərində keçirilmiş Yaxın Şərq Sülh Sammiti və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşkilatçı tərəfin dəvəti ilə həmin sammitdə iştirakı ölkəmiz üçün də, regionumuz üçün də çox böyük əhəmiyyətə malikdir. Sammit ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi tərəfindən təşkil edilmişdi. Əsas məqsəd Yaxın Şərqdə davam edən toqquşmalar, Qəzza böhranı və digər humanitar, siyasi, təhlükəsizlik problemlərinə beynəlxalq həll yollarının tapılması ilə bağlı idi.

#### Sülh proseslərinin fəal iştirakçısı

Azərbaycan liderinin belə ali səviyyəli sammitdə iştirakı, ilk növbədə, ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəlməsi baxımından önəmlidir. Sammitə yalnız qlobal proseslərə geniş təsir imkanları olan məhdud sayda dövlət rəhbərləri dəvət olunmuşdu, bu protokolda ölkəmizin də yer alması Azərbaycanın beynəlxalq aləmdə etibarlı və vacib aktor kimi qəbul edilməsinin göstəricisidir.

Sammit zamanı dünya liderlərinin Prezident İlham Əliyevin şəxsiyyətinə olan yüksək rəğbəti, onunla ünsiyyətə olan böyük maraq, ABŞ Prezidenti Donald Tramp da daxil olmaqla siyasi liderlərin dövlət rəhbərimizlə bağlı müsbət fikirləri bunu bir daha sərgiləyirdi.

Bu tədbirdə iştirak eyni zamanda ölkəmizin balanslaşdırılmış və fəal xarici siyasət kursuna dəlalət edir. Azərbaycanın yalnız regional deyil, qlobal məsələlərdə də iştirak edərək tarazlı və praktik yönümlü siyasət yürütdüyünü ortaya qoyur. Belə bir siyasət Qərb ölkələri ilə də, ərəb dünyası ilə də münasibətlərdə inamın formalaşmasına xidmət göstərir.

Cənab İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı ölkəmizin və dövlətimizin başçısının regional barış və sülh təşəbbüslərində mühüm rolunu da nümayiş etdirir. Yaxın Şərq kimi mürəkkəb coğrafiyada sülh proseslərinin təşəbbüskarlarından biri kimi iştirak etmək Azərbaycan üçün strateji üstünlükdür. Və bu, humanitar problemlərin həllində, münaqişələrin dinc yolla tənzimlənməsində də dövlətimizin rolunu artırmış olacaq.

Sammit çərçivəsində dövlət başçıları, xarici işlər nazirləri arasında ikitərəfli və çoxtərəfli görüşlər üçün imkan yarandı. Bu da Azərbaycana yeni əməkdaşlıq sahələri açmaq, tərəfdaşlarla əlaqələri daha da gücləndirmək baxımından çox əhəmiyyətlidir. Ölkəmiz belə qlobal tədbirlərdə fəal şəkildə təmsil olunmaqla beynəlxalq gündəmdə mövqeyini möhkəmləndirir.

Azərbaycan Qafqaz bölgəsindəki sülh proseslərində, enerji və nəqliyyat tranziti kimi strateji məsələlərdə də liderliyini genişləndirir. Prezident İlham Əliyevin sözügedən sammitdə iştirakı bu mövqeyin yalnız regionla məhdudlaşmadığını, eyni zamanda beynəlxalq sülh və təhlükəsizlik məsələlərində təmsilçilik səviyyəsinin yüksəldiyini göstərir.

Bütün bunlarla yanaşı, təbii ki, öz növbəsində beynəlxalq məsuliyyət və imic məsələləri də diqqətdən kənarda qalmamalıdır. Sülhə, ədalətə və insan haqlarına önəm verən dövlətlərə ehtiyac duyulan bir dönəmdə qlobal platformalarda fəal iştirak həm humanitar, həm siyasi baxımdan Azərbaycanın imicinə, nüfuzuna müsbət təsir edir. Bu, bir tərəfdən ölkənin bölgədaxili, digər tərəfdən isə beynəlxalq media və diplomatik dairələrdə qəbuluna kömək göstərir.

Ümumən, Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı Azərbaycanın xarici siyasətdə yeni mərhələyə keçdiyini büruzə verir. Bu, yalnız regional deyil, qlobal məsələlərdə fəal iştirak, diplomatik nüfuzun artması, sülh proseslərinə töhfə vermək və beynəlxalq barışın formalaşmasında Azərbaycana düşən rolun genişlənməsi deməkdir.

#### Azərbaycanın sülh modeli

Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı eyni zamanda Azərbaycanın öz sülh modelini dünyaya təqdimetmə fürsətidir. Müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı ordumuzun və diplomatiyamızın gücü ilə qazandığımız tarixi Zəfərdən sonra son illərdə Cənubi Qafqazda sülhün "Azərbaycan modeli"ni formalaşdırıb. Güc və diplomatiya balansı əsasında torpaqların azad edilməsi, həmin ərazilərdə reinteqrasiya və multikultural siyasət, region dövlətləri arasında iqtisadi inteqrasiya təşəbbüsləri bu modelin ayrı-ayrı elementləridir.

Yaxın Şərq kimi uzunmüddətli münaqişə regionuna bu modelin təqdim olunması Azərbaycanı praktik sülh qurucusu kimi tanıdır.

Ölkəmizin bu cür beynəlxalq tədbirlərdə iştirakı Ermənistanla sülh prosesinə güclü təsir göstərir. Azərbaycan sülh çağırışlarını yalnız bölgə daxilində deyil, qlobal tribunalarda da səsləndirir. Bu isə Ermənistanın "təcrid olunmuş və tək qalmış tərəf" kimi görünməsini gücləndirir.

Azərbaycanın müxtəlif qlobal platformalarda, o cümlədən Yaxın Şərq platformasında "sülh tərəfdarı" kimi imici artdıqca, Ermənistanda müəyyən qüvvələrin vəziyyəti kəskinləşdirməyə çalışdıqları revanşist antisülh əhvalı daha qabarıq görünür. Məlumdur ki, ərəb dövlətlərinin hamısı olmasa da, bəziləri Ermənistanla tarixi, dini yaxınlıq baxımından neytral və ya soyuq münasibətdədirlər. Bu sammit vasitəsilə Azərbaycan sülh proseslərində həmin ölkələrin də dəstəyini qazana bilər.

#### Çoxvektorlu diplomatiya

Geosiyasi reallıqları və Azərbaycanın çoxvektorlu balanslaşdırma siyasətini nəzərə alsaq, Yaxın Şərq Sammiti kimi platformalarda fəal iştirak həm də Azərbaycanın çoxvektorlu diplomatiyasının real nümayişidir. Bu siyasət Türkiyə ilə strateji müttəfiqliyi gücləndirən, Rusiya ilə əlaqələri qoruyan, Qərb və ərəb dünyası ilə etibarlı münasibətlər saxlayan Azərbaycanın həm Moskva, həm Brüssel, həm də Qahirə-Riyad-Abu Dabi xəttində balanslı oyunçu olmasına imkan verir. Başqa sözlə, Azərbaycan artıq "Qafqazın lokal aktoru" deyil, qitələrarası geosiyasi körpü rolunda çıxış edir.

Yaxın Şərq Sülh Sammiti kimi platformalar həm də enerji təhlükəsizliyi və humanitar məsələlərin müzakirə olunduğu qlobal məkandır. Azərbaycan burada iştirakı ilə daha iki istiqamətdə öz rolunu vurğulamış olur. Bunlardan birincisi, enerji diplomatiyasıdır - Azərbaycanın qaz və "yaşıl enerji" layihələri Avropa ilə yanaşı, ərəb ölkələrinin də marağındadır. Digər istiqamət isə humanitar təşəbbüslərdir ki, Qarabağda bərpa və reinteqrasiya təcrübəsi, müharibədən sonrakı bərpa modelləri Yaxın Şərqdəki sülh gündəmlərinə nümunə kimi təqdim oluna bilər.

Bu, Azərbaycanın sülhə yalnız siyasi deyil, praktik və iqtisadi töhfə verən dövlət kimi qəbul olunmasını möhkəmləndirir. Ümumi nəticədən çıxış etsək, qeyd edə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı bir tərəfdən Azərbaycanın "regional sülh ixracatçısı" kimi yeni identifikasiyasını gücləndirir, Ermənistanla sülh prosesinə əlavə beynəlxalq legitimlik qazandırır, digər tərəfdən isə Qafqaz-Yaxın Şərq-Avropa xəttində vahid sabitlik qütbü kimi ölkəmizin mövqelərini möhkəmləndirir.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

## Regional güc olan Azərbaycana qlobal aləmdə etimad göstərilir

### Prezident İlham Əliyev bu gün ölkəmizi qlobal məsələlərin həllində əsas iştirakçılardan birinə çevirib



**"Prezident İlham Əliyevin dillər əzbəri olan bir ifadəsi var. Dövlətimizin başçısı bildirib ki, Azərbaycan dünya miqyasında elə də böyük dövlət deyil, lakin sözünün mənası və çəkisi böyükdür".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elman Nəsirov deyib. O vurğulayıb ki, Azərbaycanın dünya miqyasında sözünün məna və çəkisinin böyüklüyünün səbəbkarı Prezident İlham Əliyevin misilsiz fəaliyyəti, dövlətçiliyin və milli maraqların müdafiəsi sahəsindəki fədakarlığıdır. Xalqın gözü tərəzidir. Xalq bilir ki, tarix yazan və adını tarixə yazdırmış Prezident İlham Əliyev bu gün Azərbaycanı qlobal məsələlərin həllində əsas iştirakçılardan birinə çevirib. Azərbaycan regional gücdür və Cənubi Qafqazın əsas söz sahibidir, qlobal aləmdə onun səsi eşidilməkdədir.

Prezident İlham Əliyevə dünyada çox böyük etimad və hörmət olduğunu qeyd edən deputat bildirib ki, dövlətimizin başçısının oktyabrın birinci yarısında səfərlərinin coğrafiyasına və həll olunan məsələlərin miqyasına baxdıqda dediklərimiz bir daha təsdiqini tapır: "Ölkəmizin rəhbəri Avropa Siyasi Birliyinin Kopenhagen sammitində iştirak etdi və bu tədbir çərçivəsində Ermənistan Baş naziri ilə mühüm görüş keçirdi. Sülh və təhlükəsizlik məsələləri ilə bağlı cənab Prezident çox ciddi mesajlar səsləndirdi. Daha sonra Azərbaycan Türk Dövlətləri Təşkilatının Qəbələdə Zirvə görüşünə evsahibliyi etdi. Burada türk dünyasının gələcək inkişaf perspektivləri ilə bağlı əhəmiyyətli razılaşmalar əldə edildi. Xüsusilə Prezident İlham Əliyevin "TDT sadəcə bir əməkdaşlıq platforması deyil, dünyanın əsas geosiyasi mərkəzlərindən birinə çevrilməkdədir" ifadəsi dediklərimizi bir daha təsdiqləyir. Bu prosesin lokomotivi kimi Azərbaycan dövləti çıxış edir".

E.Nəsirov Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasındakı iştirakını xatırladaraq, tədbirin mühüm əhəmiyyətə malik olduğunu söyləyib. Bu iclas çərçivəsində Rusiya Prezidenti ilə aparılan danışıqlarla iki dövlət arasında anlaşılmazlıq mühitinin aradan qaldırılması istiqamətində həlledici addımlar atıldı. Rusiya tərəfi məlum təyyarə qəzası ilə bağlı bir daha üzrxahlıq ifadə etdi və Azərbaycana kompensasiya ödəyəcəyini bildirdi, cinayətkarların cəzalandırılacağını bəyan etdi. Bunlar ölkəmiz üçün olduqca əhəmiyyətli məsələlər idi. Rusiya ilə mövcud problemlərin həlli istiqamətində real addımlar atıldı. "Prezident İlham Əliyev dünyanın ən ağır və mürəkkəb problemlərindən biri olan Fələstin-İsrail münaqişəsinin həlli prosesi ilə bağlı çox mühüm tədbir olan Yaxın Şərq Sülh Sammitinə dəvət aldı. Prezident Donald Tramp Azərbaycan Prezidentinə xitabən söylədi ki, siz dünyanın ən güclü liderlərindən birisiz. Və qeyd etdi ki, Azərbaycan Prezidenti ilə ancaq dost olmaq lazımdır. Nəzərə alsaq ki, 20 dövlət başçısı bu tədbirə qatılmışdı və Azərbaycan Prezidentinin bu sammitə xüsusi olaraq dəvət olunması ölkəmizə, dövlətimizin rəhbərinə olan böyük etimadın, hörmətin ifadəsi, müdrik idarəçilik qabiliyyətinə verilən yüksək qiymət, mahir diplomat olaraq potensialına və onu reallaşdırma üslubuna verilən dəyər idi. Bütün bu hadisələr göstərir ki, Azərbaycan həqiqətən dünyada çox böyük nüfuza malikdir", - deyə deputat əlavə edib.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

## Azərbaycan-Fransa münasibətlərində yeni dövr başlayır



**Vətən müharibəsindən sonra Azərbaycan əleyhinə mövqe nümayiş etdirən əsas ölkələrdən biri Fransa idi. Rəsmi Parisin ölkəmiz əleyhinə qarayaxma kampaniyaları, rəsmi şəxslərinin şər-böhtan xarakterli çıxışları iki ölkə arasında vəziyyəti gərginləşdirmişdi.**

Son dönəmlərdə isə münasibətlərin inkişafında müsbət dinamika müşahidə olunur. Xüsusilə Avropa Siyasi Birliyinin Kopenhagen sammiti çərçivəsində Prezident İlham Əliyevin Emmanuel Makronla görüşündən sonra əlaqələrin yaxşılığa doğru getdiyi müşahidə olunur. Prezident İlham Əliyev Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edərkən Kopenhagen görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını deyib. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlət başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxunub.

Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan və Fransa arasında etimad səviyyəsini yaradan şərtlərdən birincisi, Fransanın Cənubi Qafqazda ona strateji mənfəət gətirməyəcək oyun qaydalarından iştirak etməkdənsə, məhsuldar nəticələr naminə Azərbaycanla əməkdaşlığı yeniləməyi düşünməsidir: "Bu, Zəngəzur dəhlizinin mahiyyətində Fransanın gələcəkdə iqtisadi-ticari dividendlər qazanmağını hədəfləyən baxışdır. İkincisi, Fransa Azərbaycanla geosiyasi məsələlər və regional təhdidlərin qiymətləndirmələri üzrə məsləhətləşmələrə üstünlük verir. Üçüncüsü, Parisin strategiyasını Zəngəzur dəhlizi kontekstində təzələməsi Azərbaycanla ABŞ-nin münasibətlərindəki yeni mərhələ və Bakı ilə Böyük Britaniyanın əlaqələrindəki mühüm ştrixlərlə əlaqəlidir. Göründüyü kimi, Azərbaycanla Fransanın münasibətləri tərəflər arasında etimadı yüksəldir və onların konstruktiv əməkdaşlıq modelinə daxil olacağını səciyyələndirir".

Ekspert qeyd edib ki, rəsmi Bakı Parisin regionda iştirakı üçün qapıları açır və Azərbaycan bunun müqabilində Fransadan əhəmiyyətli işlər gözləyəcək. Bu, Fransanın Ermənistanı silahlandırmaqdan əl çəkəcəyinə dair zəmanətin alınması ola bilər. Başqa tərəfdən isə Azərbaycan Fransanın Ermənistanda keçiriləcək parlament seçkilərinə müdaxilə imkanlarını aradan qaldırmağı istəyəcək. Həm də Fransa həlledici bir dövlət kimi Avropa İttifaqının Ermənistandakı Monitorinq missiyasının çıxarılmasına çalışmalıdır.

A.Kərimov qeyd edib ki, Azərbaycanla Fransa hazırkı konstruktiv münasibətlər sistemini açıq qalan məsələlərin nəticəsi ilə yüksək səviyyəyə qaldıra bilər: "Bu, Bakı-Paris xəttində əlaqələrin reqlamentinə təsir edəcək. Azərbaycan da Fransanın beynəlxalq güc siyasətindəki roluna əsaslanaraq strateji imkanlarını yüksəltmək üçün Parislə yeni danışıqlara başlaya bilər".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Möhtəşəm qələbənin sevincli günləri





**Erməni separatçılarının havadarlarına arxalanaraq 1988-ci ildə Qarabağda başladıqları savaş həm xalqımız, həm də ölkəmiz üçün ağır nəticələrə gətirib çıxardı. Keçmiş Dağlıq Qarabağ və ətraf rayonlar - Kəlbəcər, Laçın, Ağdam, Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı erməni işğalçılarının əlinə keçdi.**

## Dövlət müstəqilliyimizin bərpası günündə daha bir qələbə

### 5 il öncə Azərbaycan əsgəri qədim Xudafərini "əsirlik"dən azad etmişdir

**18 oktyabr 2020-ci il! Azərbaycan tarixinin şanlı günlərindən biri. Beş ilə əvvəl Prezident İlham Əliyev xalqımıza daha bir qələbə müjdəsi verdi: "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!"**



Tarix yazan, tarix yaradan böyük sərkərdə bununla ordusunun 27 il erməni tapdağı altında əzab çəkən, inildəyən Xudafərin kəndini və tarixi Xudafərin körpüsünün məhz oktyabrın 18-də - Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Günündə azad olunduğu müjdəsini vermiş oldu. Xudafərin körpüsünün üzərində 27 ildən sonra yenidən Azərbaycan Respublikasının bayrağı ucaldıldı. Həmin gün xalqımız bir gündə iki bayramın sevincini yaşadı. Prezident İlham Əliyev ordumuzun Xudafərin zəfəri barədə demişdir: "Oktyabrın 18-də Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünə çıxdı və Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı. Xudafərin körpüsü Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan xalqının istedadının sübutudur. Biz Azərbaycan xalqına məxsus olan bu möhtəşəm memarlıq əsəri ilə haqlı olaraq fəxr edirik".

Ermənilər 30 ilə yaxın işğal dövründə Xudafərin kəndini darmadağın etmiş, xarabalığa çevirmiş, evləri, inzibati binaları və bütün tikililəri söküb dağıtmışlar. Xudafərin körpüsünün və Xudafərin kəndinin işğaldan azad edilməsi Vətən müharibəsinin ən əlamətdar hadisələrindən sayılır. 2020-ci il sentyabrın 27-də Zəfər yürüşünə başlayan Azərbaycan Ordusu həmin gün eyni zamanda Cəbrayılın Hacılı və Hacı İsaqlı kəndlərinin işğalına son qoymuşdur.

Azərbaycan memarlıq məktəbinin ən qədim nümunələrini özündə ehtiva edən 11 tağlı Xudafərin körpüsü İran-Azərbaycan sərhədində, Araz çayı üzərində yerləşən XI-XII əsrlərə aid tarixi abidədir. Tədqiqatçılar onun XIII yüz ildə, Elxanilərin (Hülakülər) hakimiyyəti illərində antik dövr körpüsünün qalıqları üzərində yenidən tikilməsini ehtimal edirlər. Körpünün uzunluğu 130 metrə yaxın, eni 6 metr, çay səviyyəsindən hündürlüyü 12 metrdir. Hazırda üç orta tağı salamatdır. Sahil tağları isə XX əsrin 30-cu illərində SSRİ-nin qərarı ilə dağıdılmışdır.

Xudafərin Azərbaycan memarlarının müstəsna mühəndislik bacarığının ən unikal nümunələrindən sayılır. Tədqiqatçıların bir çoxunun fikrincə, körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan ona Xudafərin adı verilib. Bu körpünün Azərbaycanın Hindistandan başlayaraq, Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri ilə iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük rol oynadığı barədə fikirlər söylənilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonuna ilk səfərləri zamanı Xudafərin körpüsünü ziyarət etmişlər. Həmin gün dövlətimizin başçısının söylədiyi fikirlər Xudafərin körpüsünə verilən tarixi dəyərdir: "Bu gün, noyabrın 16-sı, mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq. Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu torpaqlarda oturub, bizə meydan oxuyub. Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik".

Dövlətimizin başçısı və birinci xanım körpünü ziyarət etdikdən sonra Prezident İlham Əliyev körpüdə Azərbaycanın dövlət bayrağını ucaltdı. Bu mənzərə xalqımız üçün təkcə hərbi qələbənin deyil, həm də milli qürurun, mənəvi zəfərin təntənəsi idi.

2021-ci il oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə çıxışı zamanı dövlətimizin başçısı bir daha Xudafərin qəsəbəsinin və körpüsünün azad olunmasını xatırlayarq qeyd etmişdir: "Bu gün bu tarixə toxunarkən, sadəcə olaraq, öz mövqeyimi, öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istəyirəm. Sabah digər tarixi gün qeyd olunacaq - Xudafərin qəsəbəsinin azad olunması. Oktyabrın 18-də Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünə çıxdı və Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı. Xudafərin körpüsü Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan xalqının istedadının sübutudur. Biz Azərbaycan xalqına məxsus olan bu möhtəşəm memarlıq əsəri ilə haqlı olaraq fəxr edirik. Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq. Bir daha sizi təbrik edirəm və yeni uğurlar, cansağlığı arzu edirəm".

Bu gün qürurla deyə bilərik ki, Cəbrayıl rayonu Qarabağın digər azad olunmuş əraziləri kimi tikinti və dirçəliş meydanına çevrilib. Böyük qayıdış proqramı çərçivəsində Böyük Mərcanlı, Karxulu, Sarıcallı, Maşanlı kimi kəndlərdə sürətlə fərdi evlər tikilir, infrastruktur bərpa olunur. Müasir üslubda salınan Cəbrayıl şəhəri isə çox çəkməyəcək, gözəlliyi və şəraiti ilə hər kəsi heyran edəcək.

Bu gün - Xudafərin körpüsünün "əsirlik"dən qurtulmasının beşinci ildönümündə vətən uğrunda canını qurban verən, sağlamlığını itirən, qəhrəmanlıq göstərən igid oğullarımız dərin ehtiramla anılır. Bizə bu qüruru, xoşbəxtliyi yaşadan Azərbaycan Ordusuna minnətdarlığımız sonsuzdur. İllər, əsrlər keçəcək, amma 18 oktyabr - Xudafərin zəfəri xalqımızın yaddaşından silinməyəcək, tariximizin ən şərəfli səhifələrindən biri kimi qürur və iftixarla xatırlanacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## 27 illik işğala 24 gündə son qoyuldu

Zəngilan Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən 29 oktyabr 1993-cü ildə işğal edilən sonuncu rayonu oldu. Həmin tarixəcən düşmənə baş əyməyən, hücumlara sinə gərən Zəngilan qonşu Qubadlı və Cəbrayılın işğalından sonra mühasirəyə düşmüşdü. Xilas yolu Arazın gur axan sularını keçərək İran İslam Respublikasının ərazisinə keçmək idi.



Zəngilanın işğalı 2020-ci ilin oktyabrına qədər davam etdi. Həmin tarixdə zülmün, işğalın sonu gəlib çatdı. Şükürlər olsun ki, başqa bölgələrimiz kimi, Zəngilanın da işğaldan azad olunmasını gördük, sevinc dolu anlar yaşadıq. Kədərli çöhrəmizə gülüş ələndi, sıxılmış ürəklər açıldı, nəmli gözlərə işıq ələndi.

...27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində Qarabağ müharibəsi yenidən alovlandı. Erməni işğalçıları yeni ərazilərimizi ələ keçirmək üçün qəflətən mövqelərimiz üzərinə hücuma keçdilər. Ordumuzun cəsur zabit və əsgərləri qısa müddət ərzində düşmənin hücumlarını dayandırdılar. Uzun illərdən bəri erməni işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda əks-hücum əməliyyatı başladı. Elə döyüşlərin ilk günündə Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Cəbrayıl rayonunun bir neçə kəndini erməni işğalçılarından azad etdi. Bununla da Azərbaycan Ordusunun Zəfər yürüşünə start verildi. Cəbrayıl və Füzuli azad edildikdən sonra Zəngilan uğrunda döyüşlər başladı. Xeyli canlı qüvvəsini, zirehli texnikasını itirmiş düşmən artıq zəifləmişdi, ordumuzun güclü hücumları qarşısında dayana bilmirdi.

İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə Prezident İlham Əliyev televiziya vasitəsilə xalqa etdiyi müraciətlərində verdiyi Zəfər müjdələri ilə hamını sevindirirdi. Ali Baş Komandan 2020-ci il oktyabrın 20-də xalqa qələbə ovqatlı bu xoş xəbərləri çatdırdı: "Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir! Əziz xalqım, əziz zəngilanlılar, füzulililər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq! Qarabağ bizimdir! Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!"

Zəngilanın işğalçılardan azad olunması həm də Azərbaycan-İran sərhədinin bərpası demək idi. O səbəbdən ən gərgin döyüşlər Mincivan, Ağbənd, Bartaz və başqa yaşayış məntəqələri uğrunda getmişdi. Erməni işğalçıları böyük strateji əhəmiyyətə malik olan bu əraziləri əldən vermək istəmirdilər. Amma nə qədər müqavimət göstərsələr də, qüdrətli Azərbaycan Ordusunun qarşısında çox dayana bilmədilər.

Beləliklə, 20 oktyabr 2020-ci il Zəngilanın işğaldan azad edildiyi gün kimi tarixə düşdü. Zəfər tariximizə böyük hərflərlə yazılmış bu gün Azərbaycan xalqının yaddaşında əbədiləşdi. Çünki həmin gün Azərbaycan xalqı ölkəmizin ərazisinin ayrılmaz bir parçası olan Zəngilanı işğaldan azad gördü. 27 ildən sonra rəşadətli Azərbaycan Ordusunun bu əraziləri ermənilərdən azad etməsi dövlətimizin Zəfər salnaməsində şərəfli bir səhifə açdı.

2020-ci il noyabrın 26-da Prezident İlham Əliyev Zəngilanın işğaldan azad edilməsi şərəfinə "Zəngilanın azad olunmasına görə" medalının təsis edilməsi barədə sərəncam imzaladı. Zəngilan uğrunda döyüşlərdə xüsusi şücaət göstərən Azərbaycan Silahlı Qüvvələrinin zabit və əsgərləri bu medalla təltif olundu.

İkinci Qarabağ müharibəsindən əvvəlki illərdə oktyabr ayının 29-u Zəngilan rayonunun işğal günü kimi qeyd edilirdi. Şükürlər olsun ki, həmin gün geridə qalıb. İndi xalqımız Zəngilanın erməni işğalından azad olunduğu günü böyük qürur və iftixarla qeyd edir. Prezident İlham Əliyev 2020-ci il dekabrın 23-də Zəngilana səfəri zamanı bu gözəl diyarda Azərbaycan bayrağını ucaltdı. Həmin gün müasir tariximizin daha bir şərəfli səhifəsi oldu.

Bu gün işğaldan azad olunmuş başqa bölgələrimiz kimi, Zəngilan rayonunda da abadlıq-quruculuq işləri bir an olsun belə dayanmır. Prezident İlham Əliyevin apardığı uğurlu, məqsədyönlü, düşünülmüş və qətiyyətli siyasət sayəsində işğaldan azad edilmiş bölgələrimiz sürətlə yenidən qurulur. Uzun illərdən bəri yurd həsrəti ilə yaşayan keçmiş köçkünlərin dədə-baba torpaqlarına qovuşması üçün böyük işlər görülür, bir-birindən uğurlu layihələr həyata keçirilir.

Zəngilanlılar da bu gün sevinc və qürur dolu günlər yaşayırlar. Təsadüfi deyil ki, keçmiş köçkünlərin ilk köçü elə Zəngilanın Ağalı kəndinə olub. 27 may 2022-ci ildə burada "ağıllı kənd" layihəsinin birinci mərhələsinin açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

20 oktyabr 2022-ci ildə Zəngilanın tarixinə böyük hərflərlə yazılıb. Həmin gün Zəngilan Beynəlxalq Hava Limanının açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər. Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.

Rayon sakini Əli Rzaquliyev Birinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə zabit kimi Zəngilan uğrunda gedən döyüşlərdə iştirak edib. Həmin günlərdən söz açan keçmiş hərbçi deyir ki, Rusiyanın ucqarlarında xidmət edirdi: "Baş leytenant rütbəsində tank bölüyünün komandiri idim. Frunze adına Hərbi Akademiyaya zirehli texnika üzrə yaşı 26-yadək olan və 3 il bölük komandiri kimi xidmət keçmiş zabitlər seçilirdi. Xidmət etdiyim hərbi dairə üzrə yeganə namizəd idim, sənədlərim də göndərilmişdi. Bu ərəfədə doğma vətənimizdən ermənilərin törətdiyi Xocalı faciəsi barədə kədərli məlumatlar aldıq. Qəti qərara gəldim ki, nəyin bahasına olursa olsun, vətənə dönməliyəm. Bizim kimi bacarıqlı zabitləri olan Azərbaycanda ermənilər necə qırğın törədə bilərlər? Böyük çətinliklərdən sonra məqsədimə çatdım, yeni yaradılan ordumuzun sərəncamına göndərildim. Xidmət keçmək üçün Zəngilan rayonuna təyin olundum. 1992-1993-cü illərdə rayon uğrunda gedən döyüşlərdə vuruşduq. Doğma yurdumuzu erməni işğalçılarından qorumağa çalışdıq. Amma qüvvələr bərabər deyildi. Şükürlər olsun ki, 27 ildən sonra Azərbaycan Ordusu başqa bölgələrimiz kimi, Zəngilan da erməni işğalçılarından azad olundu. Biz artıq həmin zəfər gününün 5-ci ildönümünü yaşayırıq. Bütün sahələrdə qazanılan qələbələr, atılan uğurlu addımlar Azərbaycan Prezidenti İlham Əliyevin milli maraqlarımıza xidmət edən müstəqil siyasətinin, güclü ordumuzun, xalqımızın birliyinin, həmrəyliyinin nəticəsidir".

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# 18-19-20 oktyabr 2020-ci il
## ZƏFƏR gündəliyi

# İlham ƏLİYEV: "Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı"

## 18 oktyabr

**Oktyabrın 18-də saat 00:00-dan yeni humanitar atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri növbəti dəfə razılaşmanı kobud surətdə pozub. Düşmən Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutub. Şəxsi heyət arasında itki yoxdur. Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.**

### Düşmənin hərbi hissəsi ələ keçirilib

Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib.

Düşmən döyüş texnikası, silah-sursat və digər hərbi vasitələri tərk edərək qaçmaq məcburiyyətində qalıb. Cəbhəboyu bütün istiqamətlərdə bölmələrimiz üstünlüyü əldə saxlayıb.



### Prezidentdən xalqa növbəti müjdə

Prezident İlham Əliyev özünün rəsmi "X" səhifəsində daha bir paylaşım edib: "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!"




### Mehriban ƏLİYEVA: "Dünya Azərbaycan xalqının yenilməz iradəsinin, Vətənə sadiqliyinin şahididir"

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" hesabında Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib: "Bu günlərdə bütün dünya ictimaiyyəti Azərbaycan xalqının yenilməz iradəsinin, qətiyyətinin, əzminin, birlik və həmrəyliyinin, Vətənə sadiqliyinin şahididir. Əminəm ki, xalqımızın məhz bu xüsusiyyətləri bizə qarşımızda dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, o cümlədən müstəqilliyimizi qoruyub saxlamağa hər zaman kömək edəcəkdir. Qoy Azərbaycanın müstəqilliyi əbədi olsun! Uca Tanrı xalqımızı, Vətənimizi qorusun!"

### Düşmənin "Su-25" hücum təyyarəsi məhv edilib

Saat 12:30-da cəbhənin Cəbrayıl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin növbəti "Su-25" hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

### Mehriban ƏLİYEVA: "Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm"

"Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir".

Bu fikirlər Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstaqram" hesabında etdiyi növbəti paylaşımda öz əksini tapıb.

Paylaşımda həmçinin deyilirdi: "Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"



### Erməni xüsusi təyinatlıları döyüşdən imtina edərək qaçıblar

Ermənistan silahlı qüvvələrinin son qüvvə kimi səngərlərə atdığı xüsusi təyinatlılar Azərbaycan əsgərlərinin həmləsinə tab gətirməyərək geri qaçmağa məcbur edilib.

Nümayiş olunan videoda Azərbaycan Ordusunun zirehli texnika və əsgərlərinin erməni xüsusi təyinatlılarını necə qovduğu müşahidə olunub.

Videonun son kadrlarında düşmən səngərləri tərk etdikdən sonra həmin mövqelərə doğru Azərbaycan əsgərlərinin irəliləməsi aydın görünür.

### Horadiz istiqamətində düşmənin PUA-sı məhv edilib

Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.

### Hərbçilərimiz Füzuli şəhərində bayrağımızı qaldırıblar

Müdafiə Nazirliyi işğaldan azad olunan Füzuli şəhərinin mərkəzində Azərbaycan bayrağının qaldırılması, eləcə də Füzuli istiqamətində gedən döyüşlərdə xeyli sayda canlı qüvvə və texnika baxımından itkilərə məruz qalan düşmənin döyüş meydanında atıb qaçdığı hərbi texnikası və silah-sursatının foto və videogörüntülərini yayıb.

## 19 oktyabr

**Gecə saatlarında bütün cəbhəboyu döyüşlər davam edib.**
**Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları aparılıb. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulub. Azərbaycan Ordusunun fəaliyyətləri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.**

### Erməni hərbi birləşmələri geri çəkiliblər

Bir çox istiqamətdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıblar. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da olub. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.

### Prezidentdən növbəti müjdəli xəbər




Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib. Ali Baş Komandan rəsmi "X" səhifəsində yazıb: "Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!"

### Ali Baş Komandan DSX-nin hərbi qulluqçularını təbrik edib

Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik edib və təbriklərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırıb. General-polkovnik E.Quliyev DSX-nin şəxsi heyətinin Ali Baş Komandanın bütün tapşırıqlarını bundan sonra da layiqincə yerinə yetirəcəyini məruzə edib.

### Tovuz və Daşkəsən rayonları atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycanla dövlət sərhədində növbəti dəfə vəziyyəti gərginləşdirməyə cəhd göstərib. Saat 11:10-dan başlayaraq, Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqeləri iriçaplı silahlardan atəşə tutulub.

### Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib

Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edib. Müraciətdə qeyd edilib ki, son günlər bəzi sosial şəbəkə istifadəçiləri əməliyyatların aparıldığı istiqamətlə və cari vəziyyətlə bağlı müxtəlif şəxsi fikirlər paylaşaraq hadisələri qabaqlamağa çalışırlar.

Nazirlik bildirib ki, bu cür addımlar həm məxfilik rejiminin pozulmasına, həm də hərbi qulluqçularımızın həyatının təhlükəyə atılmasına səbəb ola bilər: "Bütün bunları nəzərə alaraq sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini rəsmi surətdə öz təsdiqini tapmamış məlumatları yaymamağa və yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq".

### Ermənistan razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini pozub




"Ermənistan silahlı qüvvələri razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini kobudcasına pozaraq oktyabrın 18-də saat 00:02-dən sonra Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutub".

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi "X" hesabında bildirir.

Dövlət başçısı qeyd edir ki, bu çirkin əməllər nəticəsində ölən və yaralananlar var: "Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək bir neçə yaşayış məntəqəsini işğaldan azad edib".

### Müzəffər Ali Baş Komandandan Ermənistana növbəti dərs



Prezident İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinə videomüsahibə verərək Ermənistanın elan olunan atəşkəsi növbəti dəfə pozmasını faktlara əsasən izah edib.

İlham Əliyev deyib ki, Moskva danışıqlarından sonra Azərbaycan üzərinə götürdüyü öhdəliklərə əsaslanıb, həmin öhdəlikləri yerinə yetirməyə çalışıb. Lakin təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub: "Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə, o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

Prezident bir daha Ermənistan rəhbərliyinə sərt xəbərdarlıq edib: "Əgər ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq. Biz baza prinsiplərinə tərəfdarıq, hesab edirəm ki, nizamlama mümkündür. Lakin bunun üçün erməni tərəfi elə indi, nə qədər ki gec deyil, nə qədər ki qarşımızda diz çöküb, bu prinsipləri qəbul etmək və münaqişəni qaynar fazadan siyasi nizamlama mərhələsinə keçirmək üçün onun hələ vaxtı var".

## 20 oktyabr

**Torpaqlarımızın işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edib.**

Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### Düşmənin yüksəkrütbəli zabitləri məhv edilib

Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub.

Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri, kapitan Vahab Asetryan da zərərsizləşdirilib.

Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

Artilleriya bölmələrimiz Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə zərbələr endirib. 246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

### İlham ƏLİYEV: "Düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür"

Prezident İlham Əliyev xalqa müraciət edib.

Müzəffər Azərbaycan Ordusunun döyüş meydanında yeni qələbələr qazandığını söyləyən Ali Baş Komandan vurğulayıb ki, torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görüb.



"Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq", deyən Prezident xoş xəbərlər verərək işğaldan azad edilən növbəti yaşayış məntəqələrinin adlarını açıqlayıb:

Füzuli rayonu: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

Cəbrayıl rayonu: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.

Xocavənd rayonu: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri.

Zəngilan rayonu: Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

Prezident Vəng kəndinə yeni Azərbaycan adı verib: "Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!"

### Mehriban Əliyeva Zəngilan şəhərinin azadlığı münasibətilə xalqı təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "İnstaqram" səhifəsində paylaşım edib: "Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Gəncə və Goranboy ərazilərində 2 PUA zərərsizləşdirilib

Gün ərzində düşmənə məxsus 2 PUA zərərsizləşdirilib.

Axşam saatlarında Gəncə istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Saat 19:30 radələrində isə düşmənə məxsus növbəti PUA Goranboy rayonunun Tapqaraqoyunlu kəndi üzərində hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

### Düşmənin muzdlulardan ibarət "Legion" dəstəsi döyüşdən imtina edib

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində düşmənin 2-ci motoatıcı alayının müdafiə sahəsində bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

18-ci motoatıcı diviziyanın müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət "Legion" dəstəsi və ehtiyatdan çağrılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina ediblər. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik ediblər.

Bundan əlavə, düşmənin 10-cu dağatıcı diviziyasının müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdəikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Əbədi və sarsılmaz müstəqillik



**Azərbaycan xalqı düz beş ildir ki, 18 Oktyabr Müstəqilliyin Bərpası Gününü Şanlı Vətən müharibəsində qazandığı parlaq Qarabağ zəfərinin tükənməz qürur hissi ilə qeyd edir. Çünki 1991-ci ildə müstəqilliyimizin bərpası zamanı milli maraqlarımızın təmini ilə bağlı qarşıda duran taleyüklü məsələlərin hamısı Prezident İlham Əliyevin qətiyyətli siyasəti sayəsində həll edilib.**

Bu gün biz bütöv Azərbaycanın qalib vətəndaşları olaraq 18 Oktyabr Müstəqilliyin Bərpası Gününün 34-cü ildönümünü suveren dövlətimizin ən qüdrətli çağında qeyd etməyin fəxarətini yaşayırıq. Sərhədlərimizdə bayrağımız dalğalanır, Konstitusiyamız bütün ərazilərimizdə qüvvədədir. Onilliklər boyu həsrəti ilə yaşadığımız Qarabağ və Şərqi Zəngəzurdan indi doğma hənir gəlir.

## Qurtuluş yolu

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. 15 oktyabr 2021-ci ildə Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə "Müstəqillik Günü haqqında" yeni qanunu təsdiqləyib. Qanuna əsasən, mayın 28-i Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan olunub.

34 il əvvəl müstəqilliyini yenidən elan etsə də, reallıqdır ki, Azərbaycan həmin dövrdə dərin böhran içərisində idi. Təcavüzkar Ermənistan müxtəlif xarici güc dairələrindən aldığı siyasi və hərbi dəstək sayəsində torpaqlarımızın işğalına başlamışdı. Bir siyasi quruluşdan digərinə yenicə keçid edən, siyasi təlatümlərlə çalxalanan Azərbaycan uçurumun bir addımlığında idi. Ta ki, Ulu Öndər Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdana və ölkəmizi qurtuluş yoluna çıxarana, Azərbaycanın müstəqilliyini əbədi və dönməz edənə qədər.

"Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərkən məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm", - deyə Ulu Öndər Heydər Əliyev çıxdığı çətin və şərəfli yolda üzərinə götürdüyü məsuliyyətli işi layiqincə yerinə yetirəcəyini əminliklə xalqına vəd etmişdi.

Qısa müddətdə ölkədə daxili sabitlik yaradan və Ermənistanla atəşkəs razılaşması əldə edən Ulu Öndər Heydər Əliyev dünyaya Azərbaycanın cəlbedici investor məkanı olması fikrini qəbul etdirdi. Dahi şəxsiyyət ölkə iqtisadiyyatının ən böhranlı çağlarında müstəsna şəxsi səyləri sayəsində "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bununla Azərbaycan, sözün əsl mənasında, işıqlı günlərə çıxdı və 1994-cü ildə bu müqavilə ilə əsası qoyulan uğurlu iqtisadi diplomatiya bu sahədə əldə etdiyimiz nailiyyətlərin təməlini təşkil etdi.

Ümummilli Lider Heydər Əliyev torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində mühüm diplomatiya həyata keçirdi. Qarabağ probleminin beynəlxalq gündəlikdən düşməsinə imkan vermədi, bu məsələni bütün tribunalardan dünyanın diqqətinə çatdırdı, münaqişənin ədalətli həlli üçün çağırışlar etdi.

## Milli maraqlar qətiyyətlə təmin olundu

2003-cü ildə xalqın yekdil qərarı ilə prezident seçilən İlham Əliyev Azərbaycanı hərtərəfli inkişaf mərhələsinə yüksəldərək, bugünkü güclü, qüdrətli, nüfuzlu zirvəyə yetirdi. Təbii ki, ölkəmizin rəhbərinin gündəliyindəki birnömrəli məsələ işğal altındakı torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmini idi. Elə bu istiqamətdə həyata keçirilən düşünülmüş siyasətin sayəsində də Azərbaycan möhtəşəm qələbələr silsiləsinə imza atdı. Prezident İlham Əliyevin qətiyyətli siyasəti xalqımızı milli hədəfinə, Qarabağ Zəfərinə çatdırdı. Vətən müharibəsində "dəmir yumruğ"u ilə düşməni məhv edən müzəffər lider 30 illik işğala nöqtə qoydu. Qarabağ və Şərqi Zəngəzurdan didərgin salınan yüz minlərlə vətəndaşımızı məcburi köçkünlükdən qurtardı. İkinci Qarabağ müharibəsi bitdikdən dərhal sonra işğaldan azad edilən yurdlarımızda genişmiqyaslı tikinti-quruculuq işlərinə start verildi. 2022-ci ildə Zəngilanın "ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə həyata keçirilən köçün timsalında Böyük qayıdış başladı. Bu gün Qarabağ və Şərqi Zəngəzurda on minlərlə insan yaşayır, işləyir, təhsil alır.

İkinci Qarabağ müharibəsində əldə olunan qələbənin davamı olaraq Qarabağda kök salmış separatizm də məhv edildi, Xankəndidə bayrağımız dalğalandırılmaqla ölkəmizin suverenliyi tam təmin olundu.

Ən böyük arzusu torpaqlarımızın azadlığı olan Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyində və özünün prezidentlik fəaliyyətinə başlamasının 20 illiyinin tamam olduğu 2023-cü ilin 15 oktyabr tarixində cənab İlham Əliyevin Xankəndi şəhərində dövlət bayrağını ucaltmasının rəmzi mənası var idi. Həmin günkü çıxışında, "Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı...

...Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və Qurani-Kərimə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi", - deyən Azərbaycan lideri ötən zaman dilimində xalqımız adına qazanılan tarixi zəfərləri qürurla bəyan etdi.

## Ən böyük dəyərimiz

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik və uzaqgörən siyasət sayəsində Azərbaycan Birləşmiş Millətlər Təşkilatının qətnamələrini hərb yolu ilə özü yerinə yetirərək beynəlxalq hüququ təmin etdi. Bakının liderliyi ilə aparılan normallaşma prosesi bölgədə de-fakto sülh üçün şərait yaratdı. Bu il avqustun 8-də Ağ Evdə, Vaşinqtonda ABŞ lideri Donald Trampın iştirakı ilə Ermənistanla Azərbaycan arasında sülh sazişinin mətninin paraflanması ilə üç onillik boyu Cənubi Qafqazda var olan münaqişəyə, qan-qadaya birdəfəlik son qoyulub. İndi bu bölgə geniş coğrafiya üçün əhəmiyyət daşıyan əməkdaşlıq ünvanı kimi dünyada adından söz etdirir. Bütün bunlar regionun lider dövləti Azərbaycanın yaratdığı və özündə sülhü ehtiva edən yeni reallıqlardır.

Bu gün qlobal miqyaslı məsələlərin həllində ölkəmizin oynadığı aktiv rol ön plana çıxır, Azərbaycanın ortaya qoyduğu sülh modeli dünyada rəğbətlə qarşılanır.

Prezident İlham Əliyevin təkcə son 20 günlük müddət ərzində müxtəlif coğrafiyalarda və fərqli formatlarda keçirilən beş nüfuzlu beynəlxalq sammitdə - Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə, Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında, Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etməsi də ölkəmizin rəhbərinin hərtərəfli siyasətindən xəbər verir.

Göründüyü kimi, Azərbaycan ötən iki onillik müddətdə həm ölkə, həm də dünya miqyaslı əhəmiyyətli uğurlar əldə edib. Qarabağın xilaskarı İlham Əliyevin əzmi və qətiyyəti sayəsində qazanılan bütün bu tarixi zəfərlər isə Azərbaycanın müstəqilliyinin əbədi olduğunu bir daha dünyaya nümayiş etdirir. Müstəqillik isə xalqımızın ən böyük dəyəri, sərvətidir.

Necə ki bu barədə Prezident İlham Əliyev deyib: "Müstəqilliyimiz bizim ən böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Tariximizin qürur və Zəfər səhifəsi

**Yer üzündə yaşayan bütün xalqlar zaman-zaman müstəqil dövlət qurmağa, azad yaşamağa can atıblar. Azərbaycan xalqı da XX əsrdə gərgin mübarizələrdən sonra iki dəfə müstəqilliyinə qovuşdu. İlk dəfə 1918-ci ildə böyük əziyyətlər bahasına qurulan Azərbaycan Xalq Cümhuriyyəti 2020-ci il aprel ayının 27-də bolşeviklər tərəfindən qan içində boğuldu.**



XX əsrin sonlarında baş verən geosiyasi hadisələr isə Azərbaycanın itirilmiş müstəqilliyini bərpa etməsi üçün münbit şərait yaratdı. Və nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Daha dəqiq desək, 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Bununla da "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən, Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmiş oldu.

Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və başqa dövlətlər tanıdı. 2 mart 1992-ci ildə isə Azərbaycan müstəqil dövlət kimi BMT-yə üzv qəbul olundu.

Həmin tarixdən artıq 34 il keçir. Müsəlman Şərqində ilk demokratik, hüquqi dövləti quran xalqımız bu şərəfli tarixlə həmişə qürur duyur. Qalib xalqımız bu günü sevinclə, fərəhlə qeyd edir. Eyni zamanda unutmur ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan çətindir. Müstəqilliyimiz bərpa olunduqdan sonra indiyə qədər azadlığımız, ərazi bütövlüyümüz uğrunda minlərlə vətənpərvər oğullar canlarından keçiblər və xalqımız ərazi bütövlüyümüz, müstəqilliyimiz və suverenliyimiz uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirələrini daim ehtiramla yad edir.

Təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində ölkəmiz Ermənistanın ərazi iddiası ilə üz-üzə qaldı. Qarabağda və Şərqi Zəngəzurda müharibə alovlandı. Erməni işğalçılarının başladığı savaş nəticəsində minlərlə soydaşımız doğma ocaqlarından didərgin düşdü. Dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan xalqı az müddətdən sonra onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən, Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları və elan olunmamış müharibə, digər tərəfdən isə dövlət rəhbərliyində çalışanların səriştəsizliyi, daxildə gedən siyasi çəkişmələr, vətəndaş qarşıdurması müstəqilliyin itirilməsi ilə nəticələnə bilərdi.

Belə çətin bir vaxtda müdrik xalqımız böyük şəxsiyyət, təcrübəli dövlət adamı Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ulu Öndər xalqın dəvətini qəbul edərək hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizi qorumaq və ölkəni möhkəmlətmək üçün fəaliyyətə başladı. Ümummilli Liderin rəhbərliyi altında qısa zamanda bütün sahələrdə uğurlar qazanıldı. Ən başlıcası, Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs razılaşması əldə olundu. Bundan sonra ölkə iqtisadiyyatında islahatlara start verildi. Bunun sayəsində ölkəmizin iqtisadiyyatı tədricən dünya iqtisadiyyatına inteqrasiya olundu. Dünyanın nüfuzlu neft şirkətlərinin Azərbaycandakı karbohidrogen resurslarının işlənməsinə cəlb olunması dayanıqlı inkişafın əsasını qoydu. Sonralar Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə etmişdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyununda hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizdən həmişə böyük inamla danışaraq deyirdi: "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir". Ulu Öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində görülən təxirəsalınmaz tədbirlər və uğurla həyata keçirilən islahatlar nəticəsində ölkəmiz iqtisadi, siyasi, hərbi və sosial sahələrdə uğurlar qazandı. Müstəqilliyimizi əbədi və dönməz edən böyük şəxsiyyət öz zəngin siyasi təcrübəsi, yüksək Vətən sevgisi, xalq təəssübkeşliyi ilə ölkəmizin dayaq sütunlarını möhkəmləndirdi, xarici siyasətini düzgün məcraya yönəltdi, iqtisadi gücünü artırdı, dövlətin təhlükəsizliyini təmin etdi.

Azərbaycan 2003-cü ilin oktyabrından yolunu Heydər Əliyev siyasi kursunun layiqli davamçısı və bu gün dünyanın Müzəffər Ali Baş Komandan kimi tanıdığı və hörmət etdiyi İlham Əliyevlə davam etdirir. 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalında qalmış ölkəmizin tarixi əraziləri məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında azad olundu. Məhz dövlətimizin başçısının qətiyyəti, güclü iradəsi və yüksək bacarığı sayəsində müstəqillik yolumuzun tarixinə Zəfər səhifəsi yazıldı.

Bu gün Prezident İlham Əliyev xalqımızın tarixi nailiyyəti olan müstəqil Azərbaycan dövlətinə uğurla rəhbərlik edir. Bu müddətdə İlham Əliyevin dövlət başçısı kimi həyata keçirdiyi məqsədyönlü siyasət, iqtisadi islahatlar və atdığı uğurlu addımlar həm ölkəmizdə, həm də beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Xüsusən siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək qabiliyyəti İlham Əliyevi yeni əsrin əvəzolunmaz liderinə çevirib.

Artıq beş ildir ki, bütün dünya azərbaycanlıları Müstəqilliyimizin Bərpası Gününü Vətən müharibəsində işğalçı Ermənistan üzərində qazanılan Zəfərin yaratdığı böyük sevinclə qeyd edir. Bu beş il ərzində dövlətimizin başçısı İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərə davamlı səfərləri, ərazidə aparılan yenidənqurma və bərpa işlərini şəxsən nəzarətdə saxlaması xalqımız tərəfindən minnətdarlıq hissi ilə qarşılanır.

Dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında daha da sıx birləşərək dünyada tanınan demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır. Böyük əminliklə demək olar ki, Azərbaycan xalqı tarixi ənənələrinə sadiq qalaraq Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da dövlətimizin müstəqilliyini daha da möhkəmləndirəcək, Azərbaycanı dünyanın ən qüdrətli, ən güclü ölkələrindən birinə çevirəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***





# Mədəniyyət





● Teatr xadimləri

# O, sənətin gücünə inanırdı

**Çətin və şərəfli yol keçən Azərbaycan teatrının tarixinə nəzər salanda neçə-neçə nəhəng simaların olduğunu görürük. Bu insanlar heç nədən ecazkar bir sənət yaratmışlar. Halbuki o zaman müvafiq binalar və səhnələr yox idi, rolları oynayacaq aktyorlar yetişməmişdi, üstəlik, şəriət qaydaları, köhnə baxışlar xeyli əngəllər törədirdi.**

Belə bir ağır zamanda teatr sənətinin böyük yükünü öz çiyinlərində daşıyan cəfakeşlər mütərəqqi etiqadları, xalqın inkişafına kömək edən məsləki əsas tutaraq işığı, inkişafı, müasirliyi tərənnüm edir, onların müdafiəsinə qalxır, yüksək ideallar, qayələr uğrunda mübarizə aparırdılar. Xalqın mədəni inkişafının tarixini yazırdılar.

Görkəmli teatr xadimi, bu sənətin qurucularından olan Cahangir Zeynalov tarixə milli teatrın ilk peşəkar aktyorlarından biri, onun nəzəri estetik prinsiplərini qələmə alan ilk teatrşünas kimi daxil olmuşdur. O, həm də realist aktyor məktəbinin banisi kimi də sayılıb-seçilirdi. Kərbəlayı Cahangir Zeynalov eyni zamanda Azərbaycan peşəkar teatr tarixində qüdrətli nəsil şəcərəsini yaradan ilk aktyor olmuşdur. Bu il görkəmli sənətkarın anadan olmasından 160 il ötür.

1873-cü il martın 10-da Bakıda Realnı məktəbin şagirdləri özlərinin qurduqları səhnədə Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-vəziri-xani-Lənkəran" pyesinin tamaşasını göstərdilər və həmin gün bununla böyük milli-mənəvi sərvətin təməli qoyuldu. "Mirzə Fətəlinin böyük istedadı dramaturgiyanı Azərbaycan ədəbiyyatının milli faktoruna çevirdi, xalq bu janrı qəbul etdi və sevdi. Bu yeni janr böyük ziyalılar, sənətkarlar zümrəsi yaratdı və bu ziyalılar, sənətkarlar eyni zamanda teatr xadimləri kimi Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında böyük rol oynadılar. Onların hamısı bu gün adbaad xatırlanmaq şərəfini və səlahiyyətlərini öz fəaliyyətləri və teatra sevgiləri ilə qazanıblar". Azərbaycan teatrının 140 illik yubiley tədbirində səsləndirilən bu fikirlərdə diqqətçəkən məqam o idi ki, teatrın inkişafında müstəsna rolu olan sənətkarların sırasında birinci yerdə Cahangir Zeynalovun adı çəkilirdi.

...1885-ci ildə növbəti tamaşalardan biri göstərilir. Pərdə açılır və əsərin qəhrəmanı səhnədə görünür. Tamaşaya gələnlər çaşqınlıqla bir-birlərinə baxırlar. Rolu ifa edən 20 yaşlı gənc Cahangir Zeynalov idi. Həmin gün o, aktyorluq sənətində debütünü edirdi.

Deyirlər ki, yaradıcılıq sevincdir, həyəcandır, həm də iztirabdır. Sənətkar böyük olduqca gərginliyi də artıq olur. Hünər gərəkdir ki, bu uzun, hamar olmayan yolu fəlakətə uğramadan keçə biləsən. Cahangir Zeynalovun axtarışları həmişə uğurlu olub və onun yaradıcılıq tapıntıları nəhayətsiz sevinclərlə başa çatıb, gurultulu alqışlarla qarşılanıb.

1885-ci ildə C.Zeynalov yenicə sənət yoluna qədəm qoymuşdu, bir-birinin ardınca uğurlar qazanırdı. O, həyatın, inkişafın zəruri tələbi olan prinsipləri böyük səylə müdafiə edirdi, sənətin gücünə inanırdı. Teatra yüngül bir yer kimi deyil, ideya-tərbiyəvi əhəmiyyəti olan məktəb kimi baxırdı. Yaratdığı obrazlarda zəmanənin qaranlığını, zülmünü, məşəqqətlərini açıb göstərirdi. O, zülmkar dünyadan insanların xilas olacağına böyük ümid bəsləyirdi. Yaxşı adamlar, nəcib, tərəqqipərvər ziyalılar artıq XIX əsrin sonlarında başlamış fırtınalardan çox şey gözləyirdilər: köhnə zəmanəni yola salmağı, dünyanı çirkablardan təmizləməyi, Yer üzünə azadlıq və səadət gətirməyi...

## Yolun ən çətinini seçdi: ömrünü teatra həsr etdi

C.Zeynalov 1865-ci ildə Bakıda varlı-dövlətli, əsil-nəcabətli bir nəsildə, tacir Məşədi Rzanın ailəsində dünyaya göz açmışdı. İbtidai təhsil almış, rus və fars dillərini dərindən mənimsəmişdi. Şəhərdə həm də xeyirxahlığı, səxavəti ilə tanınırdı. Maarifin, mədəniyyətin inkişafına yorulmadan böyük əmək sərf edirdi.



Əlbəttə, o, başqa bir həyat da yaşaya bilərdi. Malı, mülkü, pulu ona hər cür qayğılardan uzaq bir ömür vəd edirdi. Lakin Cahangir Zeynalov yolun çətinini seçdi. Ömrünü teatra həsr etdi.



Ustad sənətkar teatr səhnəsində onlarca obraz canlandırdı. Həbib bəy Mahmudbəyovla Soltanməcid Qənizadənin hazırladıqları tamaşalarda oynadı. 1900-cü illərdə Müsəlman Dram Artistləri Şirkətinin təşkilində böyük xidmətlər göstərdi. M.F.Axundzadənin "Hacı Qara"sında Hacı Qara, "Müsyö Jordan və dərviş Məstəli şah"da Şahbaz bəy və Məstəli şah, Nəcəf bəy Vəzirovun "Hacı Qənbər"ində Hacı Qənbər, "Müsibəti-Fəxrəddin"də Vəli, Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsində Tavad Maqobeli, Nəriman Nərimanovun "Dilin bəla"sında Şamdan bəy və Hacı İbrahim, eləcə də digər yazıçı və dramaturqların əsərlərində çoxsaylı obrazlar, sanballı surətlər, xarakterlər yaratdı. Bu aktyorun sənət eşqi, yaratmaq həvəsi daim közərən ocaq idi. Orada böyük də, kiçik də eyni hərarətlə qızınırdı.

Cahangir Zeynalov Azərbaycan səhnəsində Tolstoyun, Şillerin, Molyerin, Şəmsəddin Saminin və digər əcnəbi müəlliflərin qəhrəmanlarına da həyat verib. Geniş diapazona malik olan aktyor bəzən bir tamaşada iki obraz yaradıb. Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" operettasında həm Rza bəy, həm də Rüstəm bəy obrazlarını yaratmağa müvəffəq olmuşdu. Cahangir Zeynalovun fəaliyyətində diqqəti çəkən digər məqamlar da var. Bəzi tamaşalarda bir neçə quruluşda oynayıb. Hamısında da eyni məharəti nümayiş etdirib. Aktyor kimi çıxış etdiyi əksər əsərləri sonralar özü də rejissor kimi tamaşaya qoyub. Cahangir Zeynalov milli teatrımızın himayədarı, xeyirxahı olub.

Evi indiki Hüsü Hacıyev və Dilarə Əliyeva küçələrinin kəsişməsində - "Şahmat klubu"nun yerində idi. Cahangir Zeynalov otaqlardan birini aktyorların sərəncamına vermişdi ki, orada məşq etsinlər. Otağın yuxarı başında öz vəsaiti hesabına səhnə düzəltdirmişdi. Burada kimlər olmamışdı?! Dövrün mütərəqqi ziyalıları, müəllimləri, teatr fədailəri... Adlarını çəkmək kifayətdir ki, Cahangir Zeynalovun çevrəsinin kimlərin zəkasının nuruna qərq olduğunu təsəvvürə gətirəsən - Hacağa Abbasov, Mirzağa Əliyev, Məhəmməd bəy Əlvəndi, Hüseyn Ərəblinski, Mirmahmud Kazımovski kimi aktyorlar idi. Soltanməcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Bədəl bəy Bədəlbəyli kimi səhnə fədailəri... Bu insanların fəaliyyəti qəhrəmanlıq idi.

Nəsildən-nəslə keçən yazılardan, söhbətlərdən bəhrələnən tədqiqatçılar Cahangir Zeynalov sənətinin məziyyətini, ömrünün səhifələrini araşdırıb öyrənə biliblər. Öyrəniblər ki, onun yaratdığı hər obrazda böyük bir insan qəlbinin çırpıntısı var. Ona görə də istər xırda, istərsə də böyük rolları həmişə dərin məna ilə dolu idi. C.Zeynalovun yumoru Azərbaycan folklorundan mayalanmışdı. Obrazları süniliкdən uzaq olmuş, oyununda, nitqində pafosdan, ritorikadan, qeyri-səmimi monoloqlardan yan keçmişdi. Nəticədə rolları da həyati idi və inandırıcı təsir bağışlayırdı. Həmişə yaratdığı xarakterin daxili məntiqinə əsaslanmışdı. Mütəxəssislər onun müxtəlif üslubları sintez etmək bacarığını xüsusi vurğulayırlar. Odur ki, Cahangir Zeynalovun öz forma və prinsipləri ilə seçilən aktyor məktəbi olduğunu qeyd edirlər.

## O, həm də istedadlı rejissor idi

Cahangir Zeynalovun yaradıcılığının bir qolu da rejissorluqla bağlıdır. XIX əsrin sonlarında sənət dostu Nəcəfqulu Vəliyevlə birgə əsərlər tamaşaya qoyublar. 1900-cü illərdə Müsəlman Dram Artistləri Şirkətinin təşkilində C.Zeynalovun müstəsna rolu olub. "Nicat" (1906) və "Səfa" (1912), "Nəşri-maarif" mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında Kərbəlayı Cahangir əsasən aktyorluq etsə də, tamaşalara quruluşlar da verərdi.

Rejissor kimi parlaq istedada malik C.Zeynalov 1913-cü ildə "Səfa"da M.F.Axundzadənin "Hacı Qara", Nəcəf bəy Vəzirovun "Vətən", Zülfiqar bəy Hacıbəyovun "Evli ikən subay" əsərlərini tamaşaya qoyub. 1914-cü ildə Əbdürrəhim bəy Haqverdiyevin "Millət dostları", Molyerin "Zorən təbib", 1915-ci ildə Namiq Kamalın "Əhdə vəfa" əsərlərinə quruluş verib. O, növbəti illərdə də müxtəlif truppalarla əməkdaşlıq edərək səmərəli rejissorluq fəaliyyəti ilə məşğul olub.

"Səfa"nın teatr truppası 1912-ci ildən fəaliyyətdə idi, ancaq cəmiyyətin özü 1910-cu ildə yaranmışdı. "Səfa"nın kitabxanasının təşkilində böyük işlər görən Cahangir Zeynalov onun fonduna çoxlu kitab bağışlamışdı. Bakıda qabaqcıl elm ocaqlarından sayılan "Səfa" məktəbində Səməd Mənsur, Abbasmirzə Şərifzadə, Cəfər Bünyatzadə ilə yanaşı, Cahangir Zeynalov da dərs deyirdi. Dəfələrlə "Səfa" teatr bölməsi idarə heyətinin rəhbərləri sırasına seçilmişdi. Hətta 1914-cü ildə sədr vəzifəsini C.Zeynalov, müavinliyi isə Mehdi bəy Hacınski tutmuşlar.

Görkəmli sənətkarın ictimaiyyət arasında, həmkarları, tamaşaçıları, ümumiyyətlə, xalq arasında böyük hörməti vardı. 1910-cu il noyabrın 30-da - Qurban bayramı günündə teatr ictimaiyyəti Cahangir Zeynalovun səhnə fəaliyyətinin 25 illiyini təntənə ilə qeyd edir. O vaxtadək hələ heç bir aktyor üçün belə bir yubiley keçirilməmişdi. Tədbir Tağıyev teatrında baş tutur. Rəsmi hissədən sonra xanəndələr konsert verirlər. Yubiley çərçivəsində M.F.Axundzadənin "Lənkəran xanının vəziri" komediyası oynanılır və burada Mirzə Həbib rolunda Cahangir Zeynalov çıxış edir.

Sənətkarın bir çox üstün məziyyətləri ona cavan ikən əsl ağsaqqal nüfuzu qazandırması idi. Xeyirxah işləri görkəmli sənətkarı insanların gözündə ucaltmışdı. Mirzağa Əliyev, Hacağa Abbasov, Məmmədəli Vəlixanlı kimi aktyorların sənətə gəlişinə Kərbəlayı Cahangir böyük təkan vermişdi. Bütün bunlarla yanaşı, onun hər zaman barışa çağıran səsi, kəsərli sözü vardı. Məhz bunun sayəsində "Nicat", "Səfa", "Müsəlman Artistləri İttifaqı", Hacıbəyov qardaşlarının "Opera və dram truppası"nın bir-biri ilə çəkişmələri səngimişdi. Cahangir Zeynalov onları barışdırmış və Azərbaycan mədəniyyətinin inkişafı naminə birləşməyə çağırmışdı.

Məkrli və namərd qonşularımız olan ermənilərin törətdikləri qırğınlar və bəd əməllər bu və ya digər formada xalqımızın görkəmli ziyalılarının əksəriyyətinin taleyindən qara kabus kimi keçib. O cümlədən unudulmaz aktyorumuz Cahangir Zeynalovun da. 1918-ci il martın 17-də erməni daşnakları Bakıda vəhşiliklə yanğınlar və qırğınlar törədəndə Cahangir Zeynalov həyat yoldaşı Hüsniyyə xanımla, körpə qızı Nəsibə ilə İranın Ənzəli şəhərinə, müvəqqəti orada yaşayan qayınatası Məşədi Əbdüldayan Hüseynovun yanına gediblər. Oktyabrın əvvəllərində ara sakitləşəndə ailəsi ilə birgə "Ardahan" gəmisi ilə Bakıya qayıdarkən dənizdə fırtına qopub. Səkkiz gün dənizdə qalan gəmidə natəmizlikdən yatalaq (tif) xəstəliyi əmələ gəlib. Kərbəlayı Cahangir də bu xəstəliyə tutulub. Bakıya çatandan sonra yaxın dostlarından, qohumlarından xəbərsiz dünyasını dəyişib.

Teatr salnaməsi onun sonuncu dəfə "İsmailiyyə" zalının səhnəsində "Hacı Qara" tamaşasının baş rolunda oynadığını xəbər verir. Bu, aktyorun son yaradıcılıq günü kimi həyatına yazılır. İllər sonra səhnəyə Cahangirin yeganə yadigarı olan qızı Nəsibə xanım gəlir. Görkəmli sənətkar bütün varlığı ilə atasının arzularını davam etdirib, soyadını da, sənətini də yaşadıb. Təkcə teatr sənətinə deyil, bütün Azərbaycana gülüş, yumor, xoş əhvali-ruhiyyə dolu bir çələng bəxş edib. Bəxş etdiyi həm də atasının adını verdiyi oğlu - Xalq artisti Cahangir Novruzov olub.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Milli Kitabxanada "Əməkdar incəsənət xadimi Firudin Şuşinski -100" adlı ənənəvi kitab sərgisi açılıb

**Milli Kitabxanada görkəmli musiqişünas və tədqiqatçı, Əməkdar incəsənət xadimi Firudin Şuşinskinin anadan olmasının 100 illik yubileyi münasibətilə "Əməkdar incəsənət xadimi Firudin Şuşinski -100" adlı ənənəvi kitab sərgisi açılıb.**




Sərgidə Əməkdar incəsənət xadimi Firudin Şuşinskinin əsərləri, həyatı və yaradıcılığı haqqında Azərbaycan və xarici dillərdə çap olunmuş kitablar və dövri mətbuat materialları nümayiş olunur.

Qeyd edək ki, Firudin Mahmud oğlu Həsənov (Firudin Şuşinski) 1925-ci il oktyabrın 20-də Şuşada anadan olub. İlk təhsilini Şuşada alıb, 1931-ci ildə musiqi məktəbində skripka dərslərinə başlayıb. Pedaqoji məktəbi bitirdikdən sonra bir müddət müəllim işləyib.

1942-ci ildə könüllü olaraq İkinci Dünya müharibəsinə yollanıb və döyüşlərdə fərqləndiyinə görə "İgidliyə görə" medalı ilə təltif olunub. Müharibədən sonra Ağdamda ədəbiyyat müəllimi kimi çalışıb. 1946-cı ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub və uğurla bitirib.

Tələbə ikən SSRI Ali məktəb və elmi müəssisə işçiləri İttifaqının Azərbaycan Respublika Komitəsi, Bakı şəhəri ali məktəb tələbələrinin II ümumşəhər elmi konfransında iştirak edib. Konfransda 78 məruzə oxunub və həmin mövzular arasında yalnız Firudin Şuşinskinin "Vaqif dövlət xadimi kimi"mövzusu I mükafata layiq görülüb. Bu məqalə sonralar müəllifin ilk mətbu yazısı olub. Məzun olduqdan sonra Bakı məktəblərində tarix müəllimi işləyib.

Şuşinski Azərbaycan musiqi tarixinin tədqiqatçısı olub. İlk nəşr olunmuş məqaləsi "Vaqif və Qarabağ" olub. 1968-ci ildə "Şuşa", 1970-ci illərdə Cabbar Qaryağdı və Seyid Şuşinski haqqında kitabları, 1979-cu ildə "Azərbaycanın Xalq müğənniləri və musiqiçiləri" kitabı nəşr olunub.

1989-cu ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

2007-ci ildə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin təşəbbüsü ilə Şuşinskinin topladığı materiallar əsasında tarzən Mirzə Sadıxın həyat və yaradıcılığına həsr olunmuş "Sadıxcan" kitabı işıq üzü görüb.

# Artilleriya generalı Səməd bəy Mehmandarovun xatirəsi anılıb

**Respublika Gənclər Kitabxanasında hərb tariximizdə xüsusi yeri olan, Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qurucularından biri, müdafiə naziri, artilleriya generalı Səməd bəy Mehmandarovun 170 illik yubileyi münasibətilə "İlk ordu generalımız Səməd bəy Mehmandarov-170" adlı daycest hazırlanıb.**




Kitabxanadan bildirilib ki, material general Səməd bəy Mehmandarovun Vətən və millət qarşısındakı xidmətlərini oxuculara çatdırmaq, xüsusilə gənc nəsildə vətənpərvərlik hisslərini gücləndirmək məqsədilə ərsəyə gətirilib.

Təqdim olunan vəsaitdə Səməd bəy Mehmandarovun həyat və hərbi fəaliyyəti, artilleriya generalı kimi Azərbaycan Ordusuna və Cümhuriyyətin ordu quruculuğuna verdiyi töhfələrdən bəhs edilir. Daycestdə "General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncamın tam mətni təqdim edilir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan materialda Silahlı Qüvvələrin Hərbi Akademiyasının dosenti Atamalı Şahbazovun "Brilyantla bəzədilmiş qızıl Georgi silahını alan ilk azərbaycanlı sərkərdə" adlı məqalənin tam mətni, Səməd bəy Mehmandarovun həyat və fəaliyyətinə dair 2013-2025-ci illərdə dövri mətbuatda dərc edilən məqalələrin biblioqrafik təsviri, qısa xülasəsi və elektron mənbəsi yer alır.

# "Mədəniyyət rüzgarı"

**İşğaldan azad olunmuş Qarabağda dövlətimiz tərəfindən genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, keçmiş məcburi köçkünlərin mərhələli şəkildə doğma yurda qayıdışı təmin edilir. Sürətlə dirçəldilən torpaqlarda mədəni mühitin bərpası da diqqətdə saxlanılır.**







Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı və Qarabağ Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə oktyabrın 20-dən 31-dək Qarabağ bölgəsində "Mədəniyyət rüzgarı" adı altında silsilə tədbirlər keçiriləcək.

Mərkəzdən bildirilib ki, özündə mədəniyyətin bir neçə sahəsi üzrə tədbirləri birləşdirən layihə Qarabağ bölgəsinin 5 şəhərini (Ağdam, Ağcabədi, Bərdə, Füzuli və Xankəndi) əhatə edəcək.

MEMİM-in "Sənətkarın dostu" layihəsi üzrə oktyabrın 20-də Qarabağ Universiteti İncəsənət fakültəsinin dəstəyi ilə bu təhsil ocağında xanəndə, pedaqoq, Əməkdar incəsənət xadimi Aqil Məlikovla görüş, oktyabrın 21-də isə "Azərbaycan mədəniyyətində Üzeyir bəy Hacıbəyli fenomeni" mövzusunda elmi-praktik seminar keçiriləcək. Tədbir dahi bəstəkar, Azərbaycan professional musiqisinin banisi, musiqişünas və pedaqoq Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi münasibətilə gerçəkləşəcək.

Oktyabrın 20-25-də Ağdam Dövlət Dram Teatrında, 26-31-də isə Füzuli Dövlət Dram Teatrında "Regionlarda peşəkar teatr dərsləri" adlı silsilə tədbirlər keçiriləcək.

Oktyabrın 27-də Bərdə rayon Mədəniyyət Mərkəzində kitabxana əməkdaşları üçün təlim təşkil ediləcək.

"Mədəniyyət rüzgarı" çərçivəsində silsilə ustad dərsləri də nəzərdə tutulur. Oktyabrın 27-də Bərdə şəhər 1 nömrəli uşaq incəsənət məktəbində Xalq artisti professor Zəhra Quliyevanın iştirakı ilə violin, oktyabrın 28-də isə Üzeyir bəy Hacıbəyli adına Ağcabədi şəhər Qarabağ Muğam Mərkəzində Əməkdar artist Neymət Mürsəlovun iştirakı ilə tar, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərgiz Kəngərli tərəfindən fortepiano ixtisası üzrə ustad dərsləri keçiriləcək.

"Sənətkarın dostu" layihəsi çərçivəsində növbəti görüş oktyabrın 29-da Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində Xalq artisti, xanəndə, pedaqoq Mənsum İbrahimovun iştirakı ilə reallaşacaq.

Xatırladaq ki, MEMİM-in təşkilatçılığı ilə "Mədəniyyət rüzgarı" adlı ilk silsilə tədbirlər bu il aprelin 8-12-də Gəncə şəhərində keçirilib.

## Şənbə söhbəti




# Kiçiklərin böyük dərsi

**Yaşadığımız bir az şirin, bir az da acı olan bu dünyada həmişə görmüşük ki, kiçiklər böyüklərdən öyrənər. Əsrlərdir bu ənənə pozulmadan, yozulmadan davam edir. Yaşaya-yaşaya gəlib bugünkü zamanaya çatanda gördük ki, yox, heç də həmişə belə olmurmuş, indiki vaxtda böyüklər də balacalardan nəsə öyrənə bilərlər. Yaxud balacalar da böyüklərə nəyi isə öyrətməyi bacararlar.**

Ümumiyyətlə, belə götürəndə öyrənmək məsələsində yaşın elə də əhəmiyyəti yoxdur. Nə fərqi var ki, ya böyükdən öyrəndin, ya da kiçikdən. Əsas odur ki, yaxşı nə isə öyrənəsən, başını boş qoymayasan, əlinə düşmüş vaxtdan səmərəli istifadə edəsən, papağı boş-boşuna günə verməyəsən, arada onu zəhmət tərinlə isladasan.

Harada oxumağımızdan asılı olmayaraq, müəllimlərimiz başca bizdən böyük olurlar. Biz də yaşa-başa baxmadan onlardan öyrənirik. Başqa sahələrdə olduğu kimi, klassik musiqidə də belədir. Bir də görürsən, cavan bir oğlan, ya da qız elə bir muğam oxuyur, elə zəngulə vurur ki, azman sənətkarların ağzı açıla qalır. 60-70 yaşlı xanəndələr də onların ifalarından nə isə öyrənirlər.

Musiqidən söz düşmüşkən. Elə müğənnilər var ki, tez-tez qələmin, sözün tənqidinə tuş gəlirlər, təbii ki, canlı oxumaqdan qorxub fonoqrama üz tutanlar. Ac quş balası kimi ağzını yalandan açıb-yuman müğənniləri görən kimi təzyiqimiz qalxır. Belə anlarda üzümüzü televizora tutub xəyalən həmin müğənnilərlə danışırmış kimi deyirik ki, səsiniz varsa, kişi kimi, qadın kimi mərdi-mərdanə çıxın canlı oxuyun. Tamaşaçıları gözəl səsinizlə, nazlı avazınızla, zəngulələrinizlə feyziyab eləyin, sənəti zirvələrə qaldırın. Yox, əgər səsiniz yoxdursa, fonoqramla camaatı dolamayın.

Bu yaxınlarda muğam müsabiqəsi oldu. Yəqin ki, onu seyr edən "böyük "müğənni"lər kiçikyaşlı uşaqların necə məharətlə oxuduqlarını görüb az da olsa utandılar və onlardan yaxşıca dərs aldılar. Musiqi məktəbinin yetirmələri olan 10-12 yaşlı uşaqlar fonoqramsız-filansız oxuyaraq tamaşaçılara unudulmaz anlar yaşatdılar, zövq verdilər.

Bax, mahnı oxumaq, muğam ifa eləmək buna deyərlər. Yoxsa, bir də görürsən yaşlı, xeyli ad-san almış müğənni çıxdı efirə. Guya kişinin oğlu, yaxud qızı oxumağa gəlib. Mikrofonu əlinə alıb düşür ortaya və başlayır yalandan-palandan ağzını açıb-yummağa. Sonra da oturub aparıcının suallarına cavab verir, sənətdən, sənətkarlıqdan dəm vurur. Fonoqramla oxumağı bir yana, sənətdən, muğamdan danışmağı adamı lap yandırıbyaxır. Belələrinə demək istəyirsən ki, böyüklərdən öyrənmirsiniz, özünüz bilərsiniz, barı, uşaqlardan dərs götürün.

Uşaqlar demişkən. O gün parkda gəzirdik. Bir baba da nəvəsi ilə parkda dincəlirdi. Nəvə babaya suallar verir, o da bildiklərindən uşağın suallarına aydınlıq gətirirdi. Babanın bir işindən xoşumuz gəlmədi ki, o, nəvəsi ilə danışa-danışa siqaret çəkirdi. İstədik deyək ki, ay ağsaqqal, körpənin yanında siqaret çəkmə, acı tüstünlə onu zəhərləmə, sonra necə oldusa, fikrimizi dəyişdik. Fikirləşdik ki, sözlərimiz ağsaqqalın xətrinə dəyər, deyər nə işinizə. Lakin bizim baba ilə etmək istədiyimiz tərbiyə söhbətini elə nəvəsi etdi. Babasının siqaretini çəkib kötüyünü yerə tulladığını görən nəvə onu yerdən götürüb qaça-qaça aparıb yaxınlıqdakı zibil qabına atdı. Sonra da dedi:

- Baba, parkı çirkləndirmək olmaz! Bağçada müəllimə həmişə bizə deyir ki, heç vaxt zibili yerə atmayın. Başqalarına da bunu deyin.

Uşağın babasına əməllibaşlı dərs verdiyini görəndə ürəyimiz qürurla doldu, xeyli sevindik. Fikirləşdik ki, deyəsən, zəmanə tərsinə dövran edir. Əvvəllər böyüklər kiçiklərə dərs verirdi, indi isə əksinədir. Belə götürəndə, çox öyrənməyin heç bir ziyanı yoxdur. Həm də fərqi yoxdur, ya böyükdən öyrəndin, ya da kiçikdən. Əsas odur ki, dərs yaxşı dərs olsun və sən də ondan nə isə öyrənib düzgün nəticə çıxarasan.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### “AZƏRBAYCAN” *qəzetinə*

### *2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
“Zəfər yolu”nun başlanğıcı
44 günlük Vətən müharibəsi

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Artıq 5 ildir ki, Füzulidə Azərbaycan işığı yanır

**İşğaldan azad edilən ərazilərin Azərbaycan enerji sisteminə qoşulması və ən qısa vaxtda enerji ilə təchiz edilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bütün azad edilən rayonlarda olduğu kimi, Füzuli rayonunda da böyük işlər görülüb.**




"AzərEnerji" tərəfindən Füzulidəki "Şükürbəyli" yarımstansiyasına "İmişli" yarımstansiyasından 51 kilometr məsafədə 110 kilovoltluq ötürmə xətti çəkilib. Eyni zamanda "Şükürbəyli" yarımstansiyası genişləndirilərək qovşaq yarımstansiyası olaraq tam yenidən qurulub. Oradan isə Füzuli şəhərinə 110 kilovoltluq ikidövrəli ötürmə xətti çəkilib və bir neçə ayın içərisində Füzuli şəhərində 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilib.

2021-ci ilin iyun ayının 14-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "Füzuli" və "Şükürbəyli" yarımstansiyalarının açılışı olub.

Bu gün şəhər günü qeyd edilən Füzulidə artıq 5 ildir ki, Azərbaycan işığı yanır.

# Gizli "pandemiya"

## Avropada uşaqların cinsi istismarı üzrə hazırlanmış yeni hesabat dəhşətli faktlardan xəbər verir

**Avropa İttifaqı qanunvericiləri "çatlara nəzarət üzrə qanun layihəsi"ni müzakirə etdiyi zamanda uşaq birlikləri Avropada hər il 5 milyon uşağın onlayn və oflayn rejimdə cinsi istismara məruz qaldığını iddia edib.**

33 Avropa ölkəsində aparılan Childlight araşdırmasına görə, Avropada hər 15 uşaqdan biri zorlama və ya cinsi təcavüz qurbanı olub. Onlardan təxminən 4,7 faizi 18 yaşından əvvəl zorlamaya məruz qaldığını, 7,4 faizi isə cinsi zorakılığa məruz qaldığını bildirib.

Bu göstərici qızlar arasında (9,7 faiz) oğlanlara nisbətən (3,9 faiz) xeyli yüksəkdir.

Zorakılıq tez-tez ailə daxilində baş verib: uşaqların 7,6 faizi 18 yaşına çatmamış ailə üzvü tərəfindən cinsi zorakılığa məruz qalıb. 2023-cü ildə uşaq "qaynar xətt"ləri uşaqların cinsi istismarı və zorakılıqla bağlı 33 mindən çox zəng barədə məlumat verib.

Sorğuda iştirak edən ölkələr arasında ən çox cinsi zorakılığa məruz qalan 5,819 hadisə ilə Niderlanddır. Birləşmiş Krallıq "texnologiya ilə asanlaşdırılan uşaq cinsi istismarı və zorakılığı" üçün əsas yer kimi öndə olub. İrlandiya isə kommersiya cinsi istismarı üçün ən çox teqlərə (oflayn 227) sahibdir. Niderlandda yerləşən veb platformalar Avropada uşaqların cinsi istismarı ilə bağlı materialların 60 faizini təşkil edib. Ölkədə hər 10 min nəfərə düşən hesabatların ən yüksək göstəricisi (880,9 hesabat/bildiriş) qeydə alınıb. Ardınca Slovakiya (193,7) və Litva (190) gəlir.

2024-cü ildə Niderlandın Senatı hostinq şirkətlərindən uşaqlara qarşı cinsi istismar materiallarını öz serverlərindən çıxarmağı tələb edən yeni qanunu təsdiqləyib. Yeni qanunun təkrar pozuntu halında şirkətin dövriyyəsinin 10 faizi qədər cərimə ilə nəticələnə bilər. Bundan əlavə, yeni qanunvericilik tədbirləri yaxın zamanda Niderlandın Qlobal onlayn təhlükəsizliyi tənzimləmə şəbəkəsinə (Böyük Britaniya, Fransa, Cənubi Koreya və Avstraliyanın daxil olduğu bir qrup ölkə) qoşulması ilə gücləndiriləcək.

Onu da qeyd edək ki, 2025-ci ildə Niderland polisi uşaqların onlayn cinsi istismarına qarşı iki genişmiqyaslı əməliyyatda iştirak edib. Birincisi, süni intellekt tərəfindən yaradılan cinsi məzmunu hədəfə alıb, ikincisi isə, 2 milyona yaxın istifadəçisi olan pedofil platforması - "Kidflix"i ləğv edib. 79 nəfərin tutulması və 1400-ə yaxın şübhəlinin şəxsiyyətinin müəyyən edilməsi ilə nəticələnən əməliyyat Europol tərəfindən uşaqların cinsi istismarına qarşı indiyədək keçirilən ən böyük əməliyyatdır.



Childlight hesabatı həmçinin uşaqların təxminən 12,5 faizinin təcavüzə və ya cinsi təcavüzə məruz qaldığı Cənubi Asiyanı da araşdırır. Avropada olduğu kimi, bu regionda da təcavüzə məruz qalma halları qızlar arasında (14,5 faiz) oğlanlardan (11,5 faiz) yüksəkdir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***



# Bilmək istəyirəm

***Elektron ticarət saytında ödənilmiş sifariş çatdırılmırsa, məhkəməyə müraciət etmədən hansı hüquqi yollarla elektron ticarət saytından ödədiyim pulu geri ala bilərəm?***

***Fərqanə ÇƏRKƏZOVA,***
***Quba rayonu***

✓ - Elektron ticarət saytında ödənilmiş sifariş çatdırılmadıqda, ilk növbədə alıcı kimi satıcıya birbaşa müraciət edərək ödənişin geri qaytarılmasını tələb etmək hüququnuz var. Bu tələb elektron ticarət iştirakçıları arasında bağlanmış müqavilə və mülki qanunvericilik əsasında irəli sürülür və satıcı bu öhdəliyi yerinə yetirməlidir. Əgər satıcı tərəfindən ödəniş geri qaytarılmazsa, alıcı istehlakçı hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə əsaslanaraq, satıcıya yazılı və ya elektron formada müraciət edə bilər və bu halda satıcı qanunvericiliyin tələblərinə uyğun olaraq pulu geri qaytarmalıdır. Satıcı bu öhdəliyi yerinə yetirmədikdə, alıcı səlahiyyətli dövlət orqanlarına (məsələn, istehlakçı hüquqlarının müdafiəsi orqanına - Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə) şikayət edə bilər. Bu halda satıcıya qarşı inzibati məsuliyyət tədbirləri tətbiq oluna bilər. Praktikada birinci addım kimi satıcıya rəsmi müraciət göndərmək, daha sonra isə dövlət orqanlarına şikayət etmək tövsiyə olunur. Məhkəməyə müraciət sonuncu vasitə kimi istifadə edilir.

***Faktiki işə başladığım gündən elektron sistemdə yaranmış texniki problemlərlə əlaqədar əmək müqaviləsini vaxtında imzalamaq mümkün olmayıb. Bu səbəbdən əmrdə və müqavilədə işə başlama tarixi müqavilənin təsdiqləndiyi günə uyğun göstərilib. Bilmək istəyirəm, bu, qanunla necə olmalıdır?***

***Şahin DADAŞOV,***
***Bakı şəhəri***

✓ - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən, əmək müqaviləsi və ya ona dəyişiklik tərəflərin gücləndirilmiş elektron imzası ilə imzalandıqda, son imzalanma tarixindən əmək müqaviləsi bağlanılmış və hüquqi qüvvəyə minmiş hesab olunur. Yəni müqavilənin hüquqi qüvvəyə minməsi üçün əsas meyar onun elektron qaydada imzalanmasıdır və müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, işə başlama tarixi kimi də bu tarix əsas götürülür. Faktiki işə başlama tarixi texniki səbəbdən müqavilənin təsdiqlənmə tarixindən əvvəl olsa belə, əmək münasibətləri yalnız müqavilənin elektron imza ilə təsdiqləndiyi gündən hüquqi qüvvəyə minir və əmrdə, müqavilədə həmin tarix göstərilməlidir. Əks halda, əmək qanunvericiliyinin pozulması və işçinin müqaviləsiz işə cəlb edilməsi halları yarana bilər və bu, qanunla qadağandır. Praktikada texniki problemlər səbəbindən gecikmə olduqda, işəgötürən işçinin əmək müqaviləsinin elektron imza ilə təsdiqləndiyi günü işə başlama tarixi kimi rəsmiləşdirməlidir və bu tarixdən əvvəl faktiki işə başlama hüquqi əsas yaratmır. Alternativ kimi işəgötürən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əmək müqavilələrinin elektron bazasının operatoruna müraciət edə bilər.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


## ALLAH RƏHMƏT ELƏSİN!

Hikmət İsmayılov, Xəqani Yusifov, Elxan Qiyasbəyli, Əhəd Əsgərov və Raqif Məmmədli dostları Muğan Əliyevə əzizi, professor

**RAFİQ MEHDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi iş yoldaşları Yeganə Quliyevaya oğlu

**RƏŞADIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Xalq artisti, tarzən

**RAMİZ QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Aydın Əli oğlu Əliyev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi general-mayor Anar Cahangirova

**ANASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4085
Sifariş 2095

Qiyməti 60 qəpik